42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 79

# LUKANIN
# NƏQL ETDİYİ MÜJDƏ

## GİRİŞ

*«Lukanın nəql etdiyi Müjdə»* İsa Məsihi həm İsrailin, həm də bütün bəşəriyyətin vəd olunmuş Xilaskarı olaraq təqdim edir. Luka yazır ki, İsa «fəqirlərə müjdəni bildirmək üçün» göndərilmişdi. Bu Müjdə insan ehtiyaclarını aradan qaldırma yollarını göstərən və insanların qayğısına qalan fikirlərlə doludur. Lukanın nəql etdiyi Müjdənin xüsusi keyfiyyətlərindən biri də burada olan sevinc əhval-ruhiyyəsidir. Bu, xüsusilə, Müjdənin başlanğıcında İsanın gəlişini və sonda İsanın göyə qaldırılmasını bəyan edən fəsillərdə təsvir olunur. İsanın göyə qaldırılmasından sonra məsihçi imanının artıb-yayılması həmin müəllif tərəfindən *«Həvarilərin İşləri»* kitabında yazılmışdır.

Buraya daxil olan iki hissə (1-2 və 9-19-cu fəsillər) yalnız bu kitabda təsvir olunur. Onlardan biri mələklərin nəğməsi və İsa anadan olanda çobanların Onun yanına gəlməsidir. Bu hissələrə həmçinin yeniyetmə İsanın məbəddə olması, xeyirxah Samariyalı və itmiş oğul məsəlləri də daxildir.

Bu Müjdədə dua, Müqəddəs Ruhun fəaliyyəti, İsanın xidmətində qadınların rolu və Allahın günahları bağışlaması xüsusilə vurğulanır.

***Kitabın məzmunu:***

1:1-4 Kitabın Teofilə həsr olunması
1:5-2:52 Vəftizçi Yəhyanın və İsa Məsihin doğulması
3:1-20 Vəftizçi Yəhyanın xidməti
3:21-4:13 İsanın vəftizi və sınağa çəkilməsi
4:14-9:50 İsanın Qalileyada ictimai xidməti
9:51-19:27 Qalileyadan Yerusəlimə
19:28-23:56 Yerusəlimdəki son günlər
24:1-53 Rəbbin dirilməsi, görünməsi və göyə qaldırılması

***Kitabın Teofilə həsr olunması***

1 [1]Hörmətli Teofil, çoxları aramızda
baş vermiş hadisələrin tarixçəsini
yazmağa cəhd göstərib. [2]Əvvəldən
bəri Kəlamı öz gözləri ilə görənlər və
Ona xidmət edənlər bu hadisələri bizə
nəql etdiyi kimi [3]mən də əvvəlcədən
hər şeyi diqqətlə araşdırıb bunları sənə
ardıcıllıqla yazmağı münasib bildim.
[4]Belə ki sən öyrəndiyin şeylərin doğru
olduğunu biləsən.

***Vəftizçi Yəhyanın doğulması əvvəlcədən bildirilir***

[5]Yəhudeya padşahı Hirodun döv-

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 80



ründə Aviya bölüyündən[a] olan Zəkə-
riyyə adlı bir kahin var idi. Arvadı da
Harun nəslindən idi, adı Elizavet idi.
**6**Onların hər ikisi Allahın gözündə
saleh idi və Rəbbin qoyduğu əmr və
qaydaların hamısına nöqsansız əməl
edirdilər. **7**Amma Elizavet sonsuz
olduğuna görə onların övladı yox idi.
Hər ikisinin yaşı çox idi.

**8**Bir gün Zəkəriyyə öz bölüyünün
növbəsində Allahın önündə kahinlik
xidmətini icra edirdi. **9**Rəbbin məbə-
dinə daxil olub buxur yandırmaq üçün
kahinlik adətinə görə atılan püşk ona
düşdü. **10**Buxur yandırma zamanı
bütün camaat məbəddən kənarda dua
edirdi. **11**Bu vaxt Rəbbin bir mələyi
buxur qurbangahının sağında durub
Zəkəriyyəyə göründü. **12**Zəkəriyyə
bunu görüb təlaşa düşdü və çox qorx-
du. **13**Mələk isə ona dedi: «Qorxma,
Zəkəriyyə! Sənin duan eşidildi. Arva-
dın Elizavet sənə bir oğul doğacaq.
Sən də onun adını Yəhya[b] qoy. **14**Sən
sevinib şadlanacaqsan. Çox adam
onun dünyaya gəlməsinə görə sevinə-
cək. **15**Çünki o, Rəbbin gözündə böyük
olacaq. O, şərab və başqa kefləndirici
içki içməyəcək; hələ ana bətnində
olarkən Müqəddəs Ruhla dolu olacaq.
**16**O, İsrail övladlarının çoxunu Allahı
Rəbb tərəfə döndərəcək. **17**Ataların
ürəklərini övladlarına, itaətsiz adam-
ları salehlərin düşüncə tərzinə yö-
nəltmək və Rəbbə hazırlanmış xalqı
yetişdirmək üçün İlyasın ruhu və
qüvvəti ilə Rəbbin önündə gedəcək».
**18**Zəkəriyyə mələyə dedi: «Mən bunu
necə bilərəm? Axı mən çox yaşlıyam,
elə arvadımın da yaşı ötüb». **19**Mələk
ona cavab verdi: «Mən Allahın önün-
də dayanan Cəbrayılam və səninlə
danışıb bu müjdəni sənə çatdırmaq
üçün göndərilmişəm. **20**Budur, vaxtın-
da həyata keçəcək sözlərimə inanma-
dığına görə bu yerinə yetən günədək
sən lal olub danışa bilməyəcəksən».

**21**Bu vaxt camaat Zəkəriyyəni göz-
ləyirdi və onun məbəddə ləngiməsinə
heyrət edirdi. **22**O isə məbəddən çıxıb
xalqla danışa bilmədi. Onlar da Zəkə-
riyyənin məbəddə görüntü gördüyünü
başa düşdülər. Zəkəriyyə xalqa işarə
edirdi və lal olaraq qaldı.

**23**Zəkəriyyə xidmət vaxtı qurtaran-
da evinə qayıtdı. **24**Bu vaxtdan sonra
arvadı Elizavet uşağa qaldı və beş ay
evindən çıxmadı. **25**O deyirdi: «Bunu
mənim üçün Rəbb etdi. Bu vaxt O
mənə nəzər salıb məni el arasında
xəcalətdən qurtardı».

### *İsanın doğulması əvvəlcədən bildirilir*

**26**Elizavetin hamiləliyinin altıncı
ayında mələk Cəbrayıl Allah tərəfin-
dən Qalileyadakı Nazaret adlanan
şəhərə, **27**Davudun nəslindən olan
Yusif adlı bir kişiyə nişanlanan bakirə
qızın yanına göndərildi. Həmin qızın
adı Məryəm idi. **28**Mələk onun yanına
gəlib dedi: «Salam, ey lütfə nail olmuş
qız! Rəbb səninlədir».[c] **29**Məryəm bu
sözlərdən tam lərzəyə gəldi və
ürəyində bu salamın nə demək olduğu
barədə düşünməyə başladı. **30**Mələk
ona dedi: «Qorxma, Məryəm, çünki

a **1:5** *Aviya bölüyü* – məbəd ibadətində xidmət edən kahinlərin 24 bölüyündən biri idi. Bax: 1Saln. 24:10.

b **1:13** *Yəhya* – ibrani dilində *Rəbb lütf edir* deməkdir.

c **1:28** *Rəbb səninlədir* – bəzi əlyazmalarda *Rəbb səninlədir. Sən qadınlar arasında xeyir-dualısan* (Luka 1:42).

**1:15** *Say. 6:3* **1:17** *Mal. 4:5-6* **1:19** *Dan. 8:16; 9:21* **1:26-27** *Mat. 1:18*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 81



sən Allahın lütfünə nail oldun. 31Sən
hamilə olub bir Oğul doğacaqsan.
Onun adını İsa qoy. 32O, böyük
olacaq və Haqq-Taalanın Oğlu
adlanacaq. Rəbb Allah Ona atası
Davudun taxtını verəcək. 33O, Yaqub
nəslinin üzərində əbədi olaraq Padşah
olacaq və Onun Padşahlığının sonu
olmayacaq». 34Məryəm mələyə dedi:
«Bu necə olacaq? Mən heç kişi üzü
görməmişəm». 35Mələk cavabında
ona dedi: «Müqəddəs Ruh sənin
üzərinə enəcək, Haqq-Taalanın
qüdrəti üstünə kölgə salacaq. Buna
görə də doğulacaq müqəddəs Övlad
Allahın Oğlu adlanacaq. 36Bax
qohumun Elizavetin də yaşlı vaxtında
bətninə oğlan uşağı düşüb. Onu
sonsuz adlandırırdılar, amma o artıq
altı aydır ki, hamilədir. 37Çünki Allah
üçün mümkün olmayan şey yoxdur».
38Onda Məryəm dedi: «Mən Rəbbin
quluyam, qoy mənə sənin dediyin
kimi olsun». Mələk onu tərk edib
getdi.

### *Məryəmlə Elizavetin görüşü*

39O vaxt Məryəm tələsik qalxıb
Yəhudanın dağlıq bölgəsindəki bir
şəhərə yollandı. 40O, Zəkəriyyənin
evinə girib Elizaveti salamladı. 41Eli-
zavet Məryəmin salamını eşidəndə
bətnindəki körpə tərpəndi. Elizavet də
Müqəddəs Ruhla dolub 42uca səslə
çığırdı: «Sən qadınlar arasında xeyir-
dualısan, sənin bətninin bəhrəsi də
xeyir-dualıdır! 43Bu necə oldu ki,
Rəbbimin anası yanıma gəlib? 44Bax
sənin salamının səsi qulağıma çatanda
bətnimdəki körpə sevinclə tərpəndi.
45Rəbbin ona dediyi sözlərin yerinə
yetəcəyinə inanan qadın nə bəxtiyar-
dır!».

### *Məryəmin həmd ilahisi*

46Məryəm isə dedi:
47«Qəlbim Rəbbi ucaldır,
Ruhum Xilaskarım Allaha görə
şadlanır,
48Çünki O Öz qulunun yazıq halını
gördü.
Bundan sonra bütün nəsillər məni
bəxtiyar sayacaq,
49Çünki Qadir Olan mənim üçün
böyük işlər etdi,
Onun adı müqəddəsdir!
50Onun mərhəməti də
nəsildən-nəslə
Ondan qorxanlara göstərilər.
51O, qolu ilə qüdrətli işlər gördü,
Ürəklərində qürurla düşünənləri
pərən-pərən saldı.
52Hökmdarları taxtlarından endirdi,
Məzlumları yüksəltdi.
53Acları nemətlərlə doydurdu,
Varlıları isə əliboş yola saldı.
54-55Rəbb qulu İsrailin imdadına
çatdı,
Ata-babalarımıza vəd etdiyi kimi
İbrahimə və onun nəslinə əbədilik
Mərhəmət göstərməyi yada saldı».
56Məryəm Elizavetin yanında üç
aya yaxın qalıb evinə qayıtdı.

### *Vəftizçi Yəhyanın doğulması*

57Elizavetin doğmaq vaxtı çatdı. O,
bir oğlan doğdu. 58Onun qohum-qon-
şuları Rəbbin ona böyük mərhəmət
göstərdiyini eşidəndə onunla birgə
sevindilər. 59Səkkizinci gün körpəni
sünnət etməyə gəldilər. Ona atası
Zəkəriyyənin adını qoymaq istədilər.

**1:31** *Mat. 1:21* **1:32-33** *2Şam. 7:12-16; Yeş. 9:7* **1:37** *Yar. 18:14* **1:46-55** *1Şam. 2:1-10*
**1:54-55** *Yar. 17:7* **1:59** *Lev. 12:3*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 82



**60**Körpənin anası isə dedi: «Yox, onun
adı Yəhya olacaq». **61**Ona dedilər:
«Axı qohumların arasında belə adı
olan bir kəs yoxdur». **62**Körpənin
atasından körpəyə nə ad qoyulmasını
işarə ilə soruşdular. **63**O, bir yazı
lövhəciyi istəyib yazdı: «Onun adı
Yəhyadır». Hamı heyrətə gəldi.
**64**Həmin o anda Zəkəriyyənin dili
açıldı. O, Allaha alqış etməyə başladı.
**65**Qonşuların hamısı qorxuya düşdü.
Bütün bu hadisələr haqqında Yəhu-
deyanın dağlıq bölgəsinin hər yerində
danışırdılar. **66**Bu barədə eşidən hər
bir kəs fikrə gedib deyərdi: «Bu körpə
böyüyüb nə olacaq?» Çünki Rəbbin əli
onun üzərində idi.

### *Zəkəriyyənin peyğəmbərliyi*

**67**Körpənin atası Zəkəriyyə Müqəd-
dəs Ruhla dolub belə peyğəmbərlik
etdi:

**68**«Alqış olsun İsrailin Allahı Rəbbə!
Çünki Öz xalqına nəzər salıb onları
satın aldı.
**69**O, qulu Davudun nəslindən
Bizə qüdrətli Xilaskar yetirdi.[a]
**70**Qədimdən bəri Öz müqəddəs
peyğəmbərlərinin vasitəsilə
bildirdiyi kimi
**71**Düşmənlərimizdən və bizə nifrət
edənlərin əlindən bizi xilas etdi.
**72**Beləcə ata-babalarımıza mərhəmət
göstərib
Öz müqəddəs Əhdini xatırladı.
**73**Atamız İbrahimə and içdiyi kimi
Bizə elə güc verdi ki,
**74-75**Düşmənlərimizin əlindən
qurtulub
Həyatımız boyu qorxmadan
Rəbbin önündə
Müqəddəslik və salehliklə Ona
ibadət edək.
**76**Ey körpə, sən Haqq-Taalanın
peyğəmbəri adlanacaqsan,
Çünki Rəbbin önündə
gedəcəksən,
Onun yolunu hazırlayacaqsan.
**77**Onun xalqına günahlarının
bağışlanması ilə
Xilas olunmaları barədə
bildirəcəksən.
**78**Axı Allahımızın ürəyi
mərhəmətlidir,
Onun bu mərhəmətinə görə
Ucalarda bizim üçün Günəş[b]
doğacaq ki,
**79**Zülmətdə və ölüm kölgəsində
oturanların üzərinə nur saçsın,
Ayaqlarımızı sülh yoluna
yönəltsin».

**80**Körpə isə böyüyüb ruhən qüvvət-
lənirdi və İsrail xalqına görünən günə-
dək çöldə qaldı.

### *İsanın doğulması*

*(Mat. 1:18-25)*

**2** **1**O günlərdə qeysər Avqust bütün
Roma ölkəsi üçün siyahıyaalma
keçirmək barəsində fərman verdi. **2**Bu
ilk siyahıyaalma Kirini Suriyanın
valisi olanda keçirilmişdi. **3**Hamı siya-
hıya alınmaq üçün öz şəhərinə yollan-
dı.

**4**Yusif də Davudun əsil-nəslindən
olduğuna görə Qalileyanın Nazaret
şəhərindən çıxıb Yəhudeyaya, Davu-
dun şəhəri olan Bet-Lexemə yollandı.
**5**O oraya hamilə olan nişanlısı Mər-
yəmlə birlikdə siyahıya alınmaq üçün
getdi. **6**Onlar orada olarkən Məryə-
min doğuş vaxtı çatdı. **7**O, ilk Oğlunu

---

a **1:69** *Bizə qüdrətli Xilaskar yetirdi* – hərfi tərcümədə *Bizə xilas buynuzunu qaldırdı.*
b **1:78** *Günəş* – yəni Məsih.
**1:78-79** *Yeş. 9:2*

doğdu. Körpəni bələyib axura qoydu, çünki qonaq evində onlara yer tapılmadı.

*Mələklər çobanlara xoş xəbər verir*

8O ərazidə sürülərinin yanında gecə
növbəsini çəkən çobanlar var idi.
Onlar çöldə gecələyirdi. 9Birdən Rəb-
bin bir mələyi onların qarşısında zühur
etdi və Rəbbin ehtişamı onların üzə-
rinə nur saçdı. Çobanları böyük qorxu
bürüdü. 10Mələk onlara dedi: «Qorx-
mayın! Mən sizə bütün xalqı çox
sevindirəcək bir Müjdə gətirmişəm.
11Bu gün Davudun şəhərində sizin
üçün Xilaskar doğuldu. Bu, Rəbb
Məsihdir. 12Sizə əlamət bu olacaq:
axurda yatan bələnmiş Körpə tapa-
caqsınız». 13Qəflətən mələyin yanında
Allaha həmd edən çoxsaylı səmavi
ordu göründü. Onlar belə deyirdi:

14«Ən ucalarda Allaha izzət,
Yer üzündə Onun razı olduğu
insanlara sülh olsun!»

15Mələklər çobanları tərk edib göyə
qalxandan sonra onlar bir-birinə dedi:
«Gəlin Bet-Lexemə gedək və Rəbbin
bizə bildirdiyi bu baş vermiş hadisəni
görək». 16Onlar tələsik getdilər. Mər-
yəmi, Yusifi və axurda yatan Körpəni
tapdılar. 17Çobanlar Körpəni görəndə
Onun haqqında onlara nəql edilənləri
bildirdilər. 18Bunu eşidənlərin hamısı
çobanların sözlərindən heyrətə gəldi.
19Məryəm isə bütün bu şeyləri dərin
düşünərək öz ürəyində saxlayırdı.
20Çobanlar bütün gördükləri və eşit-
diklərinə görə Allahı izzətləndirib
həmd edərək geri qayıtdılar. Çünki
hər şey onlara söylənən kimi baş ver-
mişdi.

*İsanın sünnəti və Allaha həsr edilməsi*

21Səkkizinci gün Körpənin sünnət
olunması vaxtı gələndə Onun adını İsa
qoydular. Bu ad ona ana bətninə
düşməzdən əvvəl mələk tərəfindən
verilmişdi.
22Musanın Qanununa görə paklan-
ma dövrü tamamlanandan sonra Yu-
siflə Məryəm Körpəni Rəbbə həsr
etmək üçün Yerusəlimə gətirdilər,
23necə ki Rəbbin Qanununda yazılıb:
«Bətndən ilk doğulan bütün oğlan-
lar Rəbb üçün müqəddəs sayılsın».
24Həmçinin onlar qurban təqdim etdi,
necə ki Rəbbin Qanununda əmr olu-
nub: «İki qumru quşu yaxud iki gö-
yərçin balası».

*Şimeonun Allaha alqış duası*

25O vaxt Yerusəlimdə Şimeon adlı
bir adam var idi. O, saleh və mömin
idi. İsrailə təsəlli veriləcəyini gözləyirdi
və Müqəddəs Ruh onun üzərində idi.
26Müqəddəs Ruh ona əvvəlcədən
açıqlamışdı ki, o, Rəbbin Məsihini
görməyincə ölməyəcək. 27Beləliklə,
Şimeon Ruhdan ilham alıb məbədə
gəldi. Körpənin ata-anası Qanunda
qoyulan adətə əməl etmək üçün Körpə
İsanı məbədə gətirəndə 28Şimeon
Körpəni qucağına götürdü və Allaha
alqış edərək belə dedi:

29«Ey Pərvərdigar, indi Sənin sözünə
görə
Mən – Sənin qulun arxayın ölə
bilərəm.
30-32Çünki bütün xalqların gözləri
önündə hazırladığın xilası,
Millətlərə aşkar edən nuru,
Xalqın İsrail üçün də izzəti

**2:21** *Lev. 12:3; Luka 1:31* **2:22-24** *Lev. 12:6-8* **2:23** *Çıx. 13:1-2,12*
**2:30-32** *Yeş. 42:6-7; 49:6; 52:10*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 84



Öz gözlərimlə gördüm».
33 Körpənin ata-anası Onun barəsində
deyilən sözlərə görə heyrətə gəldi.
34 Şimeon onlara xeyir-dua verib
Körpənin anası Məryəmə belə dedi:
«Bu Körpə İsraildə bir çox adamın
yıxılmasının ya ucalmasının səbəbkarı
və insanların rədd etdiyi bir əlamət
olmaq üçün təyin olunub. 35 Sənin
köksünə isə sanki qılınc saplanacaq.
Bütün bunlar bir çoxlarının qəlbindəki
fikirlərin aşkara çıxması üçün olacaq».

### *Xannanın peyğəmbərliyi*

36 Orada Aşer qəbiləsindən olan
Penuel qızı Xanna adlı qadın pey-
ğəmbər də var idi. O, çox yaşlı idi.
Gənc yaşında ərə getmiş, əri ilə yeddi il
yaşayıb dul qalmışdı. 37 Bu, səksən
dörd yaşında dul qadın idi. O, məbədi
tərk etmirdi və oruc tutub dua edərək
gecə-gündüz Rəbbə ibadət edirdi.
38 Xanna da bu zaman yaxınlaşdı və
Allaha şükür edərək Yerusəlimin satın
alınmasını gözləyən bütün adamlara
Körpə İsa barədə nəql etməyə başladı.

### *Nazaretə qayıtma*

39 Yusiflə Məryəm Rəbbin Qanu-
nuna əsasən hər şeyi icra edib qurtar-
dıqdan sonra Qalileyaya – öz şəhərləri
olan Nazaretə qayıtdı. 40 Uşaq böyü-
yür, qüvvətlənir və hikmətdə yet-
kinləşirdi. Allahın lütfü də Onun
üzərində idi.

### *Yeniyetmə İsa məbəddə*

41 Hər il İsanın ata-anası Pasxa bay-
ramında Yerusəlimə gedərdi. 42 İsanın
on iki yaşı tamam olanda onlar
bayram adətinə görə yenə ora getdilər.
43 Bayram qurtarandan sonra onlar
evə yollandı. Amma yeniyetmə İsa
Yerusəlimdə qaldı, onun ata-anasının
isə bundan xəbəri yox idi. 44 Onlar
İsanın səyyahlar dəstəsi içində getdi-
yini düşünürdülər. Amma bir günlük
yolu gedəndən sonra Onu dostların və
qohumların arasında axtarmağa baş-
ladılar. 45 Onu tapmadılar və axtara-
axtara Yerusəlimə qayıtdılar. 46 Üç
gündən sonra Onu məbəddə tapdılar.
İsa müəllimlər arasında oturmuşdu və
onlara qulaq asır, suallar verirdi.
47 Onu dinləyən hər kəs Onun zəkasına
və verdiyi cavablara mat qalırdı.
48 Ata-anası Onu görüb təəccübləndi.
İsanın anası Ona dedi: «Oğlum, bu
nədir başımıza gətirdin? Atanla mən
nigaran qalıb səni axtarırdıq». 49 İsa
onlara cavab verdi: «Məni nə üçün
axtarırdınız? Məgər bilmirdiniz ki,
Mən Atamın evində olmalıyam?»
50 Amma onlar Onun nə demək istə-
diyini başa düşmədilər. 51 Sonra İsa
ata-anası ilə Nazaretə qayıtdı. O, ata-
anasına itaətli idi. Onun anası isə
bütün bu şeyləri öz ürəyində saxla-
yırdı. 52 İsa böyüyürdü və hikmətdə
artırdı. O, Allahın və insanların qar-
şısında lütf qazanırdı.

### *Vəftizçi Yəhyanın gəlişi*

*(Mat. 3:1-12; Mark 1:1-8; Yəh. 1:19-28)*

3 1 Qeysər Tiberinin hakimiyyətinin
on beşinci ili idi. O dövrdə Ponti
Pilat Yəhudeyanın valisi idi. Hirod[a]
Qalileyada, qardaşı Filip İtureya və
Traxonitis bölgəsində, Lisaniya Abi-
leniyada hökmranlıq edirdi. 2 Xa-
nanla Qayafa baş kahin idi. O vaxt
çöldə Zəkəriyyənin oğlu Yəhyaya

a **3:1** *Hirod* – Bu Hirod İsanın anadan olan vaxtında hökmranlıq edən padşah Hirodun oğludur.
**2:39** *Mat. 2:23* **2:41** *Çıx. 12:1-27; Qanun. 16:1-8* **2:52** *1Şam. 2:26; Sül. 3:4*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 85



Allahın kəlamı nazil oldu. [3]O da
İordan çayının ətrafındakı bütün
bölgəni dolaşaraq insanların öz gü-
nahlarının bağışlanması üçün tövbə
edib vəftiz olunmasını vəz edirdi.
[4]Necə ki Yeşaya peyğəmbərin kita-
bında yazılıb:

«Səhrada nida edənin səsi gəlir:
“Rəbbin yolunu hazırlayın,
Onun keçəcəyi yerləri düz edin.
[5]Hər dərə yüksəldiləcək,
Hər dağ və təpə aşağı endiriləcək,
Yoldakı əyriliklər düzələcək,
Kələ-kötür yerlər hamar ediləcək.
[6]Bütün bəşər Allahın xilasını
görəcək”».

[7]Yəhya vəftiz olunmaq üçün yanına
gələn camaata deyirdi: «Ey gürzələr
nəsli! Üzərinizə gələcək qəzəbdən
canınızı qurtarmağı sizin beyninizə
kim yeridib? [8]İndi isə tövbəyə layiq
bəhrələr verin. Ürəyinizdə “atamız
İbrahimdir” deməyə başlamayın. Mən
sizə deyirəm ki, Allah bu daşlardan
İbrahimə övlad yaratmağa qadirdir.
[9]Artıq balta ağacların dibində yatır.
Beləliklə, yaxşı bəhrə verməyən hər
ağac kəsilir və oda atılır».

[10]Camaat ondan soruşurdu: «Bəs
biz nə edək?» [11]Yəhya onlara belə
cavab verdi: «İki köynəyi olan birini
köynəyi olmayana versin. Həmçinin
yeməyi olan adam da olmayanla
bölüşsün». [12]Vergiyığanlar da vəftiz
olunmaq üçün onun yanına gəlib
soruşdular: «Müəllim, biz nə edək?»
[13]Yəhya onlara dedi: «Sizə tapşırılan
məbləğdən artıq vergi yığmayın».
[14]Bəzi əsgərlər də gəlib ondan soruş-
dular: «Bəs biz nə etməliyik?» Yəhya
da onlara cavab verdi: «Heç kimdən
zorla pul almayın, nahaq yerə ittiham
etməyin, aldığınız maaşla kifayətlə-
nin».

[15]Xalq ümidlə gözləyirdi və hamı
ürəyində Yəhya haqqında öz-özündən
soruşurdu: «Görəsən bu, Məsihdir-
mi?» [16]Yəhya onların hamısına belə
cavab verdi: «Mən sizi su ilə vəftiz
edirəm, amma məndən daha Qüdrət-
lisi gəlir. Mən Onun çarıqlarının ba-
ğını açmağa belə, layiq deyiləm. O sizi
Müqəddəs Ruhla və odla vəftiz edə-
cək. [17]Öz xırmanını sovurmaq və taxılı
anbarına toplamaq üçün kürəyi əlində
hazırdır. Küləşi isə sönməz odda yan-
dıracaq».

[18]Yəhya çoxlu başqa öyüd-nəsihət
verərək xalqa Müjdəni vəz edirdi.
[19]Amma Yəhya hökmdar Hirodu
qardaşı arvadı Hirodiyanı aldığına və
etdiyi hər cür pis işlərə görə məzəmmət
etdikdə [20]Hirod etdiyi bütün pis işlərə
bunu da əlavə edərək Yəhyanı zindana
saldırdı.

### *İsanın vəftiz olunması*
*(Mat. 3:13-17; Mark 1:9-11)*

[21]Bütün xalq vəftiz olunanda İsa da
vəftiz olundu. O dua edərkən göy
yarıldı, [22]Müqəddəs Ruh bədəncə
göyərçin şəklində Onun üzərinə endi.
Göydən bir səda gəldi: «Sən Mənim
sevimli Oğlumsan, Səndən razıyam».

### *İsanın nəsil şəcərəsi*
*(Mat. 1:1-17)*

[23]İsa Öz xidmətinə başlayanda
təxminən otuz yaşında idi. İnsanların
zənnincə, O bu nəsildən idi: Yusif

**3:4-6** *Yeş. 40:3-5* **3:7** *Mat. 12:34; 23:33* **3:8** *Yəh. 8:33* **3:9** *Mat. 7:19* **3:12** *Luka 7:29*
**3:19-20** *Mat. 14:3-4; Mark 6:17-18* **3:21-22** *Yar. 22:2; Zəb. 2:7; Yeş. 42:1; Mat. 3:17; Mark 1:11;*
**3:21-22** *Luka 9:35*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 86



Oğlu Eli oğlu 24Mattat oğlu Levi oğlu
Melki oğlu Yannay oğlu Yusif oğlu
25Mattitya oğlu Amos oğlu Nahum
oğlu Hasli oğlu Naqqay oğlu 26Mahat
oğlu Mattitya oğlu Şimi oğlu Yoseh
oğlu Yoda oğlu 27Yoxanan oğlu Reşa
oğlu Zerubbabil oğlu Şealtiel oğlu
Neri oğlu 28Melki oğlu Addi oğlu
Kosam oğlu Elmadam oğlu Er oğlu
29Yeşua oğlu Eliezer oğlu Yorim oğlu
Mattat oğlu Levi oğlu 30Şimeon oğlu
Yəhuda oğlu Yusif oğlu Yonam oğlu
Elyaqim oğlu 31Melea oğlu Menna
oğlu Mattata oğlu Natan oğlu Davud
oğlu 32Yessey oğlu Oved oğlu Boaz
oğlu Salmon oğlu Naxşon oğlu 33Am-
minadav oğlu Admin oğlu Arni oğlu[a]
Xesron oğlu Peres oğlu Yəhuda oğlu
34Yaqub oğlu İshaq oğlu İbrahim oğlu
Terah oğlu Naxor oğlu 35Seruq oğlu
Reu oğlu Peleq oğlu Ever oğlu Şelah
oğlu 36Qenan oğlu Arpakşad oğlu
Sam oğlu Nuh oğlu Lemek oğlu
37Metuşelah oğlu Xanok oğlu Yered
oğlu Mahalalel oğlu Qenan oğlu
38Enoş oğlu Şet oğlu Adəm oğlu Allah
oğlu.

### *İsanın sınağa çəkilməsi*

*(Mat. 4:1-11; Mark 1:12-13)*

4 1İsa Müqəddəs Ruhla dolaraq
İordan çayından qayıtdı və Ruh
tərəfindən səhraya aparıldı. 2Orada
İsa qırx gün ərzində iblis tərəfindən
sınağa çəkildi. Bu müddətdə İsa heç nə
yemədi və qırx gün keçəndən sonra
acdı. 3İblis Ona dedi: «Əgər Sən
Allahın Oğlusansa, bu daşa əmr et ki,
çörəyə dönsün». 4Lakin İsa ona belə
cavab verdi: «“İnsan yalnız çörəklə
yaşamaz”[b] deyə yazılmışdır».

5Sonra iblis İsanı yuxarıya[c] çıxardı
və bir anda dünyanın bütün pad-
şahlıqlarını Ona göstərdi. 6İblis İsaya
dedi: «Mən bütün bunların üzərindəki
səlahiyyəti və şan-şöhrəti Sənə verə-
cəyəm. Çünki bunlar mənə verilib və
mən kimə istəsəm, ona verə bilərəm.
7Bax əgər Sən mənə səcdə etsən,
bunların hamısı sənin olacaq». 8İsa
ona belə cavab verdi: «“Allahın[d]
Rəbbə səcdə et və yalnız Ona ibadət
et” deyə yazılmışdır».

9Sonra iblis Onu Yerusəlimə apardı
və məbədin qülləsinə qoyub dedi:
«Əgər Sən Allahın Oğlusansa, özünü
buradan aşağı at. 10Axı

“Allah Sənə görə mələklərinə əmr
edər ki,
Səni qorusunlar,
11Səni əlləri üstündə aparsınlar,
Ayağın bir daşa dəyməsin”

deyə yazılmışdır». 12Amma İsa cava-
bında ona belə dedi: «“Allahın Rəbbi
sınama” deyilmişdir».

13İblis sınaqların hamısını qurta-
randan sonra bir müddət Onu tərk
etdi.

### *İsa xidmətinə başlayır*

*(Mat. 4:12-17; Mark 1:14-15)*

14İsa Ruhun qüdrəti ilə Qalileyaya
qayıtdı. Onun haqqında xəbər bütün
bölgəyə yayıldı. 15İsa oranın sinaqoq-
larında təlim öyrətməyə başladı. Hamı
Onu izzətləndirirdi.

---

a **3:33** *Admin oğlu Arni oğlu* – bəzi əlyazmalarda *Ram oğlu.*

b **4:4** *İnsan yalnız çörəklə yaşamaz* – bəzi əlyazmalarda *İnsan yalnız çörəklə deyil, Allahın hər bir kəlməsi ilə yaşayar* (Mat. 4:4).

c **4:5** *Yuxarıya* – bəzi əlyazmalarda *yüksək bir dağa.*

d **4:8** *Verdi: «“Allahın* – bəzi əlyazmalarda *verdi: «Şeytan, rədd ol yanımdan! “Allahın.*

**4:4** *Qanun. 8:3* **4:8** *Qanun. 6:13* **4:10** *Zəb. 91:11* **4:11** *Zəb. 91:12* **4:12** *Qanun. 6:16*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 87



### *İsa Nazaretdə rədd edilir*
*(Mat. 13:53-58; Mark 6:1-6)*

16İsa böyüdüyü Nazaret şəhərinə
gəldi və adətinə görə Şənbə günü
sinaqoqa getdi. O, Müqəddəs Yazı-
lardan oxumaq üçün ayağa qalxdı.
17Ona Yeşaya peyğəmbərin kitabını
verdilər. İsa tumarı açıb bu sözlər yazı-
lan hissəni tapdı:

18«Rəbbin Ruhu üzərimdədir,
Çünki fəqirlərə Müjdəni bildirmək
üçün
O Məni məsh etdi.
Əsirlərə azadlıq,[a]
Korlara gözlərinin açılmasını elan
etmək üçün,
Məzlumları sərbəstliyə buraxmaq
üçün,
19Rəbbin lütf ilini bəyan etmək üçün
Məni göndərdi».

20Sonra İsa tumarı bağladı və xid-
mətçiyə verib oturdu. Sinaqoqda otu-
ranların hamısı Ona diqqətlə baxırdı.
21İsa onlara «eşitdiyiniz bu Müqəddəs
Yazı bu gün yerinə yetdi» deyə danış-
mağa başladı.

22Bu vaxt hamı Onun haqqında
yaxşı sözlər deyirdi və Onun ağzından
çıxan lütf dolu kəlmələrə heyrət edirdi.
Onlar «Məgər bu, Yusifin Oğlu de-
yilmi?» deyirdi. 23İsa onlara belə dedi:
«Əlbəttə, siz Mənə "Ey həkim, öz-
özünə şəfa ver!" məsəlini xatırladacaq-
sınız. "Kefernahumda etdiklərin barə-
sində eşitmişik. Burada, Öz yurdunda
da həmin işləri et!" deyəcəksiniz».
24Sonra dedi: «Sizə doğrusunu deyi-
rəm: heç bir peyğəmbər öz yurdunda
qəbul edilməz. 25Yenə də sizə həqiqəti
deyirəm ki, İlyasın dövründə göy üç il
altı ay ərzində bağlı qalıb bütün ölkədə
böyük aclıq olanda İsraildə çoxlu dul
qadın var idi. 26Amma İlyas onlardan
heç birinin yanına deyil, Sidonun
Sarfat şəhərində olan bir dul qadının
yanına göndərildi. 27Elişa peyğəmbə-
rin dövründə İsraildə çoxlu cüzamlı
var idi. Ancaq onlardan heç biri deyil,
yalnız Aramlı Naaman pak oldu».

28Sinaqoqdakı camaatın hamısı bu
sözləri eşidib hiddətləndi. 29Onlar
ayağa durdular və İsanı şəhərin kəna-
rına qovdular. Onu uçurumdan atmaq
üçün şəhərin qurulduğu təpənin başına
gətirdilər. 30Amma İsa onların arasın-
dan keçərək oradan çıxıb getdi.

### *İsa Kefernahum sinaqoqunda cini qovur*
*(Mark 1:21-28)*

31İsa Qalileyanın Kefernahum
şəhərinə gəldi və Şənbə günü onlara
təlim öyrətməyə başladı. 32Onun təli-
minə təəccüblənirdilər, çünki O, səla-
hiyyətlə danışırdı. 33Həmin vaxt sina-
qoqda cinə – natəmiz ruha tutulmuş
bir nəfər var idi. O ucadan çığırdı:
34«Nə olub? Ey Nazaretli İsa, bizdən
nə istəyirsən? Bizi məhv etməyəmi
gəlmisən? Mən bilirəm Sən Kimsən:
Allahın Müqəddəsisən!» 35Amma İsa
ona qadağan edib dedi: «Sus və bu
adamdan çıx!» Cin bu adamı hamının
qabağında yerə yıxıb heç bir zərər
vermədən ondan çıxdı. 36Hamı hey-
rətə düşdü və bir-birinə dedi: «Bu söz
nədir? O, natəmiz ruhlara səlahiyyət
və qüdrətlə əmr edir, onlar da çıxır!»
37İsa haqqında xəbər bu bölgənin hər
yerinə yayıldı.

---

a **4:18** *Əsirlərə azadlıq* – bəzi əlyazmalarda *Qəlbi sınıq olanları sağalmaq üçün, Əsirlərə azadlıq.*
**4:18-19** *Yeş. 61:1-3* **4:24** *Yəh. 4:44* **4:25** *1Pad. 17:1* **4:26** *1Pad. 17:8-16* **4:27** *2Pad. 5:1-14*
**4:32** *Mat. 7:28-29*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 88



### *İsa çox adama şəfa verir*

*(Mat. 8:14-17; Mark 1:29-34)*

38İsa sinaqoqdan çıxıb Şimonun
evinə gəldi. Şimonun qayınanası isə
yüksək qızdırma içində yatırdı. Bu
qadından ötrü İsadan kömək istədilər.
39İsa ona yaxınlaşıb qızdırma xəstə-
liyinə qadağan etdi və qadının qızdır-
ması düşdü. Qadın o anda durub on-
lara xidmət etməyə başladı.

40Gün batanda hamı müxtəlif xəs-
təliyə tutulanları İsanın yanına gətirdi.
O hər birinin üzərinə əllərini qoyub
onlara şəfa verdi. 41Bir çoxlarındansa
cinlər «Sən Allahın Oğlusan!» deyə
bağıraraq çıxırdı. O isə onlara qada-
ğan edir, danışmağa izin vermirdi.
Çünki onlar İsanın Məsih olduğunu
bilirdilər.

### *İsa vəzini davam etdirir*

*(Mark 1:35-39)*

42Səhər açılanda İsa çıxıb kimsəsiz
bir yerə getdi. Camaat isə Onu
axtarırdı və İsanın yanına gəlib onları
tərk etməsin deyə Onu yanlarında
saxlamaq istədilər. 43Lakin İsa onlara
dedi: «Mən o biri şəhərlərə də Allahın
Padşahlığının Müjdəsini yaymalıyam,
çünki Mən bunun üçün göndəril-
mişəm». 44Beləliklə, İsa Yəhudeyanın[a]
sinaqoqlarında vəz etməyə davam
etdi.

### *İlk şagirdlər*

*(Mat. 4:18-22; Mark 1:16-20)*

5 1Bir gün İsa Ginesar gölünün sa-
hilində dayanmışdı. İzdiham İsanı
dövrəyə almışdı və Allahın kəlamına
qulaq asırdı. 2İsa göl kənarında duran
iki qayıq gördü. Balıqçılar isə qa-
yıqdan çıxıb torlarını yuyurdular. 3İsa
iki qayıqdan birinə – Şimonun qayı-
ğına minib onu gölün kənarından bir
az uzaqlaşdırmasını xahiş etdi. Sonra
İsa oturdu və qayıqdan izdihama təlim
öyrətməyə başladı.

4O, sözünü qurtaranda Şimona
dedi: «Qayığı dərinliyə aparın və
torlarınızı balıq tutmaq üçün suya
atın». 5Şimon cavab verdi: «Ustad, biz
bütün gecə çalışdıq, lakin heç nə tuta
bilmədik. Amma Sənin sözünə görə
yenə də torları ataram». 6Bunu etdilər
və o qədər balıq tutdular ki, hətta
torları cırılmağa başladı. 7O biri
qayıqdakı yoldaşlarına da işarə etdilər
ki, gəlib kömək etsinlər. Onlar gəlib
hər iki qayığı balıqla doldurdular.
Qayıqlar da batmağa başladı. 8Şimon
Peter bunu gördükdə İsanın ayaq-
larına düşdü və belə dedi: «Ya Rəbb,
məndən uzaqlaş, axı mən günahkar bir
adamam». 9Çünki özü də, yanında-
kılar da tutduqları balıqların çox-
luğuna görə heyrətə düşmüşdülər.
10Şimonla ortaq olan Yaqub və Yəhya
adlı Zavday oğulları da eyni hisslər
keçirirdi. Amma İsa Şimona belə dedi:
«Qorxma, bundan belə, balıq əvəzinə
adam tutacaqsan». 11Onlar qayıqları
göl kənarına çıxarıb hər şeyi atdılar və
İsanın ardınca getdilər.

### *İsa cüzamlıya şəfa verir*

*(Mat. 8:1-4; Mark 1:40-45)*

12Bir gün İsa şəhərlərin birində
olarkən bütün bədəni cüzama tutul-
muş bir kişi ilə rastlaşdı. Bu adam
İsanı görüb üzüstə yerə qapanaraq
yalvardı: «Ya Rəbb, əgər istəsən,

---

a **4:44** *Yəhudeyanın* – bəzi əlyazmalarda *Qalileyanın.*

**5:1-3** *Mat. 13:1-2; Mark 3:9-10; 4:1* **5:5** *Yəh. 21:3* **5:6** *Yəh. 21:6*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 89



məni pak edə bilərsən». 13İsa əlini
uzadıb ona toxundu və dedi: «İstə-
yirəm, pak ol!» Dərhal bu adam
cüzamdan sağaldı. 14İsa ona tapşırdı
ki, heç kəsə bir söz söyləməsin və dedi:
«Amma get, özünü kahinə göstər. Hər
kəsə şəhadət olsun deyə sənin
cüzamdan paklandığın üçün Musanın
buyurduğuna əsasən təqdimlər apar».
15Amma indi İsa barəsində xəbər
daha çox yayılırdı. Çoxlu camaat
axışıb İsanın yanına gəlirdi ki, Ona
qulaq assın və xəstəliklərdən şəfa
tapsın. 16Amma İsa kimsəsiz yerlərə
çəkilib dua edirdi.

### *İsa iflicə şəfa verir*

*(Mat. 9:1-8; Mark 2:1-12)*

17Bir gün İsa təlim öyrədirdi.
Qalileyanın və Yəhudeyanın bütün
kəndlərindən və Yerusəlimdən gələn
fariseylər və Qanun müəllimləri Onun
yanında oturmuşdu. Onda şəfa ver-
mək üçün Rəbbin qüdrəti var idi.
18Bu vaxt bir neçə nəfər yataqda
yatan bir iflic adamı gətirdi. Onlar bu
adamı içəri gətirib İsanın önünə
qoymağa çalışırdılar. 19Amma böyük
izdihama görə iflici İsanın yanına
gətirə bilmirdilər. Ona görə də evin
damına çıxıb kirəmitləri söküb
açdıqları yerdən xəstəni yatağı ilə
birgə aşağı endirdilər və ortalığa,
İsanın qarşısına qoydular. 20İsa on-
ların imanını görüb dedi: «Dostum,
günahların bağışlandı». 21İlahiy-
yatçılar və fariseylər belə düşünməyə
başladılar: «Küfr danışan bu Adam
kimdir ki? Tək Allahdan başqa
günahları kim bağışlaya bilər?» 22İsa
onların nə fikirləşdiyini dərk edib
cavab verdi: «Niyə ürəyinizdə belə
düşünürsünüz? 23Bax hansı daha
asandır? "Günahların bağışlandı" de-
məkmi, yoxsa "Qalx, yeri!" demək?
24Lakin siz bilin ki, Bəşər Oğlunun
yer üzündə günahları bağışlamaq
səlahiyyəti var» və iflicə dedi: «Sənə
deyirəm, qalx, yatağını götür, evinə
get!» 25Xəstə dərhal hamının qar-
şısında ayağa qalxdı, yatağını götürdü
və Allahı izzətləndirərək evinə getdi.
26Hamı mat qaldı və Allahı izzət-
ləndirib böyük qorxu içində dedi: «Bu
gün möcüzəli işlər gördük!»

### *Levi şagirdlərə qoşulur*

*(Mat. 9:9-13; Mark 2:13-17)*

27Bundan sonra İsa bayıra çıxdı və
vergi yığılan yerdə oturan Levi adlı
vergiyığanı görüb ona dedi: «Ardımca
gəl». 28O da durub hər şeyi atdı və
İsanın ardınca getdi.

29Sonra Levi evində İsaya böyük bir
qonaqlıq verdi. Onlarla birgə bir çox
vergiyığan və başqa adamlar süfrəyə
oturmuşdu. 30Fariseylərlə onların ila-
hiyyatçıları[a] şikayət etməyə başladı.
Onlar İsanın şagirdlərinə dedi: «Niyə
vergiyığanlar və günahkarlarla birgə
yeyib-içirsiniz?» 31Amma İsa onlara
belə cavab verdi: «Sağlamların deyil,
xəstələrin həkimə ehtiyacı var. 32Mən
salehləri deyil, günahkarları tövbəyə
çağırmaq üçün gəlmişəm».

### *Oruc barəsindəki sual*

*(Mat. 9:14-17; Mark 2:18-22)*

33Onlarsa İsaya dedi: «Yəhyanın
şagirdləri tez-tez oruc tutub dua edir,
fariseylərin şagirdləri də belə edirlər.
Amma Səninkilər yeyib-içir». 34İsa

a **5:30** *Fariseylərlə onların ilahiyyatçıları* – bəzi əlyazmalarda *İlahiyyatçılar və fariseylər.*
**5:14** *Lev. 14:1-32* **5:30** *Luka 15:1-2*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 90



onlara cavab verdi: «Bəy yanlarında
olanda sağdışı və soldışı oruc tutmağa
məcbur edə bilərsinizmi? [35]Lakin
bəyin onların arasından aparılacağı
günlər gələcək və o zaman oruc tu-
tacaqlar».

[36]İsa onlara bir məsəl də çəkdi:
«Heç kim təzə paltardan bir parça
qoparıb köhnə paltara yamaq vurmaz.
Yoxsa təzə paltar həm cırılar, həm də
təzə paltardan qoparılan parça köhnə
paltara yaraşmaz. [37]Heç kim təzə
şərabı köhnə tuluqlara doldurmaz.
Yoxsa təzə şərab tuluqları partladar,
həm şərab tökülər, həm də tuluqlar zay
olar. [38]Təzə şərab təzə tuluqlara
doldurulmalıdır. [39]Heç kim köhnə
şərabı içdikdən sonra təzəsini istəməz.
Çünki deyər: "Köhnəsi daha yaxşı-
dır"».

### *Şənbə günü haqqında təlim*

*(Mat. 12:1-8; Mark 2:23-28)*

6 [1]Bir Şənbə günü İsa taxıl zəmiləri
arasından keçirdi. Şagirdləri
sünbülləri qırır və ovuclarında ovub
yeyirdilər. [2]Fariseylərdən bəzisi dedi:
«Siz nə üçün Şənbə günü qadağan
olunan işləri görürsünüz?» [3]İsa onlara
cavab verdi: «Davud və yanındakılar
ac olanda nə etdiklərini oxuma-
mısınızmı? [4]O, Allahın evinə girdi;
kahinlərdən başqa heç kəsə yeməyə
icazə verilməyən təqdis çörəklərini
götürüb yedi, yanındakılara da verdi».
[5]Sonra İsa onlara dedi: «Bəşər Oğlu
Şənbə gününün Sahibidir».

### *Əli qurumuş adamın şəfası*

*(Mat. 12:9-14; Mark 3:1-6)*

[6]Başqa bir Şənbə günü İsa yenə də
sinaqoqa girib təlim öyrədirdi. Orada
sağ əli qurumuş bir adam var idi.
[7]İlahiyyatçılar və fariseylər İsanı
ittiham etməyə bəhanə tapmaq üçün
Ona göz qoyurdular ki, görsünlər,
Şənbə günü şəfa verəcək ya yox.
[8]Amma İsa onların nə düşündüklərini
bilib əli qurumuş kişiyə dedi: «Ayağa
qalx və qabağa çıx!» O adam da ayağa
qalxıb ortaya çıxdı. [9]Sonra İsa onlara
dedi: «Sizdən soruşuram, hansına
icazə var, Şənbə günü yaxşılıq, yoxsa
pislik etməyə, kiminsə canını xilas,
yoxsa məhv etməyə?» [10]İsa ətrafında-
kıların hamısına baxdı və o adama
dedi: «Əlini uzat!» O da elə etdi və əli
əvvəlki halına qayıtdı.[a] [11]Onlarsa
qəzəbdən coşub İsaya nə edə biləcək-
ləri barədə bir-biri ilə müzakirə etməyə
başladılar.

### *On İki şagird*

*(Mat. 10:1-4; Mark 3:13-19)*

[12]O günlərdə İsa dua etmək üçün
dağa çıxdı. O bütün gecəni Allaha dua
etməklə keçirtdi. [13]Gün açılanda
şagirdlərini yanına çağırdı və onlar-
dan on iki nəfəri seçib həvari adlan-
dırdı: [14]Peter adını verdiyi Şimon,
onun qardaşı Andrey, Yaqub, Yəhya,
Filip, Bartalmay, [15]Matta, Tomas,
Halfay oğlu Yaqub, Millətçi adlanan
Şimon, [16]Yaqub oğlu Yəhuda və son-
ralar xəyanətkar olan Yəhuda İskar-
yot.

### *İsa xəstələrə şəfa verir*

*(Mat. 4:24-25; Mark 3:7-12)*

[17]İsa onlarla birgə aşağı endi və dü-
zəngahda dayandı. Orada çox sayda
şagirdlərindən ibarət izdiham var idi.

---

a **6:10** *Qayıtdı* – bəzi əlyazmalarda *qayıdıb o biri əli kimi sağlam oldu* (Mat. 12:13).

**6:1** *Qanun. 23:25* **6:3-4** *1Şam. 21:1-6* **6:4** *Lev. 24:9*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 91



Bütün Yəhudeyadan, Yerusəlimdən,
Sur və Sidon yaxınlığındakı sahil
bölgələrindən çoxlu adam 18Onu
dinləmək və öz xəstəliklərindən sağal-
maq üçün gəlmişdi. Natəmiz ruhlar-
dan əzab çəkənlər də şəfa tapdılar.
19Bütün izdiham İsaya toxunmağa
çalışırdı. Çünki Ondan çıxan qüdrət
hamını sağaldırdı.

### *İsanın Dağüstü vəzi*

*(Mat. 5:1-12)*

20İsa Öz şagirdlərinə nəzər salıb
dedi:

«Nə bəxtiyarsınız, ey yoxsullar!
Çünki Allahın Padşahlığı sizindir.
21Nə bəxtiyarsınız, ey indi aclıq
çəkənlər!
Çünki doyacaqsınız.
Nə bəxtiyarsınız, ey indi
ağlayanlar!
Çünki güləcəksiniz.

22Bəşər Oğluna görə insanlar sizə
nifrət edəndə, sizi cəmiyyətdən qovub
təhqir edəndə, adınızı bədnam edəndə
nə bəxtiyarsınız! 23O gün sevinin və
sevincdən atılıb-düşün! Çünki göydə
mükafatınız böyükdür. Axı onların
ata-babaları da peyğəmbərlərlə belə
davranıb.

24Amma vay halınıza, ey varlılar!
Çünki artıq təsəllinizi almısınız.
25Vay halınıza, ey indi tox olan
sizlər!
Çünki aclıq çəkəcəksiniz.
Vay halınıza, ey indi gülənlər!
Çünki yas tutub ağlayacaqsınız.

26Bütün adamlar sizin barənizdə yaxşı
şeylər danışanda vay halınıza! Axı
onların ata-babaları da yalançı pey-
ğəmbərlərlə belə davranıb.

### *Düşmənlərinizi sevin*

*(Mat. 5:38-48)*

27Amma sizə deyirəm, ey Məni
dinləyənlər: düşmənlərinizi sevin, sizə
nifrət edənlərə yaxşılıq edin, 28sizi
lənətləyənlərə xeyir-dua verin, sizi
incidənlər üçün dua edin.

29Bir üzünə şillə vurana o birini də
çevir və üst paltarını aparandan köy-
nəyini də əsirgəmə. 30Səndən bir şey
diləyən hər kəsə ver və sənin malını
aparandan geri istəmə. 31İnsanların
sizinlə necə rəftar etməsini istəyirsi-
nizsə, siz də onlarla elə rəftar edin.

32Əgər sizi sevənləri sevirsinizsə,
hansı tərifə layiqsiniz? Çünki günah-
karlar da onları sevənləri sevirlər.
33Əgər sizə yaxşılıq edənlərə yaxşılıq
edirsinizsə, hansı tərifə layiqsiniz?
Çünki günahkarlar da elə edirlər.
34Əgər geri almaq ümidi ilə insanlara
borc verirsinizsə, hansı tərifə layiq-
siniz? Günahkarlar da günahkarlara
borc verirlər ki, həmin borcu tam geri
alsınlar. 35Sizsə düşmənlərinizi sevin,
onlara yaxşılıq edin və heç bir şey
ummadan borc verin. Onda alacağınız
mükafat böyük olacaq və siz Haqq-
Taalanın övladları olacaqsınız. Çünki
O, nankorlara və pis adamlara da
xeyirxahdır. 36Atanız mərhəmətli ol-
duğu kimi siz də mərhəmətli olun.

### *Mühakimə etməyin*

*(Mat. 7:1-5)*

37Mühakimə etməyin, siz də müha-
kimə olunmazsınız. Hökm çıxarma-
yın, sizə də hökm çıxarılmaz. Başqa-
larını bağışlayın, siz də bağışlana-
caqsınız. 38Verin, sizə də veriləcək:

**6:22** *1Pet. 4:14* **6:23** *2Saln. 36:16; Həv. 7:52-53* **6:31** *Mat. 7:12* **6:39** *Mat. 15:14*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 92



silkələnib basa-basa dolan bol bir ölçü
ilə sizə qucaq-qucaq veriləcək. Çünki
hansı ölçü ilə ölçsəniz, sizin üçün də
eyni ölçü ilə ölçüləcək».

39İsa onlara yenə də bir məsəl çəkdi:
«Kor koru apara bilərmi? İkisi də
çuxura düşməzmi? 40Şagird müəl-
limindən üstün deyil, amma tam təlim
alandan sonra hər şagird öz müəllimi
kimi olacaq. 41Sən nə üçün qardaşının
gözündə çöpü görürsən, amma öz
gözündəki tiri seçmirsən? 42Öz gözün-
dəki tiri isə görmədən qardaşına necə
deyə bilərsən: "Qardaşım! Qoy gözün-
dəki çöpü çıxarım!" Ey ikiüzlü, əvvəlcə
öz gözündən tiri çıxar, onda aydın
görərsən ki, qardaşının gözündəki
çöpü necə çıxarmaq olar.

### *Ağac və bəhrə*

*(Mat. 7:15-20; 12:33-35)*

43Yaxşı ağac pis bəhrə gətirməz, pis
ağac da yaxşı bəhrə gətirməz. 44Çünki
hər ağac öz bəhrəsindən tanınır.
Qaratikandan əncir yığmazlar, tikan
kolundan da üzüm dərməzlər. 45Yaxşı
adam ürəyinin yaxşılıq xəzinəsindən
yaxşı şeylər çıxarır, pis adamsa pislik
xəzinəsindən pis şeylər çıxarır. Çünki
ürək doluluğundan ağız danışar.

### *Ağıllı bənna və ağılsız bənna*

*(Mat. 7:21; 24-27)*

46Nə üçün Məni "ya Rəbb, ya
Rəbb" deyə çağırırsınız, amma de-
diklərimə əməl etmirsiniz? 47Mənim
yanıma gələn, sözlərimi eşidib onlara
əməl edən hər adamın kimə bənzə-
diyini sizə izah edərəm: 48o, ev tikən
elə bir adama bənzəyir ki, torpağı
qazıb dərinə gedər və təməli qaya
üzərində qurar. Daşqın gəldiyi zaman
sellər o evi bassa da, onu sarsıda
bilməz. Çünki ev yaxşı tikilib.[a]
49Amma sözlərimi eşidib onlara əməl
etməyən kəs torpaq üzərində təməlsiz
ev tikən adama bənzəyir. Sellər o evi
basar və ev o anda uçar. O evin
yıxılması bir müsibət olar».

### *Yüzbaşının imanı*

*(Mat. 8:5-13)*

7 1İsa Ona qulaq asan camaata
sözlərini deyib qurtarandan sonra
Kefernahuma daxil oldu. 2Orada bir
yüzbaşının çox dəyərli qulu xəstələnib
ölüm yatağına düşmüşdü. 3Bu yüzbaşı
İsa haqqında eşidəndə gəlib qulunu
sağaltsın deyə Yəhudilərin bəzi
ağsaqqallarını Onun yanına göndərdi.
4Onlar İsanın yanına gəlib Ona
ürəkdən yalvardılar və belə dedilər:
«Bu adam Sənin köməyinə layiqdir.
5Çünki o bizim millətimizi sevir və
bizim üçün sinaqoq tikdirib». 6İsa
onlarla birlikdə yola düşdü. O, evə
yaxınlaşarkən yüzbaşı bəzi dostlarını
yollayıb Ona belə xəbər göndərdi: «Ya
Rəbb, zəhmət çəkmə. Mən layiq
deyiləm ki, Sən mənim evimə girəsən.
7Bu səbəbə görə yanına gəlməyə də
özümü layiq bilmədim. Amma bir söz
söylə ki, xidmətçim sağalsın. 8Çünki
mən də tabeçilik altında olan bir
adamam, mənim də tabeçiliyimdə
əsgərlər var. Birinə "Get!" deyirəm, o
gedir, digərinə isə "Gəl!" deyirəm, o
da gəlir. Quluma "Bunu et!" deyirəm,
o da edir». 9Bunu eşidən İsa yüzbaşıya
heyrət etdi. O dönüb ardınca gələn
camaata dedi: «Sizə deyirəm: heç
İsraildə də bu qədər böyük iman

a **6:48** *Çünki ev yaxşı tikilib* – bəzi əlyazmalarda *Çünki evin təməli qaya üzərində qurulub* (Mat. 7:25).
**6:40** *Mat. 10:24-25; Yəh. 13:16; 15:20*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 93



görmədim». 10Göndərilən adamlar evə
qayıdanda xəstə qulun sağlam oldu-
ğunu gördülər.

### *Dul qadının oğlu dirilir*

11Bundan bir az sonra İsa Nain
adlanan bir şəhərə getdi. İsanın
şagirdləri və böyük bir izdiham Onu
müşayiət edirdi. 12O, şəhər darva-
zasına yaxınlaşarkən bir dul ananın
yeganə oğlunun cənazəsi çıxarılırdı.
Şəhər sakinlərinin çoxu da ana ilə
gedirdi. 13Rəbb onu görəndə ona
rəhmi gəldi və qadına dedi: «Ağlama!»
14Yaxınlaşıb mafəyə toxundu və cə-
nazəni aparanlar dayandılar. İsa dedi:
«Ey cavan oğlan, sənə deyirəm: qalx!»
15Ölü durub oturdu və danışmağa
başladı. İsa onu anasına verdi.
16Hamını qorxu bürüdü. «Aramızda
böyük bir peyğəmbər ortaya çıxdı!» və
«Allah Öz xalqına nəzər saldı!» –
deyərək Allahı izzətləndirdilər. 17İsa
barəsindəki bu xəbər bütün Yəhude-
yaya və ətraf bölgəyə yayıldı.

### *İsa Məsih və Vəftizçi Yəhya*

*(Mat. 11:2-19)*

18Yəhyanın şagirdləri də ona bütün
bu hadisələr barədə xəbər verdilər.
Yəhya şagirdlərindən ikisini yanına
çağırıb 19göndərdi ki, Rəbdən soruş-
sunlar: «Gəlməli Olan Sənsənmi,
yoxsa başqasını gözləyək?» 20Adamlar
İsanın yanına gəlib dedilər: «Vəftizçi
Yəhya bizi Sənin yanına göndərdi ki,
soruşaq: “Gəlməli Olan Sənsənmi,
yoxsa başqasını gözləyək?”» 21Həmin
vaxt İsa bir çox xəstəliklərə, azarlara
və şər ruhlara tutulmuş insanlara şəfa
verdi, həm də bir çox korların
gözlərini açdı. 22İsa onlara belə cavab
verdi: «Gedin, görüb eşitdiklərinizi
Yəhyaya bildirin: korlar görür, ax-
saqlar yeriyir, cüzamlılar pak olur,
karlar eşidir, ölülər dirilir və yoxsul-
lara Müjdə yayılır. 23Kim Mənə görə
büdrəməsə, nə bəxtiyardır!»
24Yəhyanın elçiləri getdikdən sonra
İsa camaata Yəhya haqqında danış-
mağa başladı: «Çölə nəyə baxmağa
getmişdiniz? Küləyin sarsıtdığı qamı-
şamı? 25Bəs onda nəyə baxmağa get-
mişdiniz? Nəfis toxunmuş paltar gey-
miş bir adamamı? Amma gözəl paltar
geyinib cah-calal içində yaşayanlar
padşah saraylarında qalır. 26Bəs onda
nəyə baxmağa getmişdiniz? Bir pey-
ğəmbərəmi? Bəli, sizə deyirəm, hətta
peyğəmbərdən də üstün birinə. 27Bu o
adamdır ki, onun haqqında yazılıb:

“Budur, Sənin önündə Öz elçimi
göndərirəm.
O Sənin qabağında yolunu
hazırlayacaq”.

28Sizə deyirəm: qadından doğulanlar
arasında Yəhyadan üstün olan[a] yox-
dur. Amma Allahın Padşahlığında ən
kiçik olan ondan üstündür».
29Yəhyanın vəftiz etdiyi xalqın
hamısı, hətta vergiyığanlar da bunu
eşitdikdə Allahın ədalətini təsdiq et-
dilər. 30Amma fariseylər və qanun-
şünaslar Yəhyanın vəftizindən imtina
etdilər və bununla Allahın onlar ba-
rəsindəki iradəsini rədd etdilər.
31İsa sözünü davam etdirdi: «Bu
nəslin adamlarını nəyə bənzədim?
Onlar nəyə bənzəyir? 32Bazar meyda-
nında oturan və

“Biz sizə tütək çaldıq, sizsə
oynamadınız,

---

a **7:28** *Yəhyadan üstün olan* – bəzi əlyazmalarda *Vəftizçi Yəhyadan üstün peyğəmbər.*
**7:22** *Yeş. 35:5-6; 61:1-3* **7:27** *Mal. 3:1* **7:29-30** *Mat. 21:32; Luka 3:12*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 94



Biz mərsiyələr oxuduq, sizsə
ağlamadınız”
deyib bir-birini səsləyən uşaqlara bən-
zəyirlər. 33Çünki Vəftizçi Yəhya gəl-
dikdə nə çörək yeyir, nə şərab içirdi və
siz deyirsiniz: “O, cinə tutulmuşdur”.
34Bəşər Oğlu gəldikdə yeyib-içdi və siz
deyirsiniz: “Bu qarınqulu və əyyaş
adama baxın! Vergiyığanlara və gü-
nahkarlara dost oldu!” 35Amma hik-
mət öz övladlarının hamısı tərəfindən
təsdiq olunur».

### *İsa günahkar qadını bağışlayır*

36Fariseylərdən biri İsanı onunla
birgə yeməyə dəvət etdi. O da
fariseyin evinə girdi və süfrəyə otur-
du. 37Həmin şəhərdə günahkar bir
qadın yaşayırdı. O, fariseyin evində
İsanın süfrəyə oturduğundan xəbər
tutanda ağ mərmər bir qabda ətirli
yağ gətirdi. 38Qadın arxada, İsanın
ayaqlarının yanında durub ağlayaraq
göz yaşları ilə Onun ayaqlarını
islatmağa başladı. O, İsanın ayaq-
larını saçları ilə sildi, öpdü və onlara
ətirli yağ çəkdi.
39İsanı evinə dəvət etmiş farisey
bunu görüb öz-özünə belə dedi: «Əgər
bu adam peyğəmbər olsaydı, Ona
toxunanın kim və nə cür qadın
olduğunu bilərdi, çünki bu qadın
günahkardır». 40İsa ona xitab edib
belə söylədi: «Şimon, Mənim sənə
sözüm var». O da dedi: «Müəllim,
buyur». 41«Bir sələmçiyə iki nəfərin
borcu var idi. Biri beş yüz, o birisi isə
əlli dinar borclu idi. 42Onların borcu
ödəməyə imkanları yox idi. Ona görə
də sələmçi hər ikisinin borcunu
bağışladı. De görüm, bu adamlardan
hansı onu daha çox sevəcək?» 43Şi-
mon cavab verdi: «Güman edirəm, o
adam ki ona daha çox bağışlandı». İsa
ona «düz seçmisən» dedi. 44Sonra İsa
qadına tərəf baxıb Şimona dedi: «Sən
bu qadını görürsənmi? Mən sənin
evinə gəldim, sən Mənim ayaqlarımı
yumaq üçün Mənə su da vermədin. Bu
qadınsa ayaqlarımı göz yaşları ilə
isladıb saçları ilə sildi. 45Sən Məni
öpmədin, bu qadınsa Mən evə gi-
rəndən bəri ayaqlarımı hey öpür.
46Sən başıma zeytun yağı çəkmədin.
O isə ayaqlarıma ətirli yağ çəkdi.
47Buna görə də sənə deyirəm: bu
qadının çox olan günahları bağışlan-
dı. Böyük məhəbbət göstərməsi də bu
səbəbdəndir. Kimə az bağışlanıbsa, az
sevər».
48Sonra İsa qadına dedi: «Sənin
günahların bağışlandı». 49Onda İsa ilə
birgə süfrədə oturanlar öz aralarında
danışmağa başladılar: «Bu adam
kimdir ki, günahları da bağışlayır?»
50Amma İsa qadına dedi: «İmanın
səni xilas etdi. Arxayın get».

### *İsanın ardınca gedən qadınlar*

8 1Bu hadisədən sonra İsa şəhərləri
və kəndləri gəzməyə başladı. O,
Allahın Padşahlığını vəz edərək
Müjdəni yayırdı. On İki şagird
Onunla birgə idi. 2Həmçinin şər
ruhlardan və xəstəliklərdən şəfa
tapmış bəzi qadınlar, daxilindən
yeddi cin çıxmış Məcdəlli adlanan
Məryəm, 3Hirodun eşikağası Xuza-
nın arvadı Yoxanna, Şoşanna və bir
çox başqa qadınlar İsa ilə idi. Bu
qadınlar əmlakları ilə onlara[a] xidmət
edirdilər.

a **8:3** *Onlara* – bəzi əlyazmalarda *Ona,* yəni İsaya.
**7:37-38** *Mat. 26:6-7; Mark 14:3; Yəh. 12:3* **8:2-3** *Mat. 27:55-56; Mark 15:40-41; Luka 23:49*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 95



### *Səpilən toxum məsəli*

*(Mat. 13:1-23; Mark 4:1-20)*

**4**Böyük izdiham toplaşanda, insan-
lar hər şəhərdən İsanın yanına
gələndə İsa onlara bir məsəl danışdı:
**5**«Bir əkinçi toxumunu səpməyə çıxdı.
Səpin zamanı toxumlardan bəzisi yol
kənarına düşdü, ayaq altında tap-
dalandı və göydə uçan quşlar onları
dənlədi. **6**Bəzisi daşlığa düşdü və
cücərincə susuzluqdan qurudu.
**7**Bəzisi tikanlar arasına düşdü. Ti-
kanlar toxumla birgə boy atıb onu
boğdu. **8**Başqaları isə münbit torpağa
düşdü və böyüyüncə yüz qat artıq
səmərə verdi». İsa bunları deyərək
nida etdi: «Eşitməyə qulağı olan
eşitsin!»

**9**Şagirdləri isə Ondan soruşdular:
«Bu məsəlin mənası nədir?» **10**O dedi:
«Allahın Padşahlığının sirlərini bilmə
qabiliyyəti sizə verilmişdir. Başqaları-
na isə hər şeyi məsəllərlə danışıram ki,

“Gördükləri halda görməsinlər,
Eşitdikləri halda anlamasınlar”.

**11**Məsəlin mənası budur: toxum
Allahın kəlamıdır. **12**Yol kənarına
düşənlərsə kəlamı eşidənlərdir. Sonra
iblis gəlir və iman etməyib xilas olma-
sınlar deyə kəlamı onların ürəyindən
götürüb aparır. **13**Daşlığa düşənlərsə
kəlamı eşidəndə sevinclə qəbul edən-
lərdir. Lakin onlarda kök olmadığına
görə bir müddət iman edir və sınaq
vaxtı gələndə imandan dönürlər.
**14**Tikanlar arasına düşənlərsə bunlar-
dır: kəlamı eşidirlər, amma get-gedə
bu həyatın qayğılarından, var-dövlə-
tindən, zövqlərindən boğulur və yaxşı
bəhrə vermirlər. **15**Münbit torpağa
düşənlərsə bunlardır: belə insanlar
kəlamı eşidib xeyirxah və sadiq ürəkdə
saxlayırlar. Bunlar səbirlə səmərə
verir.

### *Çıraq məsəli*

*(Mark 4:21-25)*

**16**Heç kim çırağı yandırıb onu
qabla örtməz yaxud yatağın altına
qoymaz. Əksinə, çıraqdana qoyar ki,
içəri girənlər işığı görsünlər. **17**Çünki
elə gizli bir şey yoxdur ki, aşkara
çıxmayacaq və elə örtülü bir şey
yoxdur ki, bilinib aydın olmayacaq.
**18**Buna görə də necə dinlədiyinizə
diqqət edin. Çünki kimin varıdırsa,
ona daha çox veriləcək. Amma kimin
yoxudursa, özününkü zənn etdiyi şey
də əlindən alınacaq».

### *İsanın anası və qardaşları kimdir?*

*(Mat. 12:46-50; Mark 3:31-35)*

**19**İsanın anası və qardaşları Onun
yanına gəldi. Amma izdihama görə
Ona yaxınlaşa bilmədilər. **20**İsaya
xəbər verdilər: «Anan və qardaşların
bayırda dayanıb Səni görmək istəyir-
lər». **21**İsa onlara cavab verdi: «Mənim
anam və qardaşlarım Allahın kəlamını
eşidib ona əməl edənlərdir».

### *İsa tufanı yatırır*

*(Mat. 8:23-27; Mark 4:35-41)*

**22**Bir gün İsa Öz şagirdləri ilə bir
qayığa mindi və onlara dedi: «Gəlin
gölün o biri sahilinə keçək». Onlar
yola düşdü. **23**Onlar qayıqda gedərkən
İsanı yuxu apardı. Göldə bir tufan
qopdu. Qayıq su ilə dolmağa baş-
layanda onlar təhlükəli vəziyyətə
düşdülər. **24**Şagirdlər yaxınlaşıb İsanı

---

**8:9-10** *Yeş. 6:9-10; Həv. 28:26-27* **8:16** *Mat. 5:15; Luka 11:33* **8:17** *Mat. 10:26; Luka 12:2*
**8:18** *Mat. 25:29; Luka 19:26*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 96



oyadaraq dedilər: «Ustad, Ustad, biz
həlak oluruq!» İsa durub küləyə və
qalxan sulara qadağan etdi. Tufan
dayandı və sükut çökdü. 25Onda O,
şagirdlərinə dedi: «Sizin imanınız
haradadır?» Onlarsa qorxu və heyrət
içində qalıb bir-birlərindən soruşur-
dular: «Bu Adam kimdir ki, həm
küləklərə, həm suya əmr verir, onlar
da itaət edir?»

### *Cinə tutulmuş adam sağaldılır*

*(Mat. 8:28-34; Mark 5:1-20)*

26Sonra onlar Qalileyanın qarşı-
sında yerləşən Gerasalıların[a] diyarına
gəldilər. 27İsa qayıqdan sahilə dü-
şəndə şəhərdən olan bir nəfər Onunla
qarşılaşdı. Cinlərə tutulmuş və xeyli
vaxtdır ki, paltar geyməyən bu adam
evdə yox, qəbir mağaralarında ya-
şayırdı. 28O, İsanı görən kimi bağırıb
Onun qarşısında diz çökdü və
bərkdən çığıra-çığıra dedi: «Ey İsa,
Allah-Taalanın Oğlu, məndən nə
istəyirsən? Yalvarıram Sənə, mənə
əzab vermə!» 29Çünki İsa natəmiz
ruha əmr etmişdi ki, həmin adamdan
çıxsın. Bu ruh o adamı çoxdan tut-
muşdu. Buna görə də o adamı
qorumaq üçün onu zəncir və bu-
xovlarla bağlamışdılar. O isə zən-
cirləri qıraraq cin tərəfindən çölə
qovulurdu. 30İsa ondan soruşdu:
«Sənin adın nədir?» O cavab verdi:
«Adım Qoşundur». Çünki onun da-
xilinə çox cin girmişdi. 31Onlar dibsiz
dərinliyə düşmələrini əmr etməsin
deyə İsaya yalvarırdılar.

32Orada – dağın yamacında böyük
bir donuz sürüsü otlayırdı. Cinlər
İsaya yalvardılar ki, donuzların içinə
girməyə izin versin. İsa da onlara izin
verdi. 33Cinlər adamdan çıxıb donuz-
ların içinə girdi. Sürü də uçurumdan
aşağı, gölə atılıb boğuldu.

34Donuz otaranlar bunları görüb
qaçdılar, bu xəbəri şəhər və kəndlərdə
yaydılar. 35Camaat nə baş verdiyinə
tamaşa etməyə çıxdı. Onlar İsanın ya-
nına gəldilər, daxilindən cinlər çıxmış
adamın İsanın ayaqları yanında geyin-
miş və ağıllanmış oturduğunu görüb
qorxuya düşdülər. 36Hadisəni görən-
lərsə cinə tutulmuş adamın necə sa-
ğaldığını camaata danışdılar. 37Gera-
salıların ətraf diyarındakı bütün xalq
İsadan xahiş etdi ki, oranı tərk etsin,
çünki onları böyük qorxu bürümüşdü.
İsa da qayığa minib geri qayıtdı.
38Daxilindən cinlər çıxmış kişi İsanın
yanında qalmaq üçün Ona yalvardı.
39Amma İsa ona «qayıt evinə və
Allahın sənə etdiyi hər şeyi danış»
deyərək onu buraxdı. Bu adam da
gedib İsanın ona etdiyi hər şeyi bütün
şəhərə yaydı.

### *Qızın dirilməsi və qadının şəfa tapması*

*(Mat. 9:18-26; Mark 5:21-43)*

40İsa geri qayıtdıqda xalq Onu
qəbul etdi, çünki hamı Onu gözləyirdi.
41Bu vaxt Yair adlı sinaqoq rəisi olan
bir kişi gəlib İsanın ayaqlarına düşdü
və Ona yalvardı ki, evinə gəlsin.
42Çünki onun on iki yaşın içində olan
bircə qızı var idi və o, can üstə idi. İsa
oraya gedərkən izdiham Onu sıxışdı-
rırdı.

43Orada on iki il qanaxma xəstə-
liyinə tutulan bir qadın var idi. O
bütün varını həkimlərə xərcləmişdi,
lakin onların heç biri[b] ona şəfa verə

---

a **8:26** *Gerasalıların* – bəzi əlyazmalarda *Qadaralıların* (Mat. 8:28).

b **8:43** *O bütün varını … heç biri* – bəzi əlyazmalarda *Heç kim.*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 97



bilməmişdi. 44Bu qadın İsanın ar-
xasından gəlib Onun paltarının
ətəyinə toxundu və o andaca onun qa-
naxması dayandı. 45İsa dedi: «Mənə
toxunan kim idi?» Lakin hamı bunu
inkar edəndə Peter[a] dedi: «Ustad,
izdiham Səni əhatə edib sıxışdırır».[b]
46Amma İsa dedi: «Mənə kimsə
toxundu, çünki Məndən qüvvət çıx-
dığını bildim». 47Qadınsa gizlənə
bilmədiyini gördükdə titrəyərək gəlib
İsanın ayağına düşdü. Bütün xalq
qarşısında Ona nə səbəbdən toxun-
duğunu və o anda necə sağaldığını
İsaya nəql etdi. 48İsa da ona dedi:
«Qızım,[c] imanın səni xilas etdi.
Arxayın get».

49İsa hələ danışırdı ki, sinaqoq
rəisinin evindən bir nəfər gəlib dedi:
«Qızın öldü. Müəllimi daha narahat
etmə». 50Amma İsa bunu eşidəndə
sinaqoq rəisinə dedi: «Qorxma, yalnız
iman et! Qızın xilas olacaq». 51İsa
onun evinə gələndə Peter, Yəhya,
Yaqub və qızın ata-anasından başqa
heç kimi Özü ilə evə girməyə qoymadı.
52Hamı qız üçün ağlayıb nalə çəkirdi.
Amma İsa dedi: «Ağlamayın, o ölmə-
yib, sadəcə olaraq yatıb». 53Onlarsa
qızın öldüyünü bildiklərinə görə İsaya
güldülər. 54Amma İsa[d] qızın əlindən
tutub səslədi: «Qızcığaz, qalx!»
55Qızın ruhu bədəninə qayıtdı və o
dərhal ayağa qalxdı. İsa dedi ki, qıza
yemək versinlər. 56Qızın ata-anası
mat qaldı. Amma İsa onlara tapşırdı
ki, bu hadisə barədə heç kəsə danış-
masınlar.

### *On İki şagirdə verilən vəzifə*

*(Mat. 10:1-15; Mark 6:7-13)*

9 1İsa On İki şagirdi yanına çağırıb
bütün cinlər üzərində və xəstəlik-
lərə şəfa vermək üçün onlara qüdrət və
səlahiyyət verdi. 2Onları göndərdi ki,
Allahın Padşahlığını vəz edib xəstələri
sağaltsınlar. 3İsa onlara dedi: «Yol
üçün heç nə – nə əsa, nə torba, nə
çörək, nə pul, nə də iki köynək
götürün. 4Hansı evə girsəniz, orada
qalın və oradan da yola çıxın. 5Harada
sizi qəbul etməzlərsə, o şəhərdən
çıxarkən onlara qarşı şəhadət olsun
deyə ayaqlarınızın tozunu çırpın».
6Onlar da yola düşüb hər yerdə
Müjdəni yayaraq və şəfa verərək kənd-
kənd dolaşdılar.

### *Yəhyanın edamı*

*(Mat. 14:1-2; Mark 6:14-16)*

7Hökmdar Hirod baş verən bütün
hadisələr barədə eşitdi və çaşıb-qaldı.
Çünki bəziləri «Yəhya ölülər arasın-
dan dirilib», 8digərləri «İlyas zühur
edib», başqaları da «qədim peyğəm-
bərlərdən biri dirilib» deyirdi. 9Hirod
isə dedi: «Yəhyanın boynunu mən
vurdurdum, bəs haqqında bu xəbərləri
eşitdiyim Adam kimdir?» Hirod Onu
görməyə can atırdı.

### *İsa beş min nəfəri doydurur*

*(Mat. 14:13-21; Mark 6:30-44; Yəh. 6:1-14)*

10Həvarilər İsanın yanına qayıdıb
gördükləri işlər haqqında Ona danış-
dılar. Sonra İsa yalnız onları Özü ilə

---

a **8:45** *Peter* – bəzi əlyazmalarda *Peter və onun yanındakılar.*

b **8:45** *Sıxışdırır* – bəzi əlyazmalarda *sıxışdırır. Necə soruşa bilərsən ki, Mənə toxunan kim idi?* (Mark 5:31).

c **8:48** *Qızım* – bəzi əlyazmalarda *Cəsarətli ol, qızım* (Mat. 9:22).

d **8:54** *İsa* – bəzi əlyazmalarda *İsa hamını bayıra çıxarandan sonra* (Mark 5:40).

**9:3-5** *Luka 10:4-11* **9:5** *Həv. 13:51* **9:7-8** *Mat. 16:14; Mark 8:28; Luka 9:19*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 98



götürüb Bet-Sayda adlanan bir şəhərə
apardı. **11**Amma camaat bu barədə
xəbər tutub Onun ardınca düşdü. İsa
onları xoş qarşıladı, onlara Allahın
Padşahlığından danışdı və şəfaya
möhtac olanları sağaltdı.

**12**Artıq gün batırdı. On İki şagird
İsanın yanına gəlib Ona dedi:
«Camaatı burax, qoy ətrafdakı oba və
kəndlərə gedib gecələsinlər və bir şey
alıb yesinlər. Axı biz burada çöllük
yerdəyik». **13**Amma İsa onlara dedi:
«Onlara yeməyi siz verin». Şagirdlər
Ona cavab verdilər: «Beş çörək və iki
balıqdan başqa bir şeyimiz yoxdur.
Bəlkə biz gedib bütün bu camaat üçün
bir şey alaq?» **14**Orada beş minə yaxın
kişi var idi. İsa şagirdlərinə dedi:
«Onları dəstə-dəstə, əlli-əlli oturdun».
**15**Şagirdlər də eləcə edib hamını
oturtdular. **16**İsa beş çörəyi və iki
balığı götürüb göyə baxaraq şükür
duası etdi. Sonra onları bölüb şa-
girdlərə verdi ki, camaata paylasınlar.
**17**Hamı yeyib-doydu. Artıq qalan
hissələr on iki zənbilə yığıldı.

### *Peterin Məsihi tanıması*

*(Mat. 16:13-20; Mark 8:27-30)*

**18**Bir gün İsa tək dua edirdi.
Şagirdlər də yanında idi. İsa onlardan
soruşdu: «Camaatın dediyinə görə
Mən kiməm?» **19**Onlar belə cavab
verdilər: «Bəziləri Vəftizçi Yəhya, baş-
qaları İlyas, digərləri isə deyirlər ki,
qədim peyğəmbərlərdən biri dirilib».
**20**İsa onlara dedi: «Bəs siz nə de-
yirsiniz? Sizcə Mən kiməm?» Peter
cavab verdi: «Sən Allahın Məsihisən».
**21**İsa şagirdlərinə qadağan edib əmr
etdi ki, bunu heç kəsə danışmasınlar.

### *İsa ölüb-diriləcəyi barədə əvvəlcədən xəbər verir*

*(Mat. 16:21-28; Mark 8:31-9:1)*

**22**O dedi: «Bəşər Oğlu çox əzab
çəkməli, ağsaqqallar, başçı kahinlər və
ilahiyyatçılar tərəfindən rədd olunma-
lı, öldürülməli və üçüncü gün dirilmə-
lidir».

**23**Sonra hamısına söylədi: «Əgər bir
kəs Mənim ardımca gəlmək istəyirsə,
özündən imtina etsin və hər gün[a]
çarmıxını götürüb ardımca gəlsin.
**24**Kim canını xilas etmək istəyirsə, onu
itirəcək, amma kim Mənim uğrumda
canını itirirsə, onu xilas edəcək.
**25**İnsan bütün dünyanı qazanıb canını
məhv edər yaxud itirərsə, ona nə xeyri
var? **26**Kim Məndən və Mənim sözlə-
rimdən utanarsa, Bəşər Oğlu da Özü-
nün, Atasının və müqəddəs mələklərin
izzəti içində gələndə o adamdan uta-
nacaq. **27**Amma sizə həqiqəti deyirəm:
burada duranlardan bəzisi Allahın
Padşahlığını görmədən ölməyəcək».

### *İsanın görünüşü dəyişir*

*(Mat. 17:1-8; Mark 9:2-8)*

**28**Bu sözləri söyləyəndən təxminən
səkkiz gün keçmişdi. İsa Özü ilə Peter,
Yəhya və Yaqubu götürüb dua etmək
üçün dağa çıxdı. **29**İsa dua edərkən
üzünün görünüşü dəyişdi və libası
gözqamaşdırıcı ağ rəng aldı. **30**O anda
iki nəfər İsa ilə söhbət etməyə başladı.
Onlar Musa və İlyas idi. **31**Onlar
ehtişam içində göründülər və İsanın
Yerusəlimdə yerinə yetirəcəyi bu
dünyadan ayrılması barədə danışır-

---

a **9:23** *Hər gün* – bəzi əlyazmalarda bu sözlər yoxdur.

**9:19** *Mat. 14:1-2; Mark 6:14-15; Luka 9:7-8* **9:20** *Yəh. 6:68-69* **9:23** *Mat. 10:38; Luka 14:27*
**9:24** *Mat. 10:39; Luka 17:33; Yəh. 12:25* **9:28-35** *2Pet. 1:17-18*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 99



dılar. 32Peter və onun yoldaşları dərin
yuxuya dalmışdı. Yuxudan ayılanda
isə İsanın ehtişamını və yanında duran
iki kişini gördülər. 33Onlar İsanın
yanından gedəndə Peter İsaya dedi:
«Ustad! Nə yaxşı ki biz buradayıq.
Gəl üç çardaq quraq, biri Sənin, biri
Musa, biri də İlyas üçün». Əslində o nə
dediyini bilmirdi. 34Peter bunu deyən
zaman bir bulud gəldi və onların
üzərinə kölgə saldı. Buluda daxil
olarkən onları dəhşət bürüdü. 35Bu-
luddan bir səs gəldi: «Bu Mənim
Oğlumdur, seçilmişimdir,[a] Ona qulaq
asın!» 36Səs kəsiləndə onlar İsanı tək
gördülər. Şagirdlər bunu sirr olaraq
saxlayıb o günlərdə gördüklərini heç
kimə danışmadılar.

### *Oğlandan cin çıxarılır*

*(Mat. 17:14-21; Mark 9:14-29)*

37Ertəsi gün onlar dağdan enəndə
İsanı böyük bir izdiham qarşıladı.
38Camaat arasından bir kişi çığırdı:
«Müəllim, yalvarıram, oğluma nəzər
sal, o mənim yeganə balamdır. 39Bir
ruh onu tutur, o birdən bağırır. Ruh
onu ağzından köpük gələnəcən sarsı-
dır. Ona əziyyət verib güc-bəla ilə
onu tərk edir. 40Mən şagirdlərindən
xahiş etdim ki, bu ruhu qovsunlar,
amma bacarmadılar». 41İsa da ona
cavab verdi: «Ey imansız və yolunu
azmış nəsil! Nə vaxta qədər Mən
sizinlə qalıb sizə dözəcəyəm? Oğlunu
yanıma gətir». 42Oğlan İsaya yaxın-
laşarkən cin onu yerə atıb sarsıtdı.
Amma İsa natəmiz ruha qadağan
etdi, oğlanı sağaldıb atasına qaytar-
dı. 43Hamı Allahın əzəmətinə təəc-
cüblənirdi.

### *İsa öləcəyi barədə yenə xəbər verir*

*(Mat. 17:22-23; Mark 9:30-32)*

Onlar hamısı İsanın etdiyi işlərə
heyrət edərkən O, şagirdlərinə dedi:
44«Bu sözlərə qulaq asın: Bəşər Oğlu
insan əllərinə təslim edilmək üzrədir».
45Lakin şagirdlər bu sözü başa düş-
mədilər. Bu sözün mənası onlar üçün
gizli qaldı və Ondan bu söz barədə
soruşmaqdan da qorxurdular.

### *Ən böyük kimdir?*

*(Mat. 18:1-5; Mark 9:33-40)*

46Şagirdlər aralarında kimin ən
böyük olduğu barədə mübahisə et-
məyə başladılar. 47Amma İsa onların
ürəklərindən keçəni bilib bir balaca
uşağı götürüb yanına qoydu. 48Sonra
onlara dedi: «Kim Mənim adımla bu
uşağı qəbul edərsə, Məni qəbul edər.
Kim Məni qəbul edərsə, Məni Gön-
dərəni qəbul edər. Sizin aranızda ha-
mıdan kiçik olan ən böyükdür».
49Yəhya cavabında dedi: «Ustad,
biz Sənin adınla cinləri qovan bir
nəfəri gördük, amma bizimlə birgə
getmədiyinə görə ona mane olduq».
50Amma İsa ona dedi: «Ona mane
olmayın! Əleyhinizə olmayan sizin
tərəfinizdədir».

### *Samariyalılar İsanı qəbul etmirlər*

51Dünyadan ayrılacağı günlər
yaxınlaşdıqca İsa Yerusəlimə getmək
qərarına gəldi. 52İsa qabağınca elçilər
göndərdi. Onlar İsanın gəlişi müna-
sibəti ilə hazırlıq işləri görmək üçün
gedib Samariyalıların bir kəndinə
girdilər. 53Lakin Samariyalılar İsanı
qəbul etmədilər, çünki O, Yerusəlimə

a **9:35** *Oğlumdur, seçilmişimdir* – bəzi əlyazmalarda *sevimli Oğlumdur* (Mark 9:7).
**9:35** *Yeş. 42:1; Mat. 3:17; 12:18; Mark 1:11 14:13-15*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 100



doğru gedirdi. 54Şagirdlərdən Yaqub-
la Yəhya bunu görüb dedilər: «Rəbb,[a]
bunları məhv etmək üçün bir əmrlə
göydən alov yağdırmağımızı istəyir-
sənmi?» 55Amma İsa dönüb onlara
qadağan etdi.[b] 56Sonra onlar başqa bir
kəndə yollandılar.

### *İsanın şagirdi olmaq nə deməkdir*

*(Mat. 8:19-22)*

57Onlar yol boyu gedərkən bir nəfər
İsaya dedi: «Sən hara getsən, Sənin
ardınca gedəcəyəm». 58İsa ona dedi:
«Tülkülərin də yuvası, göydə uçan
quşların da yuvası var. Amma Bəşər
Oğlunun başını qoymağa belə, yeri
yoxdur».

59Bir başqasına İsa dedi: «Ardımca
gəl». O isə dedi: «Ya Rəbb, mənə icazə
ver, əvvəlcə gedim, atamı dəfn edim».
60İsa ona dedi: «Qoy ölülər öz ölülərini
dəfn etsin. Sənsə get, Allahın Padşah-
lığını bəyan et».

61Yenə başqa bir adam dedi: «Ya
Rəbb, Sənin ardınca gələrəm, amma
əvvəl icazə ver evimdəkilərlə vidala-
şım». 62Lakin İsa ona dedi: «Kotanı
tutub geriyə baxan Allahın Padşah-
lığına layiq deyil».

### *İsa yetmiş nəfəri vəz etməyə yollayır*

*(Mat. 10:5-16; 11:21-24; Mark 6:7-13;
Luka 9:1-6)*

10 1Bu hadisələrdən sonra Rəbb
başqa yetmiş[c] nəfəri təyin etdi
və onları iki-iki Özünün gedəcəyi hər
şəhərə və hər yerə Özündən əvvəl gön-
dərdi. 2Onlara dedi: «Məhsul çoxdur,
işçilərsə azdır. Buna görə də məhsulun
Sahibinə yalvarın ki, Öz məhsulunu
yığmaq üçün işçilər göndərsin. 3Gedin,
sizi qurdların arasına quzular kimi
göndərirəm. 4Özünüzlə nə kisə, nə
torba, nə də çarıq götürün. Yolda heç
kimlə salamlaşıb danışmayın. 5Hansı
bir evə girsəniz, əvvəl “Bu evə əmin-
amanlıq olsun!” deyin. 6Əgər orada
əmin-amanlığa layiq bir adam varsa,
dilədiyiniz əmin-amanlıq onun üzərin-
də qalacaq. Əks halda o sizə qayı-
dacaq. 7Girdiyiniz evdə qalın, sizə nə
verirlərsə, yeyib-için, çünki işçi öz
haqqına layiqdir. Evdən evə köç-
məyin. 8Hansısa bir şəhərə girdiyiniz
zaman sizi qəbul edirlərsə, qabağınıza
qoyulanı yeyin. 9Orada olan xəstələrə
şəfa verin və onlara deyin: “Allahın
Padşahlığı sizə yaxınlaşıb”. 10Amma
hansısa bir şəhərə girdiyiniz zaman sizi
qəbul etməsələr, oranın küçələrinə
çıxıb belə deyin: 11“Sizin əleyhinizə
çıxaraq şəhərinizin ayaqlarımıza
yapışan tozunu belə, çırpırıq. Amma
bunu bilin ki, Allahın Padşahlığı sizə
yaxınlaşıb”. 12Sizə bunu deyirəm:
qiyamət günü[d] Sodomun halı o şəhərin
halından daha asan olacaq.

13Vay halına, ey Korazin! Vay
halına, ey Bet-Sayda! Sizdə baş vermiş
möcüzələr Sur və Sidonda olsaydı,
onlar çoxdan çul geyinib külün üs-
tündə oturaraq tövbə edərdi. 14Amma
qiyamət günü[e] Sur və Sidonun halı
sizinkindən daha asan olacaq. 15Sən,

---

a **9:54** *Rəbb* – bəzi əlyazmalarda *Rəbb, İlyas etdiyi kimi bizim də.*
b **9:55-56** *Qadağan etdi* – bəzi əlyazmalarda *qadağan edərək dedi: «Siz hansı ruha malik olduğunuzu bilmirsiniz. 56 Çünki Bəşər Oğlu insanları məhv etmək üçün deyil, onları xilas etmək üçün gəlib».*
c **10:1** *Yetmiş* – bəzi əlyazmalarda *yetmiş iki.*
d **10:12** *Qiyamət günü* – hərfi tərcümədə *o gün.*
e **10:14** *Qiyamət günü* – hərfi tərcümədə *mühakimədə.*
**10:2** *Mat. 9:37-38; Yəh. 4:35* **10:3** *Mat. 10:16*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 101



ey Kefernahum, göyə qədər ucalacaqsanmı? Ölülər diyarına qədər enəcəksən.

16Sizi dinləyən kəs Məni dinləyir, sizi rədd edən Məni rədd edir. Məni rədd edənsə Məni Göndərəni rədd edir».

### *Yetmiş şagird qayıdır*

17Yetmiş şagird sevinə-sevinə qayıtdı və dedi: «Ya Rəbb, Sənin adınla cinlər belə, bizə tabe olur!» 18İsa onlara belə cavab verdi: «Mən Şeytanın ildırım kimi göydən düşməyini görmüşdüm. 19Baxın Mən sizə səlahiyyət vermişəm ki, ilanları, əqrəbləri və düşmənin bütün gücünü ayaq altında əzəsiniz və heç nə sizə zərər vurmayacaq. 20Bununla belə, ruhların sizə tabe olduğuna görə sevinməyin, amma sevinin ki, adlarınız göylərdə yazılıb».

### *İsanın sevinci*

*(Mat. 11:25-27; 13:16-17)*

21İsa o vaxt Müqəddəs Ruhda şadlanıb dedi: «Ey yerin-göyün Sahibi olan Ata! Səndən razıyam ki, bu şeyləri müdrik və dərrakəli adamlardan gizlədib körpələrə agah etdin. Bəli, Ata! Çünki bu Sənin xoş niyyətin idi. 22Atam[a] tərəfindən hər şey Mənim ixtiyarıma verildi. Oğulun kim olduğunu Atadan başqa heç kəs bilməz. Atanın kim olduğunu da Oğuldan və Oğulun agah etmək istədiyi şəxsdən başqa heç kəs bilməz».

23Sonra İsa şagirdlərə sarı dönüb onlara ayrıca dedi: «Nə bəxtiyardır o gözlər ki, sizin gördüklərinizi görür! 24Sizə bunu deyirəm: bir çox peyğəmbərlər və padşahlar sizin gördüklərinizi görmək istədilər, amma görmədilər, eşitdiklərinizi eşitmək istədilər, amma eşitmədilər».

### *Xeyirxah Samariyalı*

25Bir qanunşünas İsanı sınamaq məqsədi ilə qalxıb dedi: «Müəllim, əbədi həyatı irs olaraq almaq üçün mən nə etməliyəm?» 26İsa ondan soruşdu: «Qanunda nə yazılıb? Orada nə oxuyursan?» 27Bu adam İsaya belə cavab verdi: «“Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla, bütün gücünlə və bütün düşüncənlə sev” və “Qonşunu özün kimi sev”». 28İsa ona dedi: «Sən düz cavab verdin, buna əməl et və yaşayacaqsan». 29Amma o özünə haqq qazandırmaq üçün İsadan soruşdu: «Bəs mənim qonşum kimdir?»

30İsa belə cavab verdi: «Bir nəfər Yerusəlimdən Yerixoya gedən yolda quldurların əlinə düşdü. Quldurlar onu soyundurub döydülər və yarımcan halda qoyub getdilər. 31Təsadüfən o yoldan bir kahin enirdi. Bu adamı görən kimi yolun o biri tərəfi ilə keçib getdi. 32Bir Levili də ora yaxınlaşıb o adamı görəndə yolun o biri tərəfi ilə keçib getdi. 33O yolla gedən bir Samariyalı isə bu adamı görəndə ona rəhmi gəldi. 34Ona yaxınlaşdı və zeytun yağı ilə şərab tökərək yaralarını sarıdı. Sonra bu adamı öz heyvanına mindirib mehmanxanaya gətirdi və ona qayğı göstərdi. 35Ertəsi gün o, iki dinar çıxarıb mehmanxana sahibinə

---

a **10:22** *Atam* – bəzi əlyazmalarda *Şagirdlərə sarı dönüb onlara dedi: «Atam...*

**10:16** *Mat. 10:40; Mark 9:36-37; Luka 9:47-48; Yəh. 13:20* **10:19** *Zəb. 91:13*
**10:22** *Yəh. 1:18; 3:35; 10:15* **10:25-28** *Mat. 22:35-40; Mark 12:28-34*
**10:27** *Lev. 19:18; Qanun. 6:5* **10:28** *Lev. 18:5*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 102



verərək dedi: “Onun qayğısını çək.
Əgər bundan da çox xərcin çıxsa, mən
geri qayıdanda sənə verərəm”. 36Səncə
bu üç nəfərdən hansı quldurların əlinə
düşən adamın qonşusu idi?» 37Qanun-
şünas cavab verdi: «Ona mərhəmət
göstərən». İsa da ona dedi: «Get, sən
də elə et».

### *İsa Marta və Məryəmin evində*

38İsa şagirdləri ilə yoluna davam
edərkən bir kəndə girdi. Burada
Marta adlı bir qadın Onu öz evinə
dəvət etdi. 39Onun Məryəm adlı bir
bacısı vardı. O, Rəbbin ayaqları
yanında oturub Onun sözünə qulaq
asırdı. 40Marta isə işin çoxluğundan
çaşıb-qalmışdı. O, İsaya yaxınlaşıb
dedi: «Ya Rəbb! Görmürsən ki, bacım
işləri tək mənim üstümə yığıb? Ona de
ki, mənə kömək etsin». 41Rəbb isə ona
belə cavab verdi: «Marta, Marta, sən
çox şeyin qayğısını çəkib təlaşa
düşürsən. 42Yalnız bir şey lazımdır.
Məryəm yaxşısını seçdi. Bu da onun
əlindən alınmayacaq».

### *Dua haqqında təlim*

*(Mat. 6:9-13; 7:7-11)*

11 1İsa bir yerdə dua edirdi.
Duasını bitirəndə şagirdlərindən
biri Ona dedi: «Ya Rəbb, Yəhya öz
şagirdlərinə öyrətdiyi kimi Sən də bizə
dua etməyi öyrət». 2İsa onlara dedi:
«Dua edəndə belə deyin:
Göylərdə olan Atamız,
Adın müqəddəs tutulsun,
Padşahlığın gəlsin.
Göydə olduğu kimi yerdə də Sənin
iradən olsun.[a]
3Gündəlik çörəyimizi bizə hər gün
ver.
4Bizə borclu olan hər adamı
bağışladığımıza görə
Bizim günahlarımızı da bağışla.
Bizi sınağa çəkmə».[b]
5Sonra İsa onlara dedi: «Məsələn,
sizlərdən birinin bir dostu var. O da
gecə yarısı dostunun yanına gedib
deyir: “Dostum, mənə üç kömbə çörək
borc ver, 6çünki yanıma dostum gəlib,
qabağına qoyacaq heç nəyim yoxdur”.
7Dostu da içəridən belə cavab verir:
“Məni narahat etmə. Qapı artıq
qıfıllıdır, uşaqlarım yanımda yatıb,
mən durub sənə bir şey verə bil-
mərəm”. 8Sizə deyim ki, o həmin
adamla dost olduğu halda vermək
istəməsə də, təkidlə xahiş etdiyinə görə
qalxıb nə qədər ehtiyacı olsa, ona
verəcək.
9Mən sizə bunu deyirəm: diləyin,
sizə veriləcək, axtarın, tapacaqsınız,
qapını döyün və sizə açılacaq. 10Çünki
hər diləyən alar, axtaran tapar, qapı
döyənə açılar. 11Aranızdan hansı ata
oğlu ondan balıq diləsə,[c] ona balıq
yerinə ilan verər? 12Yaxud yumurta
diləsə, ona əqrəb verər? 13Beləliklə, siz
pis olduğunuz halda öz övladlarınıza
yaxşı hədiyyələr verməyi bilirsinizsə,
göydə olan Atanın Ondan diləyənlərə
Müqəddəs Ruhu verəcəyi nə qədər
yəqindir!»

a **11:2** *Göylərdə olan Atamız ... olsun* – bəzi əlyazmalarda *Ata, adın müqəddəs tutulsun, Padşahlığın gəlsin.* (Mat. 6:9-10).
b **11:4** *Çəkmə* – bəzi əlyazmalarda *çəkmə, Lakin bizi şərdən xilas et,* yaxud *çəkmə, Lakin bizi şər olandan xilas et* (Mat. 6:13).
c **11:11** *Balıq diləsə* – bəzi əlyazmalarda *çörək diləsə, ona daş verər? Ya da balıq diləsə* (Mat. 7:9).
**10:38-39** *Yəh. 11:1*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 103



### *İsa və Baal-Zevul*
*(Mat. 12:22-30; Mark 3:20-27)*

**14**İsa bir adamdan lal olan bir cini
qovurdu. Cin çıxandan sonra lal
danışmağa başladı və camaat heyrət-
ləndi. **15**Amma onların bəzisi deyirdi:
«O, cinlərin başçısı Baal-Zevulun gücü
ilə cinləri qovur». **16**Başqaları isə İsanı
sınamaq üçün istədilər ki, göydən
gələn bir əlamət göstərsin.
**17**Nə düşündüklərini bilən İsa
onlara dedi: «Öz daxilindən bölünmüş
hər padşahlıq viran qalar və öz içindən
bölünmüş ev dağılar. **18**Əgər Şeytan da
öz daxilindən bölünübsə, onun pad-
şahlığı necə davam gətirər? Siz də
deyirsiniz ki, Mən cinləri Baal-
Zevulun gücü ilə qovuram. **19**Əgər
Mən cinləri Baal-Zevulun gücü ilə
qovuramsa, bəs sizin adamlarınız
kimin gücü ilə qovur? Buna görə də
onlar sizin hakimləriniz olacaq.
**20**Lakin Mən cinləri Allahın qüdrəti[a]
ilə qovuramsa, deməli, Allahın Pad-
şahlığı üzərinizə gəlib. **21**Əgər güclü bir
adam təpədən-dırnağadək silahlanıb
öz evini qoruyursa, onun əmlakı əmin-
amanlıqdadır. **22**Amma ondan güclüsü
ona hücum edib qalib gələrsə, onda
onun güvəndiyi silahları əlindən alıb
talan mallarını bölüşdürər. **23**Mənimlə
olmayan Mənə qarşıdır və Mənimlə
yığmayan dağıdır.
**24**Natəmiz ruh adamdan çıxdıqdan
sonra quraq yerlərdə dolaşar, rahatlıq
axtarar, lakin tapmaz. O zaman deyər:
“Çıxdığım evə dönüm”. **25**Evə qayı-
danda onu süpürülmüş və səliqə-
sahman içində görər. **26**Bu vaxt o
gedib özündən daha betər yeddi başqa
ruhu götürər. Onlar da oraya girib
məskunlaşar. Onda bu adamın axırı
əvvəlkindən daha pis olar».
**27**İsa bunu deyərkən bir qadın
camaatın arasından uca səslə Ona
dedi: «Səni bətnində daşıyan və Səni
əmizdirən nə bəxtiyardır!» **28**Amma
İsa dedi: «Daha doğrusu, Allahın
kəlamını eşidib ona riayət edənlər nə
bəxtiyardır!»

### *Yunus peyğəmbərin əlaməti*
*(Mat. 12:38-42)*

**29**Camaat Onun ətrafına yığılanda
İsa danışmağa başladı: «İndiki nəsil
pis nəsildir. Onlar əlamət axtarır,
amma onlara Yunusun əlamətindən
başqa heç bir əlamət verilməyəcək.
**30**Çünki Yunus Nineva əhalisinə necə
bir əlamət oldusa, Bəşər Oğlu da bu
nəsil üçün belə olacaq. **31**Cənub mə-
ləkəsi[b] qiyamət günündə[c] bu nəslin
adamları ilə birgə qalxıb onları məh-
kum edəcək. Çünki mələkə Süley-
manın hikmətli sözlərini dinləmək
üçün yer üzünün ucqarlarından gəlmiş-
di. Budur, Süleymandan daha böyük
Olan buradadır. **32**Nineva xalqı qiya-
mət günündə[d] bu nəsillə birgə qalxıb
onu məhkum edəcək. Çünki onlar
Yunusun vəzinə görə tövbə etmişdilər.
Budur, Yunusdan daha böyük Olan
buradadır.

---

a **11:20** *Qüdrəti* – hərfi tərcümədə *barmağı.*
b **11:31** *Cənub mələkəsi* – yəni Süleymanın yanına gələn Səba mələkəsi.
c **11:31** *Qiyamət günündə* – hərfi tərcümədə *mühakimədə.*
d **11:32** *Qiyamət günündə* – hərfi tərcümədə *mühakimədə.*
**11:15** *Mat. 9:34; 10:25* **11:16** *Mat. 12:38; 16:1; Mark 8:11* **11:23** *Mark 9:40*
**11:29** *Mat. 16:4; Mark 8:12* **11:30** *Yun. 3:4* **11:31** *1Pad. 10:1-13; 2Saln. 9:1-12*
**11:32** *Yun. 3:5*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 104



### *Bədənin çırağı*
*(Mat. 6:22-23)*

33Heç kim çırağı yandırıb, onu gizli
yerə yaxud da qabın altına qoymaz.
Əksinə, çıraqdana qoyar ki, içəri
girənlər işığı görsünlər.
34Bədəninin çırağı gözündür. Gözün
sağlam olanda bütün bədənin də nurlu
olur. Gözün zəif görəndə isə bütün
bədənin də qaranlıq olur. 35Beləliklə,
diqqət et ki, səndəki "nur" qaranlıq
olmasın. 36Əgər sənin bütün bədənin
nurlu olub heç bir yerdə qaranlıq
qalmırsa, çıraq sənə öz nuru ilə işıq
saçdığı kimi bədənin də tamamilə
nurlu olacaq».

### *Vay halınıza!*
*(Mat. 23:1-36)*

37İsa bunları deyib qurtaranda
fariseylərdən biri Onu evinə yeməyə
dəvət etdi. O da içəri girib süfrəyə
oturdu. 38İsanın yeməkdən əvvəl yu-
yunmadığını görən farisey heyrətləndi.
39Lakin Rəbb ona dedi: «İndi siz
fariseylər kasanın və boşqabın bayır
tərəfini təmizləyirsiniz, lakin daxiliniz
soyğunçuluq və pisliklə dolub. 40Ey
ağılsızlar, zahiri yaradanla daxili
yaradan eyni deyilmi? 41Yaxşısı budur
ki, qablarınızın içindəkilərini sədəqə
verəsiniz, onda sizin üçün hər şey
təmiz olar.
42Vay halınıza, ey fariseylər! Çünki
siz nanə, sədəfotu və hər cür göyərtinin
onda birini verirsiniz, lakin ədalətə və
Allah məhəbbətinə etinasızlıq göstərir-
siniz. Amma onda biri verməklə
yanaşı bunları da yerinə yetirməli
idiniz.
43Vay halınıza, ey fariseylər!
Sinaqoqlarda baş kürsüləri tutmağı və
bazar meydanlarında salam almağı
sevirsiniz.
44Vay halınıza! Çünki siz insanların
xəbəri olmadan üstündən keçdikləri
itmiş qəbirlərə oxşayırsınız».
45Qanunşünaslardan biri İsaya
cavab verdi: «Müəllim, sən bunları
deməklə bizi də təhqir edirsən». 46İsa
da belə dedi: «Elə sizin də vay halınıza,
ey qanunşünaslar! Çünki adamları ağır
yüklərlə yükləyirsiniz, amma özünüz
barmağınızın biri ilə də bu yüklərə
toxunmursunuz.
47Vay halınıza! Çünki peyğəm-
bərlərə məqbərələr tikirsiniz, amma
onları sizin ata-babalarınız öldürdülər!
48Beləliklə, siz ata-babalarınızın et-
diklərinə şahidlik edib bəyənirsiniz.
Çünki onlar peyğəmbərləri öldürüb,
sizsə onlara məqbərələr tikirsiniz.
49Buna görə də Allahın hikməti belə
demişdi: "Mən onlara peyğəmbərlər
və həvarilər göndərəcəyəm, onların
bəzisini öldürüb, bəzisini isə təqib
edəcəklər". 50-51Beləcə bu nəsil dünya
yaranandan bəri Habilin qanından
tutmuş qurbangahla məbədin arasın-
da öldürülmüş Zəkəriyyənin qanına
qədər bütün peyğəmbərlərin tökülən
qanı üçün məsuliyyət daşıyacaq. Bəli,
Mən sizə deyirəm: onun üçün bu nəsil
məsuliyyət daşıyacaq.
52Vay halınıza, ey qanunşünaslar!
Çünki bilik qapısının açarlarını götür-
müsünüz. Özünüz bu qapıdan girmə-
diniz, girmək istəyənlərə də mane
oldunuz».
53İsa oradan çıxanda ilahiyyatçılar-
la fariseylər ona çox təzyiq göstərərək
bir çox məsələlər barədə Onu sorğu-
suala tutmağa başladılar. 54Onlar

---

**11:33** *Mat. 5:15; Mark 4:21; Luka 8:16* **11:42** *Lev. 27:30* **11:50-51** *Yar. 4:8; 2Saln. 24:20-21*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 105



fürsət axtarırdılar ki, İsanın ağzından çıxan bir sözlə Onu tələyə salsınlar.

### *İsa ikiüzlülüyə qarşı xəbərdarlıq edir*

*(Mat. 10:26-33)*

12 [1]Bu vaxt saysız-hesabsız adam
bir-birini sıxışdıra-sıxışdıra
oraya yığıldı. İsa əvvəl şagirdlərinə
danışmağa başladı: «Fariseylərin ma-
yasından, yəni ikiüzlülükdən özünüzü
gözləyin. [2]Elə örtülü bir şey yoxdur ki,
aşkara çıxmayacaq və elə gizli bir şey
yoxdur ki, bilinməyəcək. [3]Buna görə
də qaranlıqda dediyiniz gün işığında
eşidiləcək, bağlı qapı arxasında qulağa
pıçıldadığınız damlardan bəyan olu-
nacaq.

[4]Ey dostlarım, sizə deyirəm: bədəni
öldürən və ondan sonra başqa heç nə
edə bilməyənlərdən qorxmayın. [5]Am-
ma Kimdən qorxmaq lazım olduğunu
sizə göstərim: adamı öldürəndən sonra
cəhənnəmə atmağa ixtiyarı olan
Allahdan qorxun. Bəli, sizə deyirəm:
Ondan qorxun! [6]Beş sərçə iki qara
pula satılmırmı? Onlardan biri belə,
Allahın qarşısında yaddan çıxmır.
[7]Sizin başınızdakı saçlar belə, sayılıb.
Qorxmayın, siz saysız-hesabsız sərçə-
dən daha dəyərlisiniz.

[8]Mən sizə deyirəm: insanlar qar-
şısında Məni iqrar edən hər kəsi Bəşər
Oğlu da Allahın mələkləri qarşısında
iqrar edəcək. [9]Amma insanlar önündə
Məni inkar edən özü də Allahın
mələkləri önündə inkar olunacaq.
[10]Bəşər Oğluna qarşı bir söz deyən hər
kəs bağışlanacaq; amma Müqəddəs
Ruha küfr edən bağışlanmayacaq.

[11]Sizi sinaqoqlara, başçıların və
hökmdarların qarşısına gətirəndə özü-
nüzü necə müdafiə edəcəyiniz və yaxud
nə deyəcəyiniz barədə qayğı çəkməyin.
[12]Müqəddəs Ruh sizə o anda nə
deməli olduğunuzu öyrədəcək».

### *Var-dövlət və insan həyatı*

[13]İzdihamdan bir nəfər İsaya dedi:
«Müəllim, qardaşıma de ki, mirası
mənimlə bölsün». [14]İsa ona belə cavab
verdi: «Ey insan, Məni kim üzərinizə
hakim ya vəkil qoyub?» [15]Sonra İsa
onlara dedi: «Diqqətli olun, hər cür
tamahkarlıqdan özünüzü qoruyun.
Çünki insanın həyatı var-yoxunun
bolluğundan asılı deyil».

[16]İsa onlara bu məsəli danışdı: «Bir
varlının torpağı bol məhsul verdi.
[17]Bu adam ürəyində düşündü: “Məh-
sulumu qoymağa yerim yoxdur. Axı
nə edim?” [18]Sonra dedi: “Belə edərəm:
anbarlarımı söküb daha böyüklərini
tikəcəyəm. Bütün taxılımı və malımı
oraya yığaram. [19]Canıma deyərəm: ey
canım, illərlə kifayət qədər var-dövlət
yığmısan. İndi dincəl, ye-iç, kef elə”.
[20]Amma Allah ona dedi: “Ay axmaq,
bu gecə canını səndən alacaqlar. Bəs
hazırladığın kimə qalacaq?” [21]Özü
üçün xəzinə toplayan, amma Allahın
önündə varlı olmayan hər bir insanın
axırı da elə olacaq».

### *Qayğı çəkməyin*

*(Mat. 6:20-21; 25-34)*

[22]İsa Öz şagirdlərinə belə dedi:
«Buna görə sizə deyirəm: “Nə yeyə-
cəyik?” deyə canınız üçün, “Nə geyi-
nəcəyik?” deyə bədəniniz üçün qayğı
çəkməyin. [23]Can yeməkdən, bədənsə
geyinməkdən daha vacibdir. [24]Qar-
ğalara baxın: onlar nə əkir, nə də biçir,

---

**12:1** *Mat. 16:6; Mark 8:15* **12:2** *Mark 4:22; Luka 8:17* **12:10** *Mat. 12:31-32; Mark 3:28-29*
**12:11-12** *Mat. 10:19-20; Mark 13:11; Luka 21:14-15*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 106



nə anbarları, nə də zirzəmiləri var.
Amma Allah onları yedizdirir. Siz
quşlardan nə qədər qiymətlisiniz!
25Hansı biriniz qayğı çəkməklə ömrü-
nü bir anlıq belə, uzada bilər? 26Əgər
siz elə balaca şeyi etməyi bacarmırsı-
nızsa, nə üçün başqa şeylərin qayğısını
çəkirsiniz? 27Zanbaqların necə böyü-
düyünə baxın: onlar nə zəhmət çəkir,
nə də ip əyirir. Lakin sizə bunu
deyirəm ki, bütün cah-calalı içində
olan Süleyman belə, bunlardan biri
kimi geyinməmişdi. 28Ey imanı az
olanlar, bu gün çöldə olub sabah
ocağa atılan otu Allah belə geyin-
dirirsə, sizi geyindirəcəyi nə qədər
yəqindir! 29"Nə yeyəcəyik?", "Nə
içəcəyik?" deyə axtarıb narahat olma-
yın. 30Çünki dünyadakı bütpərəstlər
bütün bu şeyləri axtarırlar. Doğrudan
da, Atanız bunlara ehtiyacınız oldu-
ğunu bilir. 31Lakin siz Allahın Pad-
şahlığını axtarın, onda bunlar da sizə
əlavə olaraq veriləcək.

32Qorxma, ey kiçik sürü! Çünki
Atanız Padşahlığı sizə verməyi mü-
nasib gördü. 33Əmlakınızı satın və sə-
dəqə verin. Özünüzə köhnəlməyən ki-
sələr, göylərdə tükənməyən xəzinə
hazırlayın. Oraya nə oğru gələr, nə də
onu güvə yeyər. 34Çünki xəzinəniz ha-
radadırsa, ürəyiniz də orada olacaq».

### *Bilinməyən gün və saat*

*(Mat. 10:34-36; 24:42-51; Mark 13:32-36)*

35«Qoy qurşaqlarınız bellərinizdə
bağlı və çıraqlarınız yana-yana qalsın.
36Toy ziyafətindən qayıdan ağasını
gözləyən adamlara oxşayın. Onlar
ağaları gəlib qapını döyən kimi qapını
açmağa hazır olurlar. 37Nə bəxtiyardır
o qullar ki, ağa qayıdanda onları oyaq
görür! Sizə doğrusunu deyirəm: o özü
qurşaqlanıb qullarını süfrəyə oturda-
caq və gəlib onlara xidmət edəcək.
38Ağa istər gecəyarı, istər ondan gec,
səhərə yaxın gəlib qulları oyaq görsə, o
qullar necə də bəxtiyardır!

39Amma bunu bilin ki, əgər evin
yiyəsi oğrunun hansı saatda gələcəyini
bilsəydi, evinin yarılmasına imkan
verməzdi. 40Beləcə siz də hazır olun,
çünki Bəşər Oğlu gözləmədiyiniz vaxt
gələcək».

41Peter dedi: «Ya Rəbb, bu məsəli
ancaq bizə danışırsan, yoxsa hamıya?»
42Rəbb cavab verdi: «Vaxtlı-vaxtında
onlara yemək vermək üçün ağasının öz
nökərləri üzərinə qoyduğu sadiq və
ağıllı idarəçi kimdir? 43Nə bəxtiyardır
o qul ki, ağası evinə qayıdanda onu iş
başında görür! 44Sizə həqiqəti deyi-
rəm: ağası bu qula bütün əmlakı üzə-
rində idarəçiliyi tapşıracaq. 45Amma
həmin qul ürəyində "ağam gec gələ-
cək" deyərsə, başqa nökər və qarabaş-
ları döyməyə, yeyib-içməyə, sərxoş-
luğa uymağa başlayarsa, 46o qulun
ağası onun gözləmədiyi gün və ağlına
gəlmədiyi vaxt gələcək, ona ağır cəza
verəcək və onu sədaqətsizlərlə bir
yerdə saxlayacaq.

47Ağasının istəyini bilib hazır
olmayan və onun istəyinə əməl etmə-
yən qul çox döyüləcək. 48Bilməyib o
cəzaya layiq iş görənsə az döyüləcək.
Kimə çox verilibsə, ondan çox da
istəniləcək. Kimə çox tapşırılıbsa, on-
dan daha çox tələb olunacaq.

49Mən yer üzünə od yağdırmağa
gəlmişəm. Kaş ki bu od artıq alışıb-
yanaydı! 50Mənim alacağım bir vəftiz

**12:27** *1Pad. 10:4-7; 2Saln. 9:3-6* **12:35-36** *Mat. 25:1-13* **12:50** *Mark 10:38*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 107



var. Bu vəftiz yerinə yetib qurtaranadək nə qədər sıxıntı çəkməliyəm! **51**Siz düşünürsünüz ki, Mən yer üzünə sülh gətirməyə gəlmişəm? Xeyr, sizə deyirəm ki, Mən ayrılıq gətirməyə gəlmişəm! **52**Çünki bundan sonra bir evdə yaşayan beş nəfər bir-birindən ayrılaraq üç nəfərə qarşı iki nəfər, iki nəfərə qarşı üç nəfər olacaq. **53**Çünki ata oğlundan, oğul atasından, ana qızından, qız anasından, qayınana gəlinindən, gəlin də qayınanasından ayrılacaq».

### *Əlamətləri anlamaq*

*(Mat. 16:2-3)*

**54**İsa camaata bunu da dedi: «Siz qərb tərəfdən qalxan buludu görəndə dərhal “yağış yağacaq” deyirsiniz, bu da olur. **55**Cənub küləyinin əsməsini görəndə “qızmar isti olacaq” deyirsiniz, bu da olur. **56**Ey ikiüzlülər, yer üzünün və göyün görünüşünü seçə bilirsiniz, bəs onda nə üçün indiki zamanı seçə bilmirsiniz?

**57**Nə üçün düzgün olan şeyə özünüz qərar vermirsiniz? **58**Səni ittiham edənlə birgə hakimin yanına gedəndə yolda ikən onunla barışmağa çalış. Yoxsa səni hakimin qabağına sürüyər, hakimsə məhkəmə icraçısına ötürər, o da səni zindana atar. **59**Sənə bunu deyirəm: axırıncı qəpik-quruşunu verməyincə oradan əsla çıxmayacaqsan».

### *Tövbəyə çağırış*

**13** **1**Bu vaxt orada olan bəzi adamlar İsaya xəbər verdilər ki, Pilat bəzi Qalileyalıların qanını kəsdikləri qurbanların qanına qatmışdı. **2**İsa buna belə cavab verdi: «Siz elə bilirsiniz ki, bu aqibətə uğramış Qalileyalılar bütün digər Qalileyalılardan daha betər günahlı idilər? **3**Xeyr, Mən sizə deyirəm: tövbə etməsəniz, hamınız onlar kimi məhv olacaqsınız. **4**Yaxud Şiloah qülləsi on səkkiz adamın üstünə aşıb onları öldürəndə onların Yerusəlim sakinlərinin hamısından təqsirkar olduqlarını fikirləşirsiniz? **5**Xeyr, Mən sizə deyirəm: tövbə etməsəniz, hamınız onlar kimi məhv olacaqsınız».

### *Barsız əncir ağacı*

*(Mat. 21:18-19; Mark 11:12-14)*

**6**Sonra İsa bu məsəli danışdı: «Bir adamın bağında bir əncir ağacı əkilmişdi. Bu adam gəlib ağacda meyvə axtardı, amma tapmadı. **7**O, bağbana dedi: “Bura bax, üç ildir ki, mən gəlib bu əncir ağacında meyvə axtarıram, amma tapmıram. Onu kəs! Nə üçün bu ağac əbəs yerə torpağı tutur?” **8**Bağbansa cavabında belə dedi: “Ağa, bir il də buna əl dəymə. Mən onu belləyib dövrəsinə peyin tökərəm. **9**Gələn il bu ağac meyvə gətirsə, yaxşıdır, yox, gətirməsə, onu kəsərsən”».

### *Şənbə günü şəfa vermək olarmı?*

**10**İsa bir dəfə Şənbə günü sinaqoqlardan birində təlim öyrədirdi. **11**Orada on səkkiz il daxilində xəstəlik ruhu olan beli bükülmüş bir qadın var idi. O, belini heç düzəldə bilmirdi. **12**İsa bu qadını görəndə çağırıb dedi: «Ey qadın, sən azarından azad oldun». **13**İsa əllərini qadının üstünə qoyanda o dərhal dikəlib Allahı izzətləndirməyə başladı. **14**Amma sinaqoqun rəisi İsanın Şənbə günü şəfa verdiyinə hiddətlənib camaata belə

**12:51-53** *Mat. 10:34-36* **12:53** *Mik. 7:6* **12:58-59** *Mat. 5:25-26*
**13:14** *Çıx. 20:9-10; Qanun. 5:13-14*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 108



xitab etdi: «İş görmək üçün altı gün
var, o günlər gəlin və şəfa alın, Şənbə
günü yox». **15**Rəbb isə ona belə cavab
verdi: «Ey ikiüzlülər, sizlərdən hər
biriniz Şənbə günündə öz öküzünün ya
eşşəyinin bağını açıb tövlədən su
içməyə aparmırmı? **16**İbrahimin qızı
olan bu qadını da on səkkiz il ərzində
Şeytan buxovlamışdı. Şənbə günü bu
qadının buxovlarını açmaq lazım
deyildimi?» **17**İsa bunları deyəndə Ona
qarşı çıxanlar hamısı utandı. Ca-
maatın hamısı isə Onun etdiyi bütün
izzətli işlərinə görə sevinirdi.

### *Xardal toxumu və maya məsəlləri*

*(Mat. 13:31-33; Mark 4:30-32)*

**18**Sonra İsa dedi: «Allahın Padşah-
lığı nəyə bənzəyir? Onu nəyə bənzə-
dim? **19**O bir adamın bağçasına əkdiyi
xardal toxumuna bənzəyir. O toxum
böyüyüb ağac olur. Göydə uçan quşlar
onun budaqlarında yuva qurur».

**20**İsa yenə dedi: «Allahın Padşah-
lığını nəyə bənzədim? **21**O, xəmir ma-
yasına bənzəyir. Qadın onu götürüb üç
kisə[a] una qarışdırıb bütün xəmir acı-
yanadək saxlayır».

### *Dar qapı*

*(Mat. 7:13-14; 21-23)*

**22**İsa şəhər və kəndləri gəzib təlim
öyrədərək Yerusəlimə tərəf gedirdi.
**23**Bir nəfər Ondan soruşdu: «Ya Rəbb,
xilas tapanların sayı az olacaqmı?» İsa
onlara belə cavab verdi: **24**«Dar
qapıdan girməyə çalışın. Sizə bunu
deyirəm: çoxları bu qapıdan girməyə
can atacaq, amma girə bilməyəcək.
**25**Ev yiyəsi durub qapını bağlayandan
sonra siz bayırda durub qapını
döyərək deyəcəksiniz: "Ey ağam, bizə
qapını aç!" O isə cavabında sizə de-
yəcək: "Mən sizin haradan gəldiyinizi
bilmirəm!" **26**Siz o vaxt belə deyəcək-
siniz: "Biz Sənin qarşında yeyib-
içmişik. Sən bizim küçələrdə öyrədir-
din". **27**O isə sizə deyəcək: "Ey haqsız-
lıq edənlərin hamısı, Mən sizin ha-
radan gəldiyinizi bilmirəm, Məndən
uzaq olun!" **28**İbrahimi, İshaqı, Yaqu-
bu və bütün peyğəmbərləri Allahın
Padşahlığında, özünüzü isə bayıra
atılmış görəndə aranızda ağlaşma və
diş qıcırtısı olacaq. **29**Adamlar şərq-
dən, qərbdən, şimaldan, cənubdan
gələcək və Allahın Padşahlığında süf-
rəyə oturacaq. **30**Budur, elə axırıncılar
var ki, birinci olacaq, elə birincilər var
ki, axırıncı olacaq».

### *Yerusəlimin aqibəti*

*(Mat. 23:37-39)*

**31**O zaman bəzi fariseylər gəlib
İsaya dedilər: «Buradan çıx get, çünki
Hirod Səni öldürmək istəyir». **32**İsa
onlara dedi: «Gedin o tülküyə deyin:
"Budur, Mən bu gün və sabah cinləri
qovub camaatı sağaldacağam və
üçüncü gün işimi bitirəcəyəm". **33**Yenə
də bu gün, sabah və o biri gün yoluma
davam etməliyəm. Çünki peyğəmbər
Yerusəlimdən kənarda öldürülə bil-
məz!

**34**Ey Yerusəlim, Yerusəlim! Pey-
ğəmbərləri öldürən və ora göndəri-
lənləri daşqalaq edən şəhər! Toyuq
cücələrini qanadları altına yığan kimi
Mən də dəfələrlə sənin övladlarını
yığmaq istədim, sizsə istəmədiniz!

---

a **13:21** *Kisə* – yunan dilində *saton,* təqribən 37 litr.

**13:25** *Mat. 25:11-12* **13:27** *Zəb. 6:8* **13:28-29** *Mat. 8:11-12; 22:13; 25:30*
**13:30** *Mat. 19:30; 20:16; Mark 10:31*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 109



**35**Baxın, eviniz viran qalır. Mən sizə
bunu deyirəm:

“Rəbbin ismi ilə Gələnə alqış
olsun!”

deyənə qədər Məni bir daha görməyə-
cəksiniz».

### *İsa və farisey rəhbəri*

**14** **1**Bir Şənbə günü İsa farisey
rəhbərlərinin birinin evinə
çörək yeməyə getdi. Hamı Ona göz
qoyurdu. **2**Onun qarşısında hidropos[a]
xəstəliyinə tutulmuş bir adam var idi.
**3**İsa qanunşünas və fariseylərə xitab
edərək soruşdu: «Şənbə günü insan-
lara şəfa verməyə icazə var ya yox?»
**4**Amma onlar dinmirdi. İsa o adama
əli ilə toxundu, onu sağaltdı və burax-
dı. **5**İsa onlara dedi: «Sizlərdən kimin
oğlu[b] yaxud öküzü Şənbə günü quyuya
düşsə, onu dərhal oradan dartıb
çıxarmaz?» **6**Onlar İsanın bu sualına
cavab verə bilmədilər.

### *Qonaqlar məsəli*

*(Mat. 22:1-10)*

**7**İsa fikir verdi ki, dəvət olunanlar
yuxarı başda oturmağı seçdilər.
Onlara belə bir məsəl söylədi: **8**«Bir
nəfər səni toya dəvət edirsə, yuxarı
başda oturma. Bəlkə ev yiyəsinin
səndən də hörmətli bir qonağı var.
**9**İkinizi də toya dəvət edən gəlib sənə
“bu adama yer ver” desə, sən xəcalət
içində aşağı başda əyləşməli olarsan.
**10**Amma dəvət olunanda gedib ən
aşağı başda otur ki, səni dəvət edən
adam gəlib sənə “Dostum! Yuxarı
başa keç” desin; o zaman səninlə birgə
oturanların hamısının qarşısında hör-
mət qazanarsan. **11**Çünki özünü yük-
səldən hər kəs aşağı tutulacaq, özünü
aşağı tutansa yüksəldiləcək».

**12**İsa Onu dəvət edənə də dedi:
«Günorta yaxud axşam yeməyi ver-
diyin vaxt öz dostlarını, qardaşlarını,
qohumlarını, dövlətli qonşularını
dəvət etmə ki, onlar da səni çağıraraq
sənə əvəzini versin. **13**Amma qonaqlıq
verəndə yoxsulları, əlilləri, topalları,
korları çağır. **14**Onda onlar sənə əvə-
zini verə bilmədiyinə görə sən bəxtiyar
olacaqsan. Çünki salehlər dirildiyi
zaman sənə əvəz veriləcək».

**15**Süfrəyə oturanlardan biri bunu
eşidib İsaya dedi: «Allahın Padşah-
lığında çörək yeyən nə bəxtiyardır!»
**16**Amma İsa ona dedi: «Bir adam
böyük ziyafət hazırladı və oraya çoxlu
qonaq çağırdı. **17**Yemək vaxtı gələndə
öz qulunu dəvət olunanların yanına
göndərdi ki, onlara desin: “Buyurun,
indi hər şey hazırdır”. **18**Amma hamı
birdən üzr istəməyə başladı. Birincisi
ona dedi: “Mən bir torpaq sahəsi
almışam, gedib ona baxmalıyam.
Səndən xahiş edirəm, məni bağışla”.
**19**Digəri isə dedi: “Mən beş cüt öküz
satın almışam və onları yoxlamağa
gedirəm. Səndən xahiş edirəm, məni
bağışla”. **20**Üçüncüsü dedi: “Mən təzə
evlənmişəm, buna görə də gələ bilmə-
rəm”. **21**Qul qayıdıb bu şeyləri ağasına
bildirdi. O zaman ev yiyəsi qəzəblənib
quluna dedi: “Qaç, şəhərin küçə və
tinlərində olan yoxsulları, əlilləri,
korları və topalları buraya gətir”.
**22**Qul isə dedi: “Ağa, sənin əmrin

---

a **14:2** *Hidropos* – yəni bədənə su yığılması xəstəliyi.
b **14:5** *Oğlu* – bəzi əlyazmalarda *eşşəyi.*
**13:35** *Zəb. 118:26; Yer. 12:7; 22:5; 26:6* **14:5** *Mat. 12:11* **14:7-10** *Sül. 25:6-7*
**14:11** *Mat. 23:12; Luka 18:14*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 110



yerinə yetirildi, hələ artıq yer də
qalıb”. 23Ağası quluna dedi: “Get,
bütün yolları və çəpərləri gəz. Evim
dolsun deyə adamları gəlməyə vadar
et. 24Sizə bunu deyirəm: ilk dəvət
olunanların heç biri mənim ziyafə-
timdən dadmayacaq”».

### *Şagird olmağın qiyməti*

*(Mat. 10:37-38)*

25İsa ilə birlikdə böyük izdiham yol
gedirdi. İsa dönüb onlara dedi:
26«Kim Mənim yanıma gəlib ata-
anasını, arvad-uşaqlarını, bacı-qar-
daşlarını, hətta öz həyatını Məndən
üstün tutsa,[a] Mənim şagirdim ola
bilməz. 27Öz çarmıxını daşıyıb ardım-
ca gəlməyən kəs də Mənim şagirdim
ola bilməz.

28Sizlərdən kimsə bir qüllə tikmək
istəyirsə, əvvəlcə oturub onun xərclə-
rini hesablamaz ki, görsün onu qur-
tarmaq üçün pulu çatacaq ya yox?
29Çünki qüllənin təməlini qoyub işi
qurtara bilməsə, bunu görənlərin
hamısı onu ələ salıb deyəcək: 30“Bu
adam tikintiyə başlayıb qurtara bil-
mədi”.

31Yaxud da hansı padşah başqa
padşahla müharibəyə gedəndə üstünə
iyirmi min əsgərlə gələnə qarşı on min
əsgərlə durmağa qadir olmağı əvvəlcə
oturub götür-qoy eləməz? 32Əgər pad-
şah buna qadir deyilsə, o biri padşahın
hələ uzaqda olduğu vaxt elçilər
göndərib sülh müqaviləsi bağlamaq
istəyər. 33Eyni tərzdə sizdən hər biriniz
bütün əmlakından əl çəkməsə, Mənim
şagirdim ola bilməz.

34Duz yaxşı şeydir, amma əgər duz
öz dadını itirərsə, ona nə ilə dad verilə
bilər? 35O nə torpağa yarayar, nə də
peyinə. Onu çölə atarlar. Eşitməyə
qulağı olan eşitsin!»

### *İtmiş qoyun məsəli*

*(Mat. 18:12-14)*

15 1Bütün vergiyığanlar və günah-
karlar İsanı dinləmək üçün Ona
yaxınlaşırdılar. 2Fariseylər və ilahiy-
yatçılar isə «bu adam günahkarları
qəbul edir və onlarla yemək yeyir»
deyə deyinirdilər.

3Amma İsa onlara bu məsəli çək-
di: 4«Sizlərdən birinin yüz qoyunu
olsa və onlardan birini itirsə, doxsan
doqquzunu çöldə qoyub itmiş qo-
yunu tapanadək onu axtarmazmı?
5Tapanda isə onu sevinclə çiyinlərinə
qoyar. 6Evə gələndə öz dostlarını və
qonşularını çağırıb belə deyər: “Mə-
nimlə birlikdə sevinin, itmiş qoyu-
numu tapmışam!” 7Sizə bunu deyi-
rəm: beləcə də göydə tövbə edən bircə
günahkara görə tövbəyə ehtiyacı
olmayan doxsan doqquz saleh insan
üçün olduğundan daha çox sevinc
olacaq.

### *İtmiş pul məsəli*

8Yaxud on dirhəmi olan hansı bir
qadın bir dirhəmini itirsə, çıraq yan-
dırıb evi süpürərək onu tapanadək
diqqətlə axtarmaz? 9Tapanda öz rəfi-
qələrini və qonşularını çağırıb deyər:
“Mənimlə birlikdə sevinin, itirdiyim
dirhəmi tapmışam!” 10Sizə bunu de-
yirəm: Allahın mələklərinin önündə də
tövbə edən bir günahkara görə sevinc
olur».

---

a **14:26** *Ata-anasını, arvad-uşaqlarını, bacı-qardaşlarını, hətta öz həyatını Məndən üstün tutsa* – hərfi tərcümədə *ata-anasına, arvad-uşaqlarına, bacı-qardaşlarına, hətta öz həyatına nifrət etməsə.*
**14:27** *Mat. 16:24; Mark 8:34; Luka 9:23***1** **4:34-35** *Mat. 5:13; Mark 9:50* **15:1-2** *Luka 5:29-30*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 111



### *İtmiş oğul məsəli*

11İsa bunu da danışdı: «Bir adamın
iki oğlu var idi. 12Oğlanlardan kiçiyi
atasına dedi: "Ata! Var-dövlətindən
payıma düşəni mənə ver". Atası da
varını onların arasında bölüşdürdü.
13Bir neçə gün sonra kiçik oğul nəyi
vardısa, yığıb uzaq bir diyara yollandı.
Orada pozğun həyat sürüb var-
dövlətini heç-puç etdi. 14Oğlan hər
şeyini xərclədikdən sonra o ölkədə
böyük bir aclıq oldu. O korluq çək-
məyə başladı. 15Buna görə də oğlan
gedib o ölkənin sakinlərindən birinin
yanında iş tapdı. Bu adam onu öz
otlaqlarına donuz otarmağa göndərdi.
16Oğlan donuzların yediyi keçibuynu-
zu qabıqları ilə qarnını doydurmağa
şad olardı. Amma heç kim ona bir şey
vermirdi.
17Onda oğlan özünə gəlib dedi:
"Atamın nə qədər muzdlu işçisi var,
hamısının da doyunca yeməyə çörəyi
var. Mənsə burada acından ölürəm!
18Durub atamın yanına gedəcəyəm və
ona deyəcəyəm: ‹Ata, mən göyə[a] və
sənə qarşı günah etdim. 19Mən artıq
sənin oğlun adlanmağa layiq deyiləm.
Məni öz muzdlu işçilərinin biri kimi
qəbul et›". 20O durub öz atasının
yanına getdi.
Oğul hələ uzaqda ikən atası onu
gördü. Ona rəhmi gəldi və qaçıb onun
boynuna sarıldı və öpdü. 21Oğul dedi:
"Ata! Mən göyə və sənə qarşı günah
etdim. Mən artıq sənin oğlun adlan-
mağa layiq deyiləm". 22Atası isə öz
qullarına dedi: "Tez olun, ən gözəl
xalat gətirin və onu geyindirin. Bar-
mağına üzük və ayaqlarına çarıq taxın.
23Kökəldilmiş dananı gətirin, kəsin:
gəlin yeyib-şadlanaq! 24Çünki bu
oğlum ölmüşdü, yenə həyata qayıtdı.
O itmişdi, tapıldı". Beləliklə, şadlıq
etməyə başladılar.
25Atanın böyük oğlu isə tarlada idi.
Qayıdaraq evə yaxınlaşanda çalğı və
rəqs səsləri eşitdi. 26O, nökərlərdən
birini yanına çağırıb soruşdu: "Bu
nədir?" 27Nökər ona dedi: "Qardaşın
qayıdıb. Atan da onun sağ-salamat
qayıtmasına görə kökəldilmiş dananı
kəsib". 28Böyük oğul isə hirsləndi və
içəri girmək istəmədi. Atası bayıra
çıxıb ona yalvardı. 29Amma o, atasına
belə cavab verdi: "Bax neçə ildir ki,
sənin üçün qul kimi işləyirəm. Heç
zaman sənin əmrindən çıxmamışam.
Amma mənə heç vaxt bir oğlağı belə,
qıymadın ki, dostlarımla şadlıq edim.
30Bu oğlunsa sənin bütün varını fahişə
qadınlara sərf edib. Amma o qayı-
danda sən onun üçün kökəldilmiş
dananı kəsdin". 31Atası isə ona dedi:
"Oğlum, axı sən həmişə mənimləsən və
bütün varım sənindir. 32Lakin sevin-
mək və şadlanmaq lazımdır. Çünki
sənin bu qardaşın ölmüşdü, həyata
qayıtdı. O itmişdi, tapıldı!"»

### *Fərasətli idarəçi məsəli*

16 1İsa şagirdlərə bunları danışdı:
«Varlı bir adamın idarəçisi var
idi. Ona xəbər çatdırıldı ki, idarəçi
onun əmlakını israf edir. 2Varlı adam
onu yanına çağırıb dedi: "Bu nədir,
sənin haqqında mən nələr eşidirəm?
Mənə idarəçiliyinin hesabatını ver.
Sən artıq idarəçi ola bilməzsən".
3İdarəçi öz-özünə dedi: "Mən nə
edəcəyəm? Ağam idarəçiliyi əlimdən
alır. Torpaq belləməyə gücüm yoxdur,
dilənməkdən də utanıram. 4İşdən

a **15:18** *Göyə* – yəni Allaha.

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 112



qovulanda məni öz evlərinə qəbul
etsinlər deyə nə edəcəyimi bilirəm”.
5Ona görə də öz ağasına borclu
olanları bir-bir çağırıb birincisinə
dedi: “Mənim ağama nə qədər
borclusan?” 6O “yüz bat[a] zeytun yağı”
dedi. İdarəçi ona dedi: “Öz qəbzini
götür, otur və tez yaz: əlli”. 7Sonra o
birisinə dedi: “Bəs sənin nə qədər
borcun var?” O cavab verdi: “Yüz
kor[b] buğda”. İdarəçi ona dedi: “Öz
qəbzini götür və yaz: səksən”.
8Ağası haqsızlıq edən idarəçini
fərasətli hərəkət etdiyinə görə təriflədi.
Çünki bu dövrün övladları öz nəsilləri
ilə münasibətlərində nur övladların-
dan daha fərasətlidir. 9Mən sizə bunu
deyirəm: haqsız qazanc olan sərvətlə[c]
özünüzə dostlar qazanın ki, bu sərvət
yox olduqda siz əbədi məskənlərə
qəbul olunasınız.
10Ən balaca bir işdə sadiq olan kəs
böyük işdə də sadiqdir, ən balaca bir
işdə haqsız olansa böyük işdə də
haqsızdır. 11Beləliklə, əgər siz haqsız
sərvətdən istifadə etməkdə sadiq
olmadınızsa, əsl var-dövləti sizə kim
əmanət edər? 12Əgər başqasının ma-
lından istifadə etməkdə sadiq olma-
dınızsa, öz malınızı sizə kim verər?
13Heç bir nökər iki ağaya qulluq edə
bilməz. Çünki ya birinə nifrət edib o
birisini sevəcək ya da birinə bağlı qalıb
o birisinə isə xor baxacaq. Siz həm
Allaha, həm də sərvətə[d] qulluq edə
bilməzsiniz».
14Fariseylər pulpərəst olduqları
üçün bütün bu sözləri eşidib İsaya
istehza ilə baxdılar. 15İsa da onlara
belə dedi: «İnsanların qarşısında
özünüzü saleh göstərən sizsiniz, amma
Allah sizin ürəyinizi bilir. Çünki
insanlar arasında uca tutulan şey
Allah qarşısında iyrənclikdir.
16Qanun və Peyğəmbərlər Yəhya-
nın gəlişinə qədər idi. O vaxtdan bəri
Allahın Padşahlığının Müjdəsi yayılır
və hər kəs oraya zorla girməyə çalışır.
17Amma göyün və yerin keçib getməsi
Qanundan bir nöqtənin düşməsindən
daha asandır.
18Arvadını boşayıb başqası ilə
evlənən hər kəs zina edir. Ərindən
boşanmış qadınla evlənən də zina edir.

### *Varlı və yoxsul məsəli*

19Varlı bir adam var idi. O, tünd
qırmızı və incə kətandan paltar
geyərdi və hər gün cah-calal içində kef
edərdi. 20Bütün bədəni yaralı olan
Lazar adlı yoxsul bir adam da var idi.
O, varlı adamın qapısı ağzına gətirilib
uzanmışdı. 21Lazar varlı adamın süf-
rəsindən tökülən qırıntılarla qarnını
doydurmaq arzusunda idi. İtlər də
gəlib onun yaralarını yalayırdı.
22Bir gün yoxsul adam öldü və
mələklər onu İbrahimin qucağına
apardı. Varlı adam da öldü və dəfn
edildi. 23Varlı adam ölülər diyarında
iztirab çəkəndə gözlərini qaldırıb
uzaqda İbrahimi və onun qucağında
Lazarı gördü. 24O uca səslə dedi: “Ey
İbrahim ata, mənə rəhm et! Lazarı
göndər, barmağının ucunu suya ba-
tırıb mənim dilimi sərinlətsin, çünki
mən bu alov içində əzab çəkirəm”.
25Lakin İbrahim dedi: “Oğlum, yadı-
na sal ki, sən öz həyatında yaxşı
şeyləri, Lazar isə pis şeyləri almışdır.

a **16:6** *Yüz bat* – təqribən 3950 litr.
b **16:7** *Yüz kor* – təqribən 39 500 litr.
c **16:9** *Sərvət* – arami dilində *mamon.*
d **16:13** *Sərvət* – arami dilində *mamon.*

**16:13** *Mat. 6:24* **16:16** *Mat. 11:12-13* **16:17** *Mat. 5:18* **16:18** *Mat. 5:32; 19:19; Mark 10:11-12;* **16:18** *1Kor. 7:10-11*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 113



İndi isə o, təsəlli tapır, amma sən əzab
çəkirsən. 26Üstəlik, sizinlə bizim
aramıza böyük bir uçurum qoyul-
muşdur ki, nə buradan sizin tərəfinizə
keçmək istəyənlər keçə bilir, nə də
oradan bizim yanımıza gələ bilirlər”.

27Varlı adam dedi: “Ata, elə isə
yalvarıram sənə, Lazarı atamın evinə
göndər. 28Çünki beş qardaşım var.
Qoy onlara xəbərdarlıq etsin ki, onlar
da bu iztirab yerinə gəlməsinlər”.
29İbrahim ona dedi: “Onlarda Musa-
nın və Peyğəmbərlərin sözləri var. Qoy
onlara qulaq assınlar”. 30Varlı adam-
sa dedi: “Xeyr, İbrahim ata! Əgər
ölülərdən biri onların yanına gəlsə,
onlar tövbə edərlər”. 31Onda İbrahim
ona dedi: “Əgər onlar Musaya və
Peyğəmbərlərə qulaq asmırlarsa, ölü-
lərdən biri dirilsə belə, inanmazlar”».

### *Günah, iman və vəzifə*

*(Mat. 18:6-7; Mark 9:42)*

17 1İsa şagirdlərinə belə dedi:
«İnsanları pis yola çəkən şeylər
mütləq olur. Amma vay o adamın
halına ki, bunların baisidir! 2Bu
kiçiklərdən birini pis yola çəkmək-
dənsə öz boynuna böyük bir dəyirman
daşı asıb dənizə atılmaq onun üçün
daha yaxşı olar. 3Özünüzə fikir verin.
Əgər qardaşın sənə qarşı günah
edərsə, ona xəbərdarlıq et. Əgər o
tövbə edərsə, onu bağışla. 4Əgər gündə
yeddi dəfə sənə qarşı günah etsə və
gündə yeddi dəfə yanına gəlib sənə
“tövbə edirəm” deyərsə, onu bağışla».

5Həvarilər Rəbbə dedləri: «İmanı-
mızı artır!» 6Rəbb onlara belə dedi:
«Bir xardal toxumu qədər imanınız
olsaydı, bu tut ağacına “Kökündən çıx
və dənizdə əkil!” deyərdiniz, o da sizin
sözünüzə baxardı.

7Sizlərdən hansı biriniz cütçülük və
yaxud çobanlıq edən bir qula tarladan
qayıdanda “tez ol, gəl süfrəyə otur”
deyər? 8Əksinə, ona “axşam yeməyimi
hazırla və qurşanıb mənə xidmət et ki,
mən yeyib-içim, sonra da sən özün ye-
iç” deməzmi? 9Əmrlərini yerinə yetir-
diyi üçün o, qula təşəkkür edərmi?
10Beləcə siz də sizə əmr olunanların
hamısını yerinə yetirəndən sonra
deyin: “Biz dəyərsiz qullarıq, çünki
görməli olduğumuz işləri etmişik”».

### *On cüzamlının şəfası*

11İsa Yerusəlimə doğru yolunu
davam edərkən Samariya ilə Qalileya
arasındakı sərhəddən keçirdi. 12Kənd-
lərin birinə girəndə Onu on nəfər
cüzamlı kişi qarşıladı. Onlar uzaqda
durub 13ucadan çığırdılar: «İsa, Us-
tad, bizə rəhm et!» 14İsa onları görüb
«gedin, özünüzü kahinlərə göstərin»
dedi. Onlar yol gedə-gedə pak oldular.
15Onlardan biri isə sağaldığını görən-
də uca səslə Allahı izzətləndirərək
qayıtdı. 16O üzüstə İsanın ayaqlarına
düşərək Ona təşəkkür etdi. Bu adam
Samariyalı idi. 17Onda İsa dedi: «Pak
olanlar on nəfər deyildimi? Bəs qalan
doqquz adam haradadır? 18Bu yadel-
lidən savayı geri dönüb Allaha izzət
verən olmadımı?» 19Sonra o adama
dedi: «Ayağa qalx, get. İmanın səni
xilas etdi».

### *Allahın Padşahlığı nə zaman gələcək?*

20Fariseylər İsadan «Allahın Pad-
şahlığı nə zaman gələcək?» deyə
soruşanda İsa onlara cavab verdi:

---

**17:3** *Mat. 18:15* **17:4** *Mat. 18:21-22* **17:5-6** *Mat. 17:20* **17:14** *Lev. 14:1-32*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 114



«Allahın Padşahlığı müşahidə ilə
gəlməz. 21Adamlar “bax, o buradadır”
yaxud “oradadır” deməyəcəklər, çünki
budur, Allahın Padşahlığı sizin daxi-
linizdədir».

22İsa şagirdlərə də belə dedi: «Elə
günlər gələcək ki, Bəşər Oğlunun
günlərindən birini görməyi arzulaya-
caqsınız, amma görməyəcəksiniz.
23Adamlar sizə “bax, O oradadır”
yaxud “bax, buradadır” deyəcək.
Gedib onların arxasınca düşməyin!
24Çünki şimşək göyün bir kənarında
çaxıb o biri kənarına qədər necə
parlayırsa, Bəşər Oğlu da Öz günündə
elə olacaq. 25Amma əvvəlcə O, çox
əzab çəkməli və indiki nəslin adamları
tərəfindən rədd olunmalıdır.

26 Nuhun günlərində necə idisə,
Bəşər Oğlunun günlərində də elə
olacaq. 27Nuhun gəmiyə girdiyi günə
qədər insanlar yeyib-içir, evlənir, ərə
gedirdi. Sonra daşqın gəlib hamısını
məhv etdi. 28Lutun günlərində də belə
idi: insanlar yeyib-içir, alıb-satır, əkir,
tikirdi. 29Lakin Lut Sodomdan çıxdığı
gün göydən od və kükürd yağdı və
hamısını məhv etdi. 30Bəşər Oğlunun
zühur edəcəyi gündə də belə olacaq.

31O gündə özü damda, əşyası isə
evin içində olan adam onları götürmək
üçün aşağı enməsin. Eləcə də tarlada
olan geri qayıtmasın. 32Lutun arva-
dını yadınıza salın! 33Kim canını
qorumaq istəsə, onu itirəcək, amma
kim canını itirsə, onu yaşadacaq.
34Sizə deyirəm: o gecə bir yataqda
olan iki nəfərdən biri götürüləcək, o
birisi isə qalacaq. 35Birlikdə dən
üyüdən iki qadından biri götürüləcək,
o birisi isə qalacaq». 36[a]

37Ona müraciət edib dedilər: «Ya
Rəbb, bu hadisələr harada olacaq?» O
isə onlara dedi: «Leş haradadırsa,
kərkəslər də orada toplaşar».

### *Dul qadın və ədalətsiz hakim məsəli*

18 1İsa şagirdlərinə daim dua
etmək və heç ruhdan düşmə-
mək lazım olduğu barədə bir məsəl
çəkdi. 2O dedi: «Bir şəhərdə Allahdan
qorxmayan və adamlara hörmət
etməyən bir hakim var idi. 3Elə həmin
şəhərdə bir dul qadın da var idi. Qadın
hey onun yanına gələrək deyərdi:
“Rəqibimlə olan işimdə mənim haq-
qımı qoru”. 4Amma hakim bir müddət
bunu etmək istəmədi, sonra isə öz-
özünə dedi: “Hərçənd mən nə Allah-
dan qorxur, nə də adamlara hörmət
edirəm, 5bu qadın mənim zəhləmi
tökdüyü üçün onun haqqını qoruyum
ki, bir də gəlib baş-qulağımı apar-
masın”». 6Rəbb sözünə belə davam
etdi: «Ədalətsiz hakimin nə dediyini
dinləyin. 7Məgər Allah Öz seçdik-
lərini, gecə-gündüz Ondan imdad
istəyənlərin haqqını qorumayacaqmı?
Onları çox gözlədəcəkmi? 8Sizə bunu
deyirəm: tezliklə onların haqqını
qoruyacaq. Bəs Bəşər Oğlu gələndə
yer üzündə iman tapacaqmı?»

### *Farisey və vergiyığan məsəli*

9Özlərinin saleh olduğuna güvənib
başqalarına xor baxan bəziləri üçün də

a **17:35-36** *Qalacaq* – bəzi əlyazmalarda *qalacaq.* **36** *Tarladakı iki nəfərdən biri götürüləcək, o birisi isə qalacaq* (Mat. 24:40).

**17:21** *Mat. 24:23; Mark 13:21* **17:23-24** *Mat. 24:23,26-27; Mark 13:21*
**17:26** *Yar. 6:5-8* **17:26-27** *Mat. 24:37-39* **17:27** *Yar. 7:6-24* **17:28-29** *Yar. 18:20-19:25*
**17:31** *Mat. 24:17-18; Mark 13:15-16* **17:32** *Yar. 19:26* **17:33** *Mat. 10:39; 16:25; Mark 8:35;*
**17:33** *Luka 9:24; Yəh. 12:25* **17:34-35** *Mat. 24:40-41* **17:37** *Əyy. 39:30; Mat. 24:28*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 115



İsa belə bir məsəl çəkdi: 10«Biri
farisey, digəri isə vergiyığan olan iki
nəfər dua etmək üçün məbədə girdi.
11Farisey ayaq üstə durub öz-özünə
belə dua edirdi: "Ya Allah, Sənə
şükürlər olsun ki, mən başqaları kimi
soyğunçu, haqsız, zinakar ya da bu
vergiyığan kimi deyiləm. 12Həftədə iki
dəfə oruc tuturam, bütün qazandığı-
mın onda birini verirəm". 13Vergiyı-
ğan isə uzaqda durub gözlərini göyə
qaldırmağa belə, cəsarət etmirdi,
amma sinəsinə vurub hey deyirdi: "Ya
Allah! Mən günahkara rəhm et!"
14Sizə deyirəm ki, o farisey yox,
vergiyığan evinə saleh sayılaraq getdi.
Çünki özünü yüksəldən hər kəs aşağı
tutulacaq, özünü aşağı tutansa yük-
səldiləcək».

### *İsa uşaqlara xeyir-dua verir*

*(Mat. 19:13-15; Mark 10:13-16)*

15Adamlar körpələri də İsanın
yanına gətirirdilər ki, İsa onlara
toxunsun. Bunu görən şagirdlərsə
onlara qadağan etdilər. 16Amma İsa
uşaqları yanına çağırıb dedi: «Uşaq-
ları buraxın, qoy Mənim yanıma
gəlsinlər! Onlara mane olmayın! Çünki
Allahın Padşahlığı belələrinə məxsus-
dur. 17Sizə doğrusunu deyirəm: kim
Allahın Padşahlığını bir uşaq kimi
qəbul etməsə, oraya əsla daxil ola
bilməz».

### *Var-dövlət və Allahın Padşahlığı*

*(Mat. 19:16-30; Mark 10:17-31)*

18Rəhbərlərdən biri İsadan soruş-
du: «Ey yaxşı Müəllim, mən nə et-
məliyəm ki, əbədi həyatı irs olaraq
alım?» 19İsa ona dedi: «Mənə niyə
yaxşı deyirsən? Tək Allahdan başqa
yaxşısı yoxdur. 20Onun əmrlərini
bilirsən: "Zina etmə. Qətl etmə.
Oğurluq etmə. Yalandan şahidlik
etmə. Ata-anana hörmət et"». 21Bu
adamsa dedi: «Bunların hamısına
gəncliyimdən bəri riayət edirəm».
22İsa bunu eşidib ona dedi: «Sənin bir
şeyin çatışmır: nəyin varsa, satıb
yoxsullara payla. Onda göylərdə
xəzinən olacaq. Sonra qayıt, Mənim
ardımca gəl». 23Amma bu sözləri
eşitdikdə həmin adamı dərin kədər
bürüdü, çünki çox varlı idi.

24İsa onun dərindən kədərləndiyini
görəndə dedi: «Var-dövləti olanların
Allahın Padşahlığına daxil olması nə
qədər çətindir! 25Doğrudan da, də-
vənin iynə gözündən keçməsi varlı
adamın Allahın Padşahlığına daxil
olmasından asandır». 26Bunları eşi-
dənlər dedilər: «Elə isə, kim xilas ola
bilər?» 27O isə dedi: «İnsan üçün qeyri-
mümkün olan, Allah üçün mümkün-
dür».

28Peter isə dedi: «Bax biz hər şeyi
qoyub Sənin ardınca gəlmişik». 29İsa
onlara dedi: «Sizə doğrusunu deyirəm:
Allahın Padşahlığı uğrunda ya evini
ya arvadını ya bacı-qardaşlarını ya
ata-anasını və yaxud uşaqlarını atan
elə bir kəs yoxdur ki, 30bu dövrdə
bundan neçə qat artıq, gələcək dövrdə
isə əbədi həyat almasın».

### *İsa ölüb-diriləcəyi barədə üçüncü dəfə xəbər verir*

*(Mat. 20:17-19; Mark 10:32-34)*

31İsa On İki şagirdi kənara çəkib
onlara dedi: «Bax Yerusəlimə qalxırıq,
Bəşər Oğlu üçün peyğəmbərlər vasitə-
silə yazılanların hamısı tam yerinə
yetəcək. 32Çünki O, başqa millətlərə

**18:14** *Mat. 23:12; Luka 14:11* **18:20** *Çıx. 20:12-16; Qanun. 5:16-20*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 116



təslim ediləcək. Onlar Onu ələ salıb təhqir edəcək, Ona tüpürəcək 33və qamçılayıb öldürəcəklər. O, üçüncü gün diriləcək». 34Amma şagirdlər bu sözlərdən heç bir şey başa düşmədilər. Bu sözlər onlar üçün gizli saxlandı və onlar deyilənləri anlamırdılar.

### *Kor adamın gözləri açılır*

*(Mat. 20:29-34; Mark 10:46-52)*

35İsa Yerixoya yaxınlaşanda bir kor adam yol kənarında oturub dilənirdi. 36Yanından çoxlu adamın keçdiyini eşitdikdə soruşdu: «Nə olub?» 37Ona xəbər verdilər: «Nazaretli İsa buradan keçir». 38Onda o qışqırdı: «Ey Davud Oğlu İsa! Mənə rəhm elə!» 39Qabaqda gedənlər ona qadağan edib susdurmaq istəsələr də, o «Ey Davud Oğlu! Mənə rəhm elə!» deyə daha ucadan bağırdı. 40İsa dayanıb əmr etdi ki, onu yanına gətirsinlər. Adam yaxınlaşarkən İsa ondan soruşdu: 41«Nə istəyirsən, sənin üçün edim?» O dedi: «Ya Rəbb, gözlərim açılsın». 42İsa ona dedi: «Qoy gözlərin açılsın, imanın səni xilas etdi». 43Həmin an bu adamın gözləri açıldı və o, Allahı izzətləndirərək İsanın ardınca getdi. Bunu görən bütün xalq Allaha həmdlər etdi.

### *İsa ilə Zakkay*

19 1İsa Yerixoya daxil olub oradan keçirdi. 2Orada vergiyığanların rəisi olan Zakkay adlı varlı bir adam var idi. 3İsanın kim olduğunu görməyə can atırdı. Amma balacaboy olduğuna görə izdihamın arasından Onu görə bilmirdi. 4İsanı görmək üçün irəliyə qaçıb bir fironənciri ağacına dırmaşdı. Çünki İsa oradan keçməli idi. 5İsa o yerə çatdıqda yuxarı baxıb onu gördü və ona dedi: «Ey Zakkay, tez aşağı düş. Bu gün Mən sənin evində qalmalıyam». 6O tez aşağı düşüb İsanı sevinclə qəbul etdi. 7Bütün xalq bunu gördükdə deyinməyə başladı: «Gedib günahkar bir kişinin qonağı oldu!» 8Zakkay isə ayağa qalxıb Rəbbə belə dedi: «Ya Rəbb, əmlakımın yarısını yoxsullara verərəm və kimdən haqsızlıqla bir şey almışamsa, ona dördqat qaytaracağam». 9İsa ona dedi: «Bu gün bu evə xilas gəldi, çünki bu adam da İbrahimin oğludur. 10Çünki Bəşər Oğlu itmişləri axtarıb xilas etmək üçün gəlmişdir».

### *Əmanət pul məsəli*

*(Mat. 25:14-30)*

11Onlar bu şeyləri dinləyərkən İsa bir məsəl də çəkdi. Çünki O, Yerusəlimə yaxınlaşmışdı və onlar elə düşünürdülər ki, Allahın Padşahlığı dərhal üzə çıxacaq. 12İsa belə dedi: «Əsilzadələrdən olan bir nəfər padşah təyin olunub geri dönmək üçün uzaq bir ölkəyə yola düşdü. 13Getməmişdən əvvəl qullarından on nəfəri çağırdı və onlara on mina[a] pul verib dedi: “Mən gələnədək bunlarla ticarət et”. 14Lakin əhalisi bu adama nifrət etdi və onun ardınca elçilər göndərib dedi: “Bu adamın üzərimizdə padşah olmasını istəmirik”.

15O, padşah təyin olunub qayıdanda pul verdiyi həmin qulları yanına çağırtdırdı və nə qazandıqlarını öyrənmək istədi. 16Birincisi gəlib dedi: “Ağa, sənin bir minan on mina da qazandırdı”. 17Ağası ona dedi: “Afərin, yaxşı qulum! Ən kiçik bir işdə mənə sadiq olduğun üçün on şəhərin

a **19:13** *Mina* – 100 dirhəmə bərabər, 100 günlük əmək haqqı idi.

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 117



idarəsini üzərinə götür”. 18İkincisi
gəlib dedi: “Ağa! Sənin bir minan beş
mina da qazandırdı”. 19Ağası ona da
“sən də beş şəhərə hakim ol” dedi.

20Bir başqası gəlib dedi: “Ağa!
Budur sənin minan, onu dəsmala
büküb saxlayırdım. 21Çünki səndən
qorxurdum, sən qəddar bir adamsan,
özün qoymadığını götürürsən və özün
əkmədiyini biçirsən”. 22Ağası ona
dedi: “Ay pis qul, səni öz ağzından
çıxan sözlərlə mühakimə edəcəyəm!
Mənim qəddar bir adam olduğumu,
özüm qoymadığımı götürdüyümü və
özüm əkmədiyimi biçdiyimi bilirdin-
mi? 23Bəs onda nə üçün mənim
pulumu sərraflara vermədin ki, mən
qayıdanda onu faizlə geri alım?”
24Sonra ətrafında olanlara dedi:
“Əlindəki minanı ondan alın və on
minası olana verin!” 25Ona dedilər:
“Ay ağa, axı artıq onun on minası
var!” 26O, sözünə belə davam etdi:
“Sizə deyirəm: kimin varıdırsa, daha
çox veriləcək, kimin yoxudursa, əlində
olan da alınacaq. 27Mənim onların
padşahı olmağımı istəməyən düşmən-
lərimi isə buraya gətirin və mənim
gözümün qabağında qılıncdan keçi-
rin!”»

### *İsanın Yerusəlimə girməsi*

*(Mat. 21:1-11; Mark 11:1-11; Yəh. 12:12-19)*

28İsa bu sözləri deyib qabaqda
yeriyərək Yerusəlimə doğru qalxdı.
29Zeytun dağı adlanan dağın yama-
cındakı Bet-Faqe ilə Bet-Anyaya
yaxınlaşarkən şagirdlərdən ikisini
göndərərək 30dedi: «Qarşınızdakı
kəndə gedin. Oraya girəndə hələ heç
kəsin minmədiyi, bağlanmış bir sıpa
tapacaqsınız. Onu açıb buraya gətirin.
31Kim sizdən soruşsa: “Nə üçün sıpanı
açırsınız?”, ona “bu sıpa Rəbbə
lazımdır” deyərsiniz».

32Göndərilənlər gedib hər şeyin
Onun dediyi kimi olduğunu gördülər.
33Onlar sıpanı açanda onun sahibləri
onlara dedi: «Bu sıpanı nə üçün açır-
sınız?» 34Onlar cavab verdilər: «Bu
sıpa Rəbbə lazımdır». 35Sıpanı İsanın
yanına gətirdilər və öz paltarlarını
sıpanın üstünə sərib İsanı onun belinə
mindirdilər. 36O irəli gedərkən in-
sanlar öz paltarlarını yola döşəyirdi.

37İsa Zeytun dağının aşağı düşən
yamacına yaxınlaşanda çoxlu şagird
gördükləri bütün möcüzələr üçün
sevinib uca səslə Allaha həmd etməyə
başladı. 38Onlar deyirdi:

«Rəbbin ismi ilə gələn Padşaha
alqış olsun!
Göydə sülh, ən ucalarda izzət
olsun!»

39İzdihamın arasından bəzi fariseylər
Ona dedilər: «Müəllim, şagirdlərinə
qadağan et!» 40Lakin İsa cavabında
onlara dedi: «Sizə bunu deyirəm ki,
əgər onlar sussa, daşlar dilə gələr!»

### *İsa Yerusəlim üçün ağlayır*

41İsa Yerusəlimə yaxınlaşanda ona
baxıb şəhər üçün ağladı. 42O dedi:
«Ah, kaş sən də bu gün sülhə aparan
yolu tanıyaydın! Amma bu yol hələlik
sənin nəzərindən gizlənib. 43Çünki
səni elə günlər gözləyir ki, düşmən-
lərin səni sədlə əhatə edəcək, müha-
sirəyə alacaq və hər yerdən sıxış-
dıracaqlar. 44Səni də, qucağındakı
övladlarını da yerlə yeksan edəcəklər.
Daşını daş üstə qoymayacaqlar, çünki
Allahın sənə yaxınlaşdığı zamanı
anlamadın».

**19:26** *Mat. 13:12; Mark 4:25; Luka 8:18* **19:38** *Zəb. 118:26*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 118



***İsa satıcıları məbəddən qovur***

*(Mat. 21:12-17; Mark 11:15-19;*
*Yəh. 2:13-22)*

[45]İsa məbədə girib orada satıcılıq
edənləri qovmağa başladı. [46]Onlara
belə dedi:

«"Mənim evim dua evi olacaq"
deyə yazılıb. Amma siz onu quldur
yuvasına çevirmisiniz!»

[47]İsa hər gün məbəddə təlim öy-
rədirdi. Başçı kahinlər, ilahiyyatçılar
və xalqın nüfuzlu adamları Onu
öldürmək üçün yol axtarırdı, [48]amma
bunu necə edəcəklərini bilmirdilər.
Çünki bütün xalq Onu böyük diqqətlə
dinləyirdi.

***İsanın səlahiyyəti***

*(Mat. 21:23-27; Mark 11:27-33)*

20 [1]Günlərin birində İsa məbəddə
xalqa təlim öyrədir və Müjdəni
yayırdı. Başçı kahinlər, ilahiyyatçı-
larla ağsaqqallar yaxınlaşıb [2]Ona
dedilər: «De görək, Sən bu işləri hansı
səlahiyyətlə edirsən? Sənə bu səla-
hiyyəti kim verib?» [3]İsa onlara belə
cavab verdi: «Mən də sizə bir sual
verəcəyəm. Mənə deyin: [4]Yəhyanın
vəftizi göydən idimi, yoxsa insanlar-
dan?» [5]Onlarsa öz aralarında müza-
kirə edərək belə dedilər: «Əgər desək
"göydən", "Bəs nə üçün ona inanma-
dınız?" deyəcək. [6]Amma desək "insan-
lardan", bütün xalq bizi daşqalaq
edər. Çünki xalq Yəhyanın peyğəmbər
olmasına əmindir». [7]Axırda Ona
cavab verdilər: «Biz bilmirik haradan-
dır». [8]İsa da onlara dedi: «Bunları
hansı səlahiyyətlə etdiyimi Mən də sizə
demirəm».

***Pis bağbanlar məsəli***

*(Mat. 21:33-46; Mark 12:1-12)*

[9]İsa xalqa belə bir məsəl çəkməyə
başladı: «Bir adam üzüm bağı saldı və
bağı bağbanlara icarəyə verərək uzun
müddətə başqa ölkəyə getdi. [10]Məhsul
vaxtı çatanda bağbanların yanına bir
qul göndərdi ki, onlar üzüm bağının
məhsulundan bir qədərini ona ver-
sinlər. Lakin bağbanlar qulu döyərək
əliboş geri qaytardılar. [11]Bağ sahibi
başqa bir qul göndərdi, amma onlar
bunu da döyüb biabır etdilər və əliboş
geri qaytardılar. [12]O, üçüncüsünü də
göndərdi, amma onlar onu da yarala-
yıb qovdular. [13]Onda bağ sahibi dedi:
"Mən nə edim? Qoy öz sevimli oğlumu
göndərim, bəlkə ona hörmət edərlər".
[14]Amma bağbanlar onu gördükdə öz
aralarında danışıb dedilər: "Varis
budur. Gəlin onu öldürək ki, miras
bizə qalsın". [15]Beləcə onu bağdan
kənara çıxarıb öldürdülər. Beləliklə,
bağ sahibi onlara nə edəcək? [16]Gəlib
həmin bağbanları həlak edəcək və bağı
başqalarına verəcək». Bunu eşidənlər-
sə dedilər: «Qoy belə olmasın».

[17]Amma İsa onların gözlərinin içinə
baxıb dedi: «Bəs bu Yazının mənası
nədir?

"Bənnaların rədd etdiyi daş
Guşədaşı olub".

[18]Bu daşın üstünə yıxılan hər kəs
parçalanacaq, daşsa kimin üzərinə
düşərsə, onu əzəcək».

[19]İlahiyyatçılar və başçı kahinlər
başa düşdülər ki, İsa bu məsəli onlar
barədə söylədi. Ona görə də həmin an
Onu yaxalamaq üçün yol axtardılar,
lakin xalqdan qorxdular.

---

**19:46** *Yeş. 56:7; Yer. 7:11* **19:47-48** *Luka 21:37* **20:9** *Yeş. 5:1-7* **20:17** *Zəb. 118:22*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 119



### *Hər kəsin öz haqqı*

*(Mat. 22:15-22; Mark 12:13-17)*

**20**İsanı güdürdülər və yanına özlə-
rini dürüst insan kimi göstərən bir neçə
casus göndərdilər. Onu dediyi söz üstə
tutub valinin hökm və səlahiyyətinə
təslim etmək məqsədləri var idi.
**21**Onlar İsadan soruşdular: «Müəllim,
biz bilirik ki, Sən düz danışırsan, təlim
öyrədirsən və heç kimə tərəfkeşlik
etmirsən, lakin Allahın yolunu həqi-
qətə görə öyrədirsən. **22**Bizim üçün
qeysərə vergi verməyə icazə var ya
yox?» **23**Amma İsa onların hiyləsini
başa düşüb belə dedi:[a] **24**«Mənə bir
dinar göstərin. Onun üstündəki təsvir
və yazı kimindir?» Onlar cavab ver-
dilər: «Qeysərin». **25**İsa onlara dedi:
«Onda qeysərin haqqını qeysərə,
Allahın haqqını Allaha verin». **26**İsanı
xalq qarşısında söz üstə tuta bilmədilər
və Onun cavabına heyrət edib susdu-
lar.

### *Dirilmə haqqında sual*

*(Mat. 22:23-33; Mark 12:18-27)*

**27**Dirilmənin olmadığını iddia edən
sadukeylərdən bəzisi İsanın yanına
gəlib soruşdu: **28**«Müəllim, Musa bi-
zim üçün belə yazmışdır: “Əgər bir
adamın evli qardaşı övladsız ölsə, o
biri qardaş dul qalmış arvadı alıb ölən
qardaşın nəslini davam etdirsin”.
**29**Yeddi qardaş var idi. Birincisi bir
arvad aldı və övladsız öldü. **30**İkincisi
də,[b] **31**üçüncüsü də bu arvadla evləndi.
Beləcə yeddisi də özündən sonra övlad
qoymadan öldü. **32**Hamısından sonra
bu qadın da öldü. **33**Ölülər diriləndə bu
qadın onlardan hansının arvadı
olacaq? Çünki yeddi qardaşın yeddisi
də bu qadını almışdı».

**34**İsa onlara belə cavab verdi: «Bu
dövrün insanları evlənir və ərə gedir.
**35**Amma gələcək dövrə yetişməyə və
ölülər arasından dirilməyə layiq
sayılanlarsa nə evlənəcək, nə də ərə
gedəcək. **36**Artıq ölə də bilməzlər,
çünki mələklərə bənzəyirlər və dirilmə
övladları olduqlarına görə onlar Al-
lahın övladlarıdır. **37**Amma ölülərin
dirildiyini Musa da kolla bağlı əh-
valatda Rəbbi “İbrahimin Allahı,
İshaqın Allahı və Yaqubun Allahı”
adlandıraraq göstərib. **38**Allah ölülərin
deyil, dirilərin Allahıdır. Çünki Onun
yanında hamı diridir».

**39**İlahiyyatçılardan bəzisi buna
cavab olaraq dedi: «Müəllim, Sən nə
gözəl dedin». **40**Daha İsadan bir şey
soruşmağa cəsarət etmədilər.

### *Məsih kimin Oğludur?*

*(Mat. 22:41-46; Mark 12:35-37)*

**41**Amma İsa onlara dedi: «Niyə
Məsih Davudun Oğludur deyirlər? **42-**
**43**Axı Davud özü Zəbur kitabında
“Rəbb mənim Ağama dedi:
‹Mən düşmənlərini ayaqlarının
altına kətil kimi salanadək
Sağımda otur›”
deyib. **44**Deməli, Davud Ona “Ağa”
deyə müraciət edir. O necə Davudun
oğlu ola bilər?»

### *İsa ilahiyyatçıları məzəmmət edir*

*(Mat. 23:5-7; Mark 12:38-40)*

**45**Bütün xalq bu sözləri dinləyəndə
İsa Öz şagirdlərinə dedi: **46**«İlahiy-

---

a **20:23** *dedi* – bəzi əlyazmalarda *dedi: «Məni niyə sınağa çəkirsiniz?* (Mat. 22:18; Mark 12:15).
b **20:30** *İkincisi də* – bəzi əlyazmalarda *İkincisi də bu arvadı aldı, amma övladsız öldü.*
**20:27-28** *Qanun. 25:5; Həv. 23:8* **20:37** *Çıx. 3:6* **20:42-43** *Zəb. 110:1*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 120



yatçılardan özünüzü gözləyin. Onlar uzun paltarlarda gəzməyi xoşlayar, bazar meydanlarında salam almağı və sinaqoqlarda baş kürsüləri, ziyafətlərdə yuxarı başı tutmağı sevərlər. **47**Onlar dul qadınların evlərini yeyib-dağıdar və özlərini göstərmək üçün uzun-uzadı dua edərlər. Bu adamların cəzası daha ağır olacaq».

### *Dul qadının ianəsi*

*(Mark 12:41-44)*

**21** **1**İsa başını qaldırıb baxdı və məbədin ianə qutusuna ianələri atan varlı adamları gördü. **2**Bir kasıb dul qadını da gördü. O, ianə qutusuna iki lepton[a] pul atdı. **3**İsa dedi: «Sizə həqiqəti deyirəm: bu kasıb dul qadın hamıdan çox pul atdı. **4**Çünki onların hamısı varlarının artıqlığından ianə[b] verdilər, bu qadınsa kasıblığına baxmayaraq, dolanmaq üçün əlində nə varsa, hamısını verdi».

### *Axır zamanın əlamətləri*

*(Mat. 24:1-28; Mark 13:1-23)*

**5**Bəzi adamlar məbədin gözəl daşlar və Allaha həsr olunmuş təqdimlərlə bəzəndiyini söyləyərkən İsa dedi: **6**«Elə günlər gələcək ki, burada gördüyünüz şeylərin daşı daş üstündə qalmayacaq, hamısı yerlə yeksan olacaq».

**7**Ondan soruşdular: «Müəllim, bəs bu dediklərin nə vaxt baş verəcək? Bunlar baş vermək üzrə olanda hansı əlamətlər olacaq?» **8**İsa dedi: «Ehtiyatlı olun, aldanmayın! Çünki Mənim adımla çox adam gəlib "mən Oyam" və "vaxt yaxınlaşıb" deyəcək. Onların ardınca getməyin. **9**Müharibələr və üsyanlar barədə eşidəndə təlaşa düşməyin. Çünki bunlar əvvəlcədən baş verməlidir, amma hər şeyin axırı tez gəlməyəcək».

**10**Sonra onlara belə dedi: «Millət millətə, padşahlıq padşahlığa qarşı çıxacaq. **11**Güclü zəlzələlər, yerbəyer aclıq və vəba, dəhşətli hadisələr və göydən böyük əlamətlər olacaq.

**12**Amma bütün bu hadisələrdən əvvəl Mənim adıma görə sizi yaxalayacaqlar, təqib edəcəklər, sinaqoqlara və zindanlara təslim edəcəklər, padşahların və valilərin qarşısına aparacaqlar. **13**Bu işlər şəhadət etdiyiniz vaxt olacaq. **14**Buna görə də ürəyinizdə qərara alın ki, özünüzü necə müdafiə edəcəyiniz barədə əvvəlcədən düşünməyəsiniz. **15**Çünki Mən sizə elə danışıq qabiliyyəti və hikmət verəcəyəm ki, sizə qarşı çıxanların heç biri nə ona etiraz edə biləcək, nə də ona qarşı dura biləcək. **16**Hətta ata-analarınız, bacı-qardaşlarınız, qohumlarınız və dostlarınız sizi təslim edəcək və bəzinizi edam etdirəcək. **17**Mənim adıma görə hamı sizə nifrət edəcək. **18**Amma başınızdan bir tük belə, əskik olmayacaq. **19**Dayanıb dözməklə canlarınızı qurtarın.

**20**Qoşunların Yerusəlimi mühasirə etdiyini görəndə bilin ki, onun viranə qalacağı vaxt yaxınlaşmışdır. **21**O zaman Yəhudeyada olanlar dağlara qaçsın, şəhərdə olanlar oradan çıxsın və ətrafda olanlar oraya girməsin. **22**Çünki bu günlər qisas günləridir ki, bütün yazılanlar yerinə yetsin. **23**Həmin günlər hamilələrin və körpə

---

a **21:2** *Lepton* – ən kiçik pul vahidi.

b **21:4** *İanə* – bəzi əlyazmalarda *Allaha ianə.*

**21:12-17** *Mat. 10:17-22* **21:14-15** *Luka 12:11-12* **21:22** *Huşə 9:7*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 121



əmizdirənlərin vay halına! Çünki yer
üzünün başına böyük fəlakət gələcək
və bu xalq qəzəbə uğrayacaq. 24Onlar
qılıncdan keçiriləcək və bütün millətlər
arasına əsirliyə aparılacaq. Başqa millətlərin vaxtı tamam olanadək Yerusəlim başqa millətlərin ayağı altında tapdalanacaq.

***Bəşər Oğlunun zühuru***

*(Mat. 24:29-35; Mark 13:24-31)*

25Günəşdə, ayda və ulduzlarda
əlamətlər görünəcək. Yer üzündə dənizin və dalğaların gurultusundan millətlər çaşqınlıq içində qalıb əzab
çəkəcək. 26İnsanlar qorxudan və dünya üzərinə gələn fəlakətləri gözləməkdən huşunu itirəcək, çünki səma cisimləri lərzəyə gələcək. 27O zaman onlar
Bəşər Oğlunun bulud içində qüdrət və
böyük izzətlə gəldiyini görəcək. 28Bu
hadisələr yerinə yetməyə başladıqda başınızı qaldırın və yuxarı baxın, çünki satınalınmanız yaxınlaşır».
29İsa onlara bir məsəl də çəkdi:
«Əncir ağacına və bütün ağaclara baxın:
30onların yarpaqlandığını görəndə bilirsiniz ki, yay fəsli artıq yaxındır.
31Eləcə siz də bu şeylərin baş verdiyini görəndə bilin ki, Allahın Padşahlığı
yaxınlaşıb. 32Sizə doğrusunu deyirəm:
bu nəsil ömrünü sona çatdırmazdan
əvvəl bütün bunlar baş verəcək. 33Yer
və göy keçib-gedəcək, amma Mənim sözlərim əsla keçib-getməyəcək.
34Özünüzə fikir verin! Qoy ürəkləriniz eyş-işrət və sərxoşluqla, bu həyatın qayğıları ilə yüklənməsin. Qoy qiyamət günü[a] bir tələ kimi üzərinizə
qəflətən gəlməsin. 35Çünki o gün yer
üzündə yaşayanların hamısının üstünə
gələcək. 36Ona görə də baş verəcək bütün bu fəlakətlərdən qaçıb Bəşər Oğlunun önündə dura bilmək üçün hər an dua edərək ayıq olun».
37İsa gündüzlər məbəddə təlim öyrədirdi, gecələri isə oradan çıxaraq Zeytun dağı adlanan dağda keçirirdi.
38Səhər tezdən bütün xalq İsanı dinləmək üçün Onun yanına, məbədə gəlirdi.

***İsanı öldürmək üçün sui-qəsd hazırlanır***

*(Mat. 26:1-5; Mark 14:1-2; Yəh. 11:47-53)*

22 1Pasxa adlanan Mayasız Çörək
bayramı yaxınlaşırdı. 2Başçı
kahinlər və ilahiyyatçılar İsanı öldürmək üçün bir yol axtarırdılar, çünki xalqdan qorxurdular.

***Yəhudanın xəyanəti***

*(Mat. 26:14-16; Mark 14:10-11; Yəh. 13:18-30)*

3O zaman Şeytan On İki şagirddən biri olan İskaryot adlanan Yəhudanın
ürəyinə girdi. 4O da gedib başçı kahinlər və məbəd mühafizəçilərinin başçıları ilə danışdı ki, İsanı necə
onlara təslim etsin. 5Onlar sevindilər
və ona pul verməyə razı oldular. 6Buna söz verən Yəhuda İsanı xalqdan gizlin onlara təslim etmək üçün fürsət axtarmağa başladı.

***Axırıncı şam yeməyi***

*(Mat. 26:17-30; Mark 14:12-26; Yəh. 13:21-30; 1Kor. 11:23-25)*

7Pasxa quzusunun qurban kəsilməli olduğu Mayasız Çörək bayramı günü

a **21:34** *Qiyamət günü* – hərfi tərcümədə *o gün.*

**21:25** *Yeş. 13:10; Yez. 32:7; Yoel 2:31; Vəhy 6:12-13* **21:27** *Dan. 7:13; Vəhy 1:7*
**21:37** *Luka 19:47-48* **22:1** *Çıx. 12:1-27*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 122



gəldi. 8İsa Peter və Yəhyanı qabaqca
göndərib «gedin, Pasxa yeməyimiz
üçün bizə hazırlıq görün» dedi.
9Onlarsa İsadan soruşdu: «Harada
hazırlıq görməyimizi istəyirsən?» 10İsa
onlara dedi: «Bax siz şəhərə girəndə
qarşınıza səhənglə su daşıyan bir nəfər
çıxacaq. Onun ardınca gedin və onun
girəcəyi evə girin. 11Oranın sahibinə
deyin: "Müəllim sənə deyir: ‹Şagird-
lərimlə birgə Pasxa yeməyini yeyə-
cəyim qonaq otağı haradadır?›" 12Ev
sahibi sizə yuxarı mərtəbədə hər şeyi
hazırlanmış böyük bir otaq göstərəcək.
Orada hazırlıq işləri görün». 13Onlar
gedib hər şeyin Onun dediyi kimi
olduğunu gördülər və Pasxa yeməyi
üçün hazırlıq etdilər.

14Yemək vaxtı çatanda İsa həvari-
lərlə süfrəyə oturdu. 15İsa onlara dedi:
«Mən əzab çəkməzdən əvvəl bu Pasxa
yeməyini sizinlə birgə yeməyi çox
arzulayırdım. 16Sizə bunu deyirəm:
Pasxa Allahın Padşahlığında yerinə
yetənədək Mən bir daha onu yemə-
yəcəyəm».

17Sonra İsa bir kasa götürüb şükür
etdi və dedi: «Bunu götürün və ara-
nızda bölüşdürün. 18Mən sizə deyirəm:
Allahın Padşahlığı gələnədək üzüm
ağacının məhsulundan əsla içməyə-
cəyəm».

19Sonra İsa çörək götürdü, şükür
edib onu böldü və şagirdlərə verərək
dedi: «Bu Mənim sizin üçün verilən
bədənimdir. Bunu Məni xatırlamaq
üçün edin». 20Eləcə də axşam yemə-
yindən sonra kasanı götürüb dedi:
«Sizin üçün axıdılan bu kasa Mənim
qanımla bağladığım Yeni Əhddir.
21Amma budur, Mənə xəyanət edən
Mənimlə birlikdə əlini bu süfrəyə
uzadır. 22Bəşər Oğlu təyin edilmiş
yolla gedir. Amma vay o adamın
halına ki, Ona xəyanət edir!»
23Şagirdlər öz aralarında bunu kimin
edəcəyini araşdırmağa başladılar.

24Aralarında onlardan kimin ən
böyük sayılacağı barəsində bir müba-
hisə də oldu. 25Amma İsa onlara dedi:
«Millətlərin padşahları onların üzə-
rində hökm edir və bu hakimiyyətdə
olanlar himayədar adlanır. 26Amma
siz belə olmayın. Aranızda ən böyük
olan ən kiçik kimi olsun və rəhbərlik
edən xidmətçi kimi olsun. 27Axı kim
daha böyükdür, süfrədə oturan, yoxsa
xidmət edən? Süfrədə oturan deyilmi?
Mənsə sizin aranızda xidmətçi kimi-
yəm.

28Keçirdiyim sınaqlarda Mənimlə
qalanlar sizsiniz. 29Atam Mənə bir
padşahlıq tapşırdığı kimi Mən də sizə
bir padşahlıq tapşırıram; 30belə ki
Mənim Padşahlığımda süfrəmdə ye-
yib-içəsiniz və İsrailin on iki qəbilə-
sinə hökm etmək üçün taxtlarda otu-
rasınız.

### *Peterin inkarı əvvəlcədən bildirilir*

*(Mat. 26:31-35; Mark 14:27-31;*
*Yəh. 13:36-38)*

31Şimon, Şimon! Şeytan sizi buğda
kimi xəlbirdən keçirməyə icazə istədi.
32Amma Mən imanın itməsin deyə
sənin üçün dua etdim. Sən də bir
zaman geri dönüb öz qardaşlarını
qüvvətləndir». 33O, İsaya cavab verdi:
«Ya Rəbb, mən Səninlə zindana da,
ölümə də getməyə hazıram». 34Amma
İsa dedi: «Peter, sənə bunu deyirəm:
bu gün xoruz banlamazdan əvvəl sən

**22:20** *Yer. 31:31-34* **22:21** *Zəb. 41:9* **22:24** *Mat. 18:1; Mark 9:34; Luka 9:46*
**22:25-26** *Mat. 20:25-27; 23:11; Mark 9:35; 10:42-44* **22:27** *Yəh. 13:12-15* **22:30** *Mat. 19:28*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 123



Məni tanıdığını üç dəfə inkar edə-
cəksən».
**35**Sonra şagirdlərə dedi: «Mən sizi
kisəsiz, torbasız və çarıqsız göndə-
rəndə bir şeydə korluq çəkmisinizmi?»
Onlar cavab verdilər: «Heç bir şeydə».
**36**Onda İsa onlara dedi: «İndi isə kisəsi
və torbası olan bunları götürsün.
Qılıncı olmayan da öz paltarını satıb
qılınc alsın. **37**Çünki sizə deyirəm: bu
yazılmış olan
"Üsyankarlara tay tutuldu"
sözü Məndə tam yerinə yetməlidir.
Çünki Mənim barəmdə yazılanlar
tamam olur». **38**Onlar dedilər: «Ya
Rəbb, budur, burada iki qılınc var». O
isə onlara dedi: «Bu kifayətdir».

### *İsa Zeytun dağında dua edir*

*(Mat. 26:36-46; Mark 14:32-42)*

**39**İsa çıxıb adətinə görə Zeytun
dağına getdi. Şagirdlər də Onun ar-
dınca getdi. **40**Oraya çatanda İsa
onlara dedi: «Dua edin ki, sınağa
düşməyəsiniz». **41**İsa Özü isə onlardan
bir daş atımı qədər uzaqlaşdı və diz
çöküb dua etdi. **42**O belə dedi: «Ey
Ata, əgər Sənin iradənə məqbuldursa,
bu kasanı[a] Məndən uzaqlaşdır. Amma
Mənim yox, Sənin iradən olsun».
**43**Göydən bir mələk İsaya göründü və
Onu qüvvətləndirdi. **44**İsa dəhşətli
iztirab içində daha səylə dua edirdi.
Onun təri yerə düşən qan damlalarına
bənzəyirdi.[b] **45**İsa duadan qalxıb şa-
girdlərin yanına gəldi, onları kədərdən
üzülmüş və yatmış tapdı. **46**O, şa-
girdlərə dedi: «Nə üçün yatırsınız?
Qalxın, dua edin ki, sınağa düşmə-
yəsiniz».

### *İsa həbs olunur*

*(Mat. 26:47-56; Mark 14:43-50; Yəh. 18:3-12)*

**47**İsa hələ danışarkən bir izdiham
göründü. On İki şagirddən biri, Yə-
huda adlı bir nəfər onlardan qabaqda
gedirdi. O, İsanı öpmək üçün yaxın-
laşdı. **48**Amma İsa ona dedi: «Yəhuda,
sən Bəşər Oğlunu bir öpüşləmi satır-
san?» **49**İsanın ətrafında olanlar nə baş
verəcəyini görəndə Ona dedilər: «Ya
Rəbb, bəlkə qılıncla vuraq?» **50**Onlar-
dan biri baş kahinin qulunu vurub sağ
qulağını qopartdı. **51**Lakin İsa dedi:
«Bəsdir, eləməyin». Sonra qulun qula-
ğına toxunaraq onu sağaltdı.
**52**İsa üstünə gələn başçı kahinlərə,
məbəd mühafizəçilərinin başçılarına
və ağsaqqallara dedi: «Nə üçün quldur
üstünə gələn kimi qılınc və dəyə-
nəklərlə gəlmisiniz? **53**Mən hər gün
məbəddə sizinlə birlikdə olanda siz
Mənə əl qaldırmadınız. Amma indi
sizin vaxtınızdır, zülmət hökmranlığı-
dır».

### *Peter İsanı inkar edir*

*(Mat. 26:57-58,67-75; Mark 14:53-54,65-72; Yəh. 18:13-18,25-27)*

**54**İsanı tutub apardılar və baş kahi-
nin evinə gətirdilər. Peter isə uzaqdan
Onun ardınca gedirdi. **55**Həyətin or-
tasında tonqal qalanmışdı. Peter gəlib
onun ətrafında oturanların arasında
oturdu.
**56**Qarabaşlardan biri tonqalın
işığında oturan Peteri gördü. Ona
diqqətlə baxıb dedi: «Bu adam da İsa
ilə birlikdə idi». **57**Amma Peter «Ay
arvad, mən Onu tanımıram!» deyərək

a **22:42** *Kasa* – İsanın çarmıxdakı ölümünün rəmzidir.
b **22:43-44** Ən qədim yunan əlyazmalarında bu ayələr yoxdur.
**22:35** *Mat. 10:9-10; Mark 6:8-9; Luka 9:3; 10:4* **22:37** *Yeş. 53:12* **22:53** *Luka 19:47-48; 21:37*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 124



Onu inkar etdi. 58Bir az sonra başqa
bir adam onu görüb dedi: «Sən də
onlardansan». Amma Peter dedi: «Ay
kişi, mən deyiləm!» 59Bir saata yaxın
vaxt keçdi və digər bir adam təkidlə
dedi: «Doğrudan da, bu adam da
Onunla birlikdə idi, çünki Qalile-
yalıdır». 60Peter isə dedi: «Ay kişi,
dediyini başa düşmürəm».

Elə o danışdığı an xoruz banladı.
61Onda Rəbb dönüb Peterə baxdı.
Peter Rəbbin «bu gün xoruz banla-
mazdan əvvəl sən Məni üç dəfə inkar
edəcəksən» dediyi sözü yadına saldı.
62Ona görə oradan çıxıb hönkür-
hönkür ağladı.

63İsanı tutub saxlayan adamlar
Onu ələ sala-sala döyürdülər. 64Göz-
lərini bağlayıb Ondan soruşurdular:
«Peyğəmbərlik elə görək, Səni vuran
kimdir?» 65Ona başqa sözlər də deyib
çoxlu böhtan atırdılar.

### *İsa Ali Şuranın önündə*

*(Mat. 26:57-66; Mark 14:53-64;
Yəh. 18:19-24)*

66Səhər açıldıqda xalqın ağsaqqal-
ları, başçı kahinlər və ilahiyyatçılar
yığıldı və İsanı öz Ali Şuralarına
gətirdilər. 67Onlar dedilər: «Bizə de,
Məsih Sənsənmi?» İsa onlara dedi:
«Əgər sizə desəm, inanmazsınız.
68Əgər sizdən soruşsam, Mənə cavab
verməyəcəksiniz.[a] 69Bundan sonra isə
Bəşər Oğlu qüdrətli Allahın sağında
oturacaq». 70Onların hamısı dedi:
«Deməli, Sən Allahın Oğlusan?» İsa
onlara cavab verdi: «Sizin dediyiniz
kimi O Mənəm». 71Onda onlar dedi-
lər: «Artıq şəhadətə nə ehtiyacımız
var? Axı biz özümüz Onun ağzından
eşitdik».

### *İsa Romalı vali Pilatın və Qalileya hökmdarı Hirodun önündə*

*(Mat. 27:1-2,11-26; Mark 15:1-15; Yəh.
18:28-19:16)*

23 1Ali Şura üzvlərinin hamısı
ayağa durub İsanı Pilatın
yanına apardı. 2Onu ittiham etməyə
başlayaraq dedilər: «Biz gördük ki, bu
adam millətimizi yoldan çıxarır.
Qeysərə vergi verməyə mane olur və
Özünü Məsih, Padşah adlandırır».
3Pilat Ondan «Yəhudilərin Padşahı
Sənsənmi?» deyə soruşdu. İsa cavabın-
da ona dedi: «Sənin dediyin kimidir».
4Pilat başçı kahinlərə və xalqa dedi:
«Mən bu Adamda heç bir təqsir gör-
mürəm». 5Amma onlar təkidlə deyir-
dilər: «Bu Adam Qalileyadan tutmuş
bu yerə qədər bütün Yəhudeyada təlim
öyrədərək xalqı təşvişə salır».

6Pilat Qalileya barədə eşidib
soruşdu: «Məgər bu Adam Qalileya-
lıdır?» 7İsanın Hirodun idarə etdiyi
vilayətdən olduğunu bildikdə Onu
Hirodun yanına göndərdi. Çünki o
günlər Hirod da Yerusəlimdə idi.

8Hirod İsanı gördükdə çox sevindi.
Onun haqqında eşitdiyi şeylərə görə
Onu çoxdan görmək istəyirdi. Ondan
bir əlamət görməyi umurdu. 9Hirod
Ona çox suallar verdi, amma İsa ona
heç bir cavab vermədi. 10Başçı ka-
hinlər və ilahiyyatçılar durub Onu
şiddətlə ittiham edirdilər. 11Hirod öz
əsgərləri ilə Onu təhqir edib ələ saldı.
Onun əyninə bir gözəl paltar geyin-
dirib Pilatın yanına qaytardı. 12Əv-
vəllər düşmən olan Pilatla Hirod o gün
bir-biri ilə dostlaşdı.

13O zaman Pilat başçı kahinləri,
rəhbərləri və xalqı toplayıb 14onlara

a **22:68** *Verməyəcəksiniz* – bəzi əlyazmalarda *verməyəcəksiniz və Məni buraxmayacaqsınız.*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 125



dedi: «Siz bu Adamı mənim yanıma buna görə gətirdiniz ki, O, xalqı yoldan çıxarır. Budur, mən sizin qarşınızda məsələni araşdırıb bu Adamı sizin irəli sürdüyünüz ittihamların heç birində təqsirkar görmədim. **15**Hirod da bir şey tapmadı. Çünki bu Adamı bizə geri göndərdi.[a] Budur, O, ölüm cəzasına layiq heç bir şey etməyib. **16**Buna görə də mən Onu cəzalandırıb azad edəcəyəm». **17**[b]

**18**Amma bütün xalq birlikdə çığırırdı: «Bu Adam öldürülsün! Bizə Barabbanı azad et!» **19**Barabba şəhərdə üsyan qaldırmaq və adam öldürmək üstündə zindana atılmışdı. **20**Pilat İsanı azad etmək istəyərək yenə də səsini ucaltdı. **21**Amma onlar «Onu çarmıxa çək, çarmıxa çək!» deyə bağırırdılar. **22**Pilat üçüncü dəfə onlara dedi: «Axı O nə pislik edib? Mən Onda ölüm cəzasına layiq heç bir təqsir görmədim. Buna görə də Onu cəzalandırıb azad edəcəyəm». **23**Amma onlar təkid edərək uca səslə tələb edirdilər ki, O, çarmıxa çəkilsin. Onların[c] səsi hamıdan bərk gəlirdi.

**24**Pilat onların tələbini yerinə yetirmək qərarına gəldi. **25**Üsyan qaldırıb adam öldürdüyünə görə zindana atılmış adamı onların tələbinə görə azad etdi. İsanı isə onların ixtiyarına təslim etdi.

### *İsa çarmıxa çəkilir*

*(Mat. 27:32-44; Mark 15:21-32; Yəh. 19:17-25)*

**26**Əsgərlər İsanı apararkən kənd yerindən gələn Şimon adlı Kirenalı bir nəfəri yaxaladılar. Çarmıxı onun boynuna yükləyib İsanın ardınca daşımağa məcbur etdilər.

**27**İsanın ardınca böyük bir izdiham və Onun üçün ağlayıb nalə çəkən qadınlar gedirdi. **28**İsa onlara tərəf dönüb dedi: «Ey Yerusəlim qızları, Mənim üçün ağlamayın. Özünüz və övladlarınız üçün ağlayın. **29**Çünki elə günlər gəlir ki “Nə bəxtiyardır sonsuz, doğmamış bətnlər və əmizdirməmiş döşləri olan qadınlar!” deyəcəklər. **30**“O zaman dağlara ‹Üstümüzə yıxılın!›, təpələrə ‹Bizi örtün!› deməyə başlayacaqlar”. **31**Çünki yaşıl ağacın başına bunları gətirirlərsə, bəs qurumuş ağaca nə olacaq?»

**32**İsa ilə birlikdə iki cinayətkar da edama aparılırdı. **33**Kəllə adlanan yerə gələndə orada Onu və cinayətkarları – birini sağında, birini də solunda çarmıxa çəkdilər. **34**Amma İsa deyirdi: «Ata! Onları bağışla, çünki nə etdiklərini bilmirlər».[d] Onlar püşk ataraq paltarlarını aralarında bölüşdürdülər.

**35**Camaat durub tamaşa edirdi. Onlarla birlikdə rəhbərlər də İsaya istehza edib deyirdilər: «Başqalarını xilas edirdi. Əgər O, Allahın seçdiyi Məsihdirsə, qoy Özünü də xilas etsin!» **36**Əsgərlər də yaxınlaşıb Onu ələ saldılar. Ona şərab sirkəsi təqdim edib **37**belə dedilər: «Əgər Sən Yəhudilərin Padşahısansa, Özünü xilas et!» **38**Onun üzərində «Yəhudilərin Padşahı budur» yazısı yazılmışdı.[e]

---

a **23:15** *Bu Adamı bizə geri göndərdi* – bəzi əlyazmalarda *sizi onun yanına göndərmişdim,* bəzilərində isə *bu Adamı onun yanına göndərmişdim.*

b **23:16-17** *Edəcəyəm* – bəzi əlyazmalarda *edəcəyəm». 17 Pilat bayrama görə bir əsiri azad etməli idi.*

c **23:23** *Onların* – bəzi əlyazmalarda *Onların və başçı kahinlərin.*

d **23:34** *Amma İsa … bilmirlər»* – bu sözlər ən qədim yunan əlyazmalarında yoxdur.

e **23:38** *Yazılmışdı* – bəzi əlyazmalarda *yunan, latın və ibrani hərfləri ilə yazılmışdı.*

**23:30** *Huşə 10:8; Vəhy 6:16* **23:34** *Zəb. 22:18*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 126



**39**Çarmıxa asılmış cinayətkarlardan
biri Ona böhtan ataraq deyirdi:
«Məgər Sən Məsih deyilsən? Özünü də,
bizi də xilas et!». **40**O biri cinayətkarsa
ona qadağan edərək deyirdi: «Sən heç
Allahdan qorxmursan? Sən özün də
eyni cəzaya məhkum olmusan! **41**Biz
ədalətlə məhkum olunmuşuq, çünki
əməllərimizə layiq olan əvəzi alırıq. Bu
Adamsa heç bir haqsızlıq etməmişdi».
**42**Sonra İsaya dedi: «Ey İsa, Öz
Padşahlığına gələndə məni xatırla!»
**43**İsa ona dedi: «Sənə doğrusunu de-
yirəm: bu gün sən Mənimlə birlikdə
cənnətdə olacaqsan».

### *İsanın ölümü*

*(Mat. 27:45-56; Mark 15:33-41;*
*Yəh. 19:25-30)*

**44**Gündüz altıncı saat[a] idi. Doqqu-
zuncu saata qədər[b] bütün yer üzünə
qaranlıq çökdü, **45**günəş işığını saç-
mırdı. Məbədin pərdəsi ortadan par-
çalandı. **46**İsa uca səslə nida edərək
dedi: «Ey Ata! Ruhumu Sənin əlinə
verirəm». İsa bunu deyib son nəfəsini
verdi.
**47**Bunları görən yüzbaşı «doğrudan
da, bu Adam saleh idi» deyərək Allahı
izzətləndirdi. **48**Bunlara tamaşa etmək
üçün yığılan bütün camaat baş verən
hadisəni gördükdə sinəsinə döyə-döyə
geri döndü.
**49**İsanı tanıyan adamların hamısı və
Onun ardınca Qalileyadan gəlmiş
qadınlar uzaqda durub olub-keçənlərə
baxırdı.

### *İsanın dəfni*

*(Mat. 27:57-61; Mark 15:42-47;*
*Yəh. 19:38-42)*

**50**Ali Şuranın üzvü olan Yusif adlı
xeyirxah və saleh bir kişi var idi. **51**O,
Ali Şuranın qərarı və əməli ilə razı
olmamışdı. Bu adam Yəhudeyanın
Arimateya şəhərindən idi və o da
Allahın Padşahlığını gözləyirdi. **52**O,
Pilatın yanına gedib İsanın cəsədini
istədi. **53**Cəsədi çarmıxdan endirib
kəfənə bükdü və qayada qazılmış, hələ
indiyədək heç kimin dəfn edilmədiyi
bir qəbirə qoydu. **54**O gün Hazırlıq
günü[c] idi və Şənbə günü yaxınlaşırdı.
**55**İsa ilə Qalileyadan gəlmiş qadın-
lar da Yusifin ardınca gedib qəbiri və
Onun cəsədinin necə qoyulduğunu
gördülər. **56**Onlar evlərinə qayıdıb
ətirli maddələr və qiymətli yağlar
hazırladılar. Şənbə günü Allahın əmri
ilə istirahət etdilər.

### *İsanın dirilməsi*

*(Mat. 28:1-10; Mark 16:1-11; Yəh. 20:1-18)*

**24** **1**Həftənin ilk günü[d] səhər çox
erkən qadınlar hazırladıqları
ətirləri götürüb qəbirin yanına gəldi-
lər.[e] **2**Qəbirin qapısındakı daşı yuvar-
lanmış gördülər. **3**Amma içəri girib
Rəbb İsanın cəsədini tapmadılar.
**4**Onlar bundan çaşqınlıq içində olar-
kən şimşək kimi parıldayan paltar
geymiş iki kişi qəflətən onların
qarşısında peyda oldu. **5**Qadınlar təlaş
içində üzüstə yerə sərildi. Kişilər

---

a **23:44** *Altıncı saat* – hazırkı vaxtla günorta saat on iki.
b **23:44** *Doqquzuncu saat* – hazırkı vaxtla günortadan sonra saat üç.
c **23:54** *Hazırlıq günü* – yəni Yəhudilərdə müqəddəs sayılan Şənbə günü üçün hazırlıq görülən cümə günü.
d **24:1** *Həftənin ilk günü* – yəni bazar günü.
e **24:1** *Gəldilər* – bəzi əlyazmalarda *gəldilər. Bəzi başqa adamlar da onlarla birgə gəldilər.*
**23:44-45** *Çıx. 26:31-33* **23:46** *Zəb. 31:5* **23:49** *Luka 8:2-3* **23:56** *Çıx. 20:10; Qanun. 5:14*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 127



soruşdular: «Nə üçün siz Dirini ölülər
arasında axtarırsınız? 6O burada
yoxdur, O dirilmişdir! Hələ Qalileyada
olarkən Onun sizə dediklərini yadınıza
salın. 7Demişdi ki, "Bəşər Oğlu günah-
kar insanlara təslim olmalı, çarmıxa
çəkilməli və üçüncü gün dirilməlidir"».
8Qadınlar da İsanın sözlərini yada
saldılar.

9Qəbirdən qayıdan qadınlar bütün
bunları On Bir şagirdə və başqa
adamların hamısına xəbər verdilər.
10Həvarilərə bu xəbəri çatdıranlar
Məcdəlli Məryəm, Yoxanna, Yaqu-
bun anası Məryəm və onlarla birgə
olan digər qadınlar idi. 11Amma bu
sözlər həvarilərə mənasız göründü və
qadınlara inanmadılar. 12Peter isə
qalxıb qəbirə tərəf qaçdı. O əyilib
yalnız kətan bezləri gördü və bu ha-
disəyə heyrət edərək öz evinə qayıtdı.

### *İsa iki şagirdə görünür*

*(Mark 16:12-13)*

13Elə o gün onlardan ikisi Yeru-
səlimdən altmış stadi[a] uzaqlığında
yerləşən Xamma adlı kəndə gedirdi.
14Onlar olub-keçən bütün bu hadisələr
barədə öz aralarında söhbət edirdi.
15Onlar söhbət edərək öz aralarında
müzakirə edərkən İsa Özü yaxınlaşıb
onlarla birlikdə yol getdi. 16Amma
onların gözləri bağlanmışdı, buna görə
də Onu tanımadılar.

17İsa onlardan soruşdu: «Siz yol
gedə-gedə öz aranızda nə barədə da-
nışırsınız?» Onlar qaşqabaqlı dayan-
dılar. 18Onlardan Kleopa adlı bir
nəfər İsaya cavab verdi: «Yerusəlimdə
qalıb bu günlərdə orada baş vermiş
hadisələrdən xəbəri olmayan bircə
sənsənmi?» 19İsa onlara dedi: «Hansı
hadisələrdən?» Onlar da Ona dedi:
«Nazaretli İsa barəsindəki hadisə-
lərdən. O, Allahın və bütün xalqın
önündə əməldə və sözdə qüdrətli bir
peyğəmbər idi. 20Bizim başçı kahin və
rəhbərlərimiz Onu ölümə məhkum
etmək üçün təslim edib çarmıxa
çəkdirdilər. 21Biz də ümid edirdik ki,
bu, İsrailin gələcək Satınalanıdır. Bun-
dan əlavə, bu hadisələr artıq üç gündür
ki, baş verib. 22Üstəlik bizim qadın-
lardan bəzisi də bizi mat qoydular:
onlar səhər erkən qəbir üstünə gedib
23Onun cəsədini orada tapa bilməyib-
lər və gəlib dedilər ki, görüntüdə Onun
diri olduğunu bəyan edən mələkləri
görüblər. 24Bizimlə olan bəziləri qəbirə
gedib oranın qadınların dediyi kimi
olduğunu müəyyən etdilər, amma Onu
görmədilər».

25Onda İsa onlara dedi: «Ey ağılsız-
lar və peyğəmbərlərin xəbər verdiklə-
rinə inanmaq üçün ürəyində ləngiyən-
lər! 26Məsih bu əzabları çəkib Öz
izzətinə qovuşmalı deyildimi?» 27Son-
ra Musa ilə bütün Peyğəmbərlərdən
başlayaraq Müqəddəs Yazıların ha-
mısında Özü haqqında olanları onlara
izah etdi.

28Onlar getdikləri kəndə yaxınlaş-
dılar. İsa Özünü yoluna davam etmək
istəyən kimi apardı. 29Amma onlar
İsadan təkidlə xahiş edib dedilər:
«Bizimlə qal, çünki axşam düşür və
gün batmaq üzrədir». O da onlarla
qalmaq üçün içəri girdi.

30İsa onlarla süfrəyə oturanda
çörək götürüb şükür duası etdi, böldü
və onlara verdi. 31Bu anda onların
gözləri açıldı və onlar İsanı tanıdılar.

---

a **24:13** *Altmış stadi* – təqribən 11 kilometr.

**24:6-7** *Mat. 16:21; 17:22-23; 20:17-19; Mark 8:31; 9:31; 10:32-34; Luka 9:22; 18:31-33*

42_Luka Lat:Azeri Bible Cyrillic 30.09.2009 11:35 Page 128



Amma İsa onlar üçün görünməz oldu.
32Onlar bir-birlərinə dedilər: «O,
yolda bizimlə danışıb və Müqəddəs
Yazıları bizə izah edəndə bizim
ürəklərimiz alışıb-yanmırdımı?»

33Onlar elə o saat qalxıb Yeru-
səlimə qayıtdılar, On Bir şagirdi və
onlarla birlikdə olanları bir yerdə
toplaşmış gördülər. 34Bunlar deyirdi:
«Rəbb, doğrudan da, dirilmiş və
Şimona görünmüşdür». 35Onlar da
yolda baş verənləri və çörəyi böldüyü
zaman Onu necə tanıdıqlarını nəql
etdilər.

### *İsa On Bir şagirdə görünür*

*(Mat. 28:16-20; Mark 16:14-18;
Yəh. 20:19-23; Həv. 1:6-8)*

36Onlar bu barədə danışarkən İsa
Özü aralarında durub onlara «Sizə
salam olsun!» dedi. 37Onlarsa çaşıb
dəhşətə gələrək bir ruh gördüklərini
zənn etdilər. 38Amma İsa onlara dedi:
«Nə üçün təlaşa düşürsünüz? Nəyə
görə ürəklərinizə belə fikirlər gəlir?
39Əllərimə və ayaqlarıma baxın. Bu –
Mən Özüməm! Mənə toxunun və ba-
xın, çünki Məndə olduğunu gördüyü-
nüz kimi ruhun əti və sümüyü olmur».
40İsa bunu deyib onlara əllərini və
ayaqlarını göstərdi. 41Onlar hələ
sevincdən inanmayıb heyrətlənərkən
İsa onlara dedi: «Burada yeməyə bir
şey varmı?» 42Ona bir tikə bişmiş
balıq[a] verdilər. 43İsa da yeməyi gö-
türüb onların qabağında yedi.

44Sonra İsa onlara dedi: «Sizinlə
birgə olarkən söylədiyim sözlər bun-
lardır: Musanın Qanununda,[b] Pey-
ğəmbərlərin kitablarında və Zəburda
Mənim haqqımda yazılanların yerinə
yetirilməsi lazımdır». 45Bundan sonra
Müqəddəs Yazıları anlamaq üçün
onların zehnini açdı. 46İsa onlara dedi:
«Belə yazılıb: Məsih əzab çəkib üçüncü
gün ölülər arasından dirilməlidir.
47Yerusəlimdən başlayaraq bütün mil-
lətlərə günahların bağışlanması üçün
tövbə Onun adı ilə vəz edilməlidir.
48Siz bu hadisələrin şahidisiniz. 49Bu-
dur, Mən Öz Atamın vəd etdiyini sizə
göndərəcəyəm. Sizsə ucalardan gələn
qüvvəyə bürünənədək bu şəhərdə qa-
lın».

### *İsanın göyə qaldırılması*

*(Mark 16:19-20; Həv. 1:9-11)*

50İsa onları şəhərdən kənara çıxarıb
Bet-Anyayadək gətirdi və əllərini
qaldırıb onlara xeyir-dua verdi;
51xeyir-dua verərkən onlardan uzaq-
laşdı və göyə aparıldı. 52Şagirdləri də
İsaya səcdə etdilər və böyük sevinclə
Yerusəlimə qayıtdılar. 53Onlar daim
Allaha alqış edərək məbəddə olurdu-
lar.

---

a **24:42** *Balıq* – bəzi əlyazmalarda *balıq və bir parça bal pətəyi.*
b **24:44** *Musanın Qanunu* – yəni Tövrat.
**24:49** *Həv. 1:4*